

**“Azərbaycan xalqı hər şeyi yaxşı bilir və bilməlidir ki, biz informasiya müharibəsi şəraitində yaşayırıq və buna hazır olmalıyıq. Biz bu müharibədə ancaq öz işimizlə, öz qətiyyətimizlə qalib gələ bilərik.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

*Elmi-praktiki jurnal*

*Aprel - İyun (2019-cu il)*

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cu il tarixli, 10/53 nömrəli "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan "Azərbaycan Prokurorluğu" jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində səhifələnmişdir.

Çapa imzalanmışdır: 15.07.2019
60x84 1/8 formatda 134 səhifə həcmdədir.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2019

# MÜNDƏRİCAT

## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR


**4** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**6** Prezident İlham Əliyev 10 milyonuncu sakinin dünyaya gəlməsi münasibətilə Azərbaycan xalqını təbrik edib

**6** Prezident İlham Əliyev Azərbaycanın 10 milyonuncu sakininin valideynləri ilə görüşüb

**9** Prezident İlham Əliyev Bakıda Formula 1 SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışına baxıb

**13** Prezident İlham Əliyev Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib

**19** Prezident İlham Əliyev 9 May – Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib

**22** Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyasında iştirak edib

**24** Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**27** Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib

**34** Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib

**38** Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**39** Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

**41** Prezident İlham Əliyev 28 May – Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak edib

**46** Prezident İlham Əliyev Olimpiya Stadionunda UEFA Avropa Liqasının final oyununa baxıb


## RƏSMİ TƏDBİRLƏR


**49** Baş Prokurorluqda Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03 aprel 2019-cu il tarixli Fərmanında prokurorluğa ünvanlanmış tövsiyələrin yerinə yetirilməsi məqsədi ilə geniş əməliyyat müşavirəsi keçirilib

**51** Prokurorluğun kollektivi növbəti ağacəkmə kampaniyası keçiriblər

**53** Azərbaycan Respublikasının Baş Prokurorluğunda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**56** Azərbaycan Prokurorluğunun kollektivi ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**57** Hərbi Prokurorluqda ümummilli lider Heydər Əliyevin 96 illik yubileyi münasibəti ilə bağlı elmi-praktik konfrans keçirilib

**60** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 96 illik yubileyinə həsr olunan tədbir keçirilib

**62** Bakı şəhər prokurorluğunda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

**64** Baş prokuror Zakir Qaralov Türkiyənin Baş Ombudsmanı ilə görüşüb

**65** Ə.N.Nağıyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 iyun 2019-cu il tarixli Sərəncamı

**65** Ə.N.Nağıyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilməsi ilə bağlı Baş Prokurorluqda toplantı keçirilib

**68** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir


## HEYDƏR ƏLİYEV – 96


**71** Müstəqil və müasir Azərbaycanın memarı


## İCTİMAİYYƏTƏ HESABAT


**80** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Vəkillər Kollegiyası arasında Anlaşma Memorandumu imzalanıb

**82** Ədalət mühakimə icraatında insan hüquqlarının təmin edilməsi məsələlərinə həsr edilmiş beynəlxalq seminar keçirilib

**83** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində kurslar təşkil edilib

**85** Baş Prokurorluğunun Hüquqi təminat idarəsi tərəfindən seminarlar keçirilib

**87** Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən seminarlar keçirilib

**90** Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları tərəfindən seminarlar, tədbirlər təşkil olunub


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**97** Azərbaycanın və Rusiya Federasiyasının Baş prokurorluqları arasında əməkdaşlıq genişlənir

**99** Prokurorluğun nümayəndə heyəti beynəlxalq konfransda ölkəmizi uğurla təmsil edib

**100** Hakim və prokurorlardan ibarət Azərbaycanın nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edib

**100** Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq uğurla davam edir

**107** Baş Prokurorluğun nümayəndələri beynəlxalq elmi-praktiki konfranslarda iştirak ediblər


## HÜQUQİ AKTLAR


**111** Qanunvericiliyə dəyişikliklər

**132** Prokurorluq üzrə normativ akt

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Prezident İlham Əliyev:**
**"Son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkə yoxdur."**



Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı İlham Əliyev keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirdi. "İslahatlara alternativ yoxdur", – deyən Prezident İlham Əliyev vurğuladı ki, son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkə yoxdur.

Birinci rübdə büdcə daxilolmalarının artdığını, bununla da əlavə maliyyə resursunun formalaşdığını deyən dövlətimizin başçısı ilin əvvəlindən ümumi daxili məhsulun, sənaye istehsalının, qeyri-neft sənayesinin, kənd təsərrüfatının, əhalinin gəlirlərinin artdığını, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulduğunu dedi. Qeyd etdi ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 25-ci yerə layiq görülüb və 10 ən islahatçı ölkə arasındadır. İlin əvvəlindən böyük həcmli sosial paketin icra edildiyini deyən Prezident İlham Əliyev minimum əməkhaqqının, minimum pensiyaların, məcburi köçkünlərə verilən müavinətlərin, tələbələrin təqaüdlərinin və digər sosial müavinətlərin artdığını bildirdi, problemli kreditlərlə bağlı məsələnin



və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problemin həll olunduğunu vurğuladı.

"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik", – deyən Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının əhəmiyyətindən danışdı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərkən dövlətimizin başçısı bildirdi ki, bu məsələ ilə bağlı Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və münaqişə ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun həll olunmalıdır.

Sonra Prezidentin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, kənd təsərrüfatı naziri İnam Kərimov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev görülən işlərlə bağlı məruzə etdilər.

Prezident İlham Əliyev yekun nitqində hazırda iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını, ölkədə aparılan islahatların beynəlxalq qurumlar tərəfindən dəstəkləndiyini bildirdi. Dövlətimizin başçısı ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər, xarici sərmayələrin cəlbi, məcburi köçkünlər və şəhid ailələrinin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən danışdı. Son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanılacaq. Ağsu, İsmayıllı və Şamaxı rayonlarında baş verən zəlzələnin fəsadlarının uğurla aradan qaldırıldığını deyən dövlətimizin başçısı Azərbaycan vətəndaşlarını əmin etdi ki, dövlət hər zaman onların yanında olacaq.

Sonda Prezident İlham Əliyev 2019-cu ilin də xalqımız üçün uğurlu olacağına əminliyini ifadə etdi.

# President İlham Əliyev 10 milyonuncu sakinin dünyaya gəlməsi münasibətilə Azərbaycan xalqını təbrik edib

2019-cu il aprelin 6-da keçmiş Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün Ocaqova Nigar Çərkəz qızı ilə Həsənov Rauf Yunis oğlunun ailəsində Azərbaycanın 10 milyonuncu sakini dünyaya gəlib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə Azərbaycan xalqını və uşağın valideynlərini təbrik ediblər.

# Prezident İlham Əliyev Azərbaycanın 10 milyonuncu sakininin valideynləri ilə görüşüb

## Prezidentin hədiyyəsi, Mehriban xanımın xeyir-duası

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 9-da Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşüblər.

Dövlətimizin başçısı və xanımı uşağın valideynləri ilə söhbət etdilər.

**Rauf Həsənov:** 2019-cu il aprelin 6-da saat 03.30 radələrində dünyaya gəldi.

**Prezident İlham Əliyev:** Bilirəm. Biz bu hadisəni izləyirdik. Aprelin 6-da sizin həyatınızda, eyni zamanda, ölkəmizin həyatında çox əlamətdar hadisə baş vermişdir. Sizin körpəniz ölkəmizin 10 milyonuncu sakinidir. Sizi təbrik edirəm, sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin. Bu, tarixi hadisədir. Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını təbrik edirəm.

**Rauf Həsənov:** Biz gözləmirdik ki, bizim körpəmiz Azərbaycanın 10 milyonuncu sakini olar.

**Prezident İlham Əliyev:** Əhalimiz artır. Yadımdadır, 9 milyonuncu sakin 2010-cu ildə dünyaya gəldi. Doqquz il ərzində əhalimiz 1 milyon artdı. Amma son 15 il ərzində əhali 1,7 milyon nəfər artdı. Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır. Eyni zamanda, onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır.

**Rauf Həsənov:** Mənim xəbərim yox idi. Mətbuat xəbərlərinə girib oxudum, gördüm ki, sağ olun, elə ilk öncə Siz təbrik etmisiniz.

**Prezident İlham Əliyev:** Bəli, bəli.

**Rauf Həsənov:** Çox sağ olun, çox minnətdarıq.

**Birinci xanım Mehriban Əliyeva:** Çox göyçək uşaqdır.

**Prezident İlham Əliyev:** Bu, sizin birinci uşağınızdır?

**Rauf Həsənov:** Bəli, ilk övladımızdır.

**Birinci xanım Mehriban Əliyeva:** İlk uşağınızdır?

**Nigar Ocaqova:** Bəli, ilk uşağımızdır.

**Birinci xanım Mehriban Əliyeva:** Maşallah, Allah qorusun.

**Rauf Həsənov:** Elə ilk olaraq Siz təbrik etdiyinizə görə adını da Sizin adınızı qoyduq.

**Nigar Ocaqova:** Siz də xeyir-duasını verin.

**Birinci xanım Mehriban Əliyeva:** Verirəm. Xoşbəxt böyüsün, sağlam böyüsün.

**Prezident İlham Əliyev:** Bu hadisəni bütün xalqımız bayram edir.

**Rauf Həsənov:** Bəli, bütün ölkəmiz bayram edir. Biz də çox sevincliyik, çox sevinirik.



**Nigar Ocaqova:** Biz də şəhərimizin belə gözəl tibb ocaqlarının olmasına sevinirik. Perinatal Mərkəzin direktoru Sevinc xanıma, körpənin sağlam şəkildə dünyaya gəlməsinə görə Rübabə xanıma təşəkkürümüzü bildiririk. Sağ olsunlar.

**Prezident İlham Əliyev:** Bu mərkəz çoxdan fəaliyyət göstərirdi. Təqribən 10 il bundan əvvəl əsaslı şəkildə yenidən quruldu, təmir olundu və indi ölkəmizin aparıcı tibb mərkəzlərindən biridir. Son illərdə ölkəmizin hər bir yerində doğum evləri, doğum şöbələri, xəstəxanalar tikilir. Yəni, indi tibbi xidmət almaq üçün bütün şərait var.





**Birinci xanım Mehriban Əliyeva:** Götürmək olar balacanı?

**Rauf Həsənov və Nigar Ocaqova:** Buyurun.

**Birinci xanım Mehriban Əliyeva:** Maşallah.

**Nigar Ocaqova:** Maşallah gününüz olsun.

**Birinci xanım Mehriban Əliyeva:** Allah qorusun! Xoşbəxt, sağlam, analı-atalı böyüsün!

**Rauf Həsənov:** Çox sağ olun ki, gəldiniz.

**Prezident İlham Əliyev:** Bu, Həsənova Mehriban Rauf qızının sertifikatıdır. Ölkəmizin 10 milyonuncu sakinidir. Bunu sizə təqdim edirəm.

**Rauf Həsənov:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bu həmin sertifikatın başqa variantıdır. Sizə dövlət tərəfindən mənzil hədiyyə olunur. Bu da mənzilin çıxarışıdır.

**Rauf Həsənov:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Gözəl balanızın hesabına vəsait də köçürülür.

**Rauf Həsənov:** Çox sağ olun. Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Xeyirli işlərdə istifadə edin. Bu da hədiyyələrdir.

**Rauf Həsənov:** Çox sağ olun. Sizə minnətdaram.

**Birinci xanım Mehriban Əliyeva:** Çox sağ olun. Təbrik edirik.

# Prezident İlham Əliyev Bakıda Formula 1 SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışına baxıb

## 1001-ci Formula 1 Qran-Prisi Bakıda



Aprelin 28-də Bakıda Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin – SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib. Əvvəlcə pilotların paradı və açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin – SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışına baxıblar.

Formula 1 Azərbaycan Qran-Prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılış mərasimi maraqlı anları ilə yadda qaldı.




Paradda və himn mərasimində pilotları azyaşlılar müşayiət etdilər. Formula 1 şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının "Gələcəyin ulduzları" adlı birgə təşəbbüsü çərçivəsində qəbul etdiyi qərara əsasən, ötənilki mövsümdən etibarən həm parad, həm də himn mərasimlərində pilotlar azyaşlılar tərəfindən müşayiət olunurlar.

Əvvəlcə builki yarış üçün xüsusi tərtib olunmuş kubok təqdim edildi.

Açılış mərasiminə Azərbaycan Respublikasının dövlət himninin ifası ilə start verildi.

Dövlət himni tanınmış bəstəkar Azad Vəliyevin yeni aranjimanında səsləndirildi. Himni Azərbaycanın Əməkdar artistləri Bəyimxanım Vəliyeva və Nurlan Növrəsli birlikdə, müvafiq olaraq, muğam və klassik üslublarda ifa etdilər. Onları Əməkdar artistlər – tarda Şəhriyar İmanov, nağarada Kamran Kərimov, violonçeldə Emin Qaliyev və bəm nağarada Hüsaməddin Əzizov müşayiət etdilər.

Dövlət himninin ifa olunmasından sonra Formula 1 Azərbaycan Qran-Prisinin 51 dövrədən ibarət əsas yarışı başladı.

Final mərhələsində hər birində iki pilot olan on komanda mübarizə apardı. Ötən gün keçirilən sıralama yürüşünün nəticəsinə əsasən start xəttinə ən yaxın məsafədə "Mercedes" komandasının sürücüləri Luis Hamilton və Valtteri Bottas, "Ferrari" komandasının pilotu Sebastian Fettel dayandılar.

Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.




Gərgin idman mübarizəsinin yekununda “Mercedes” komandasının pilotu Valtteri Bottas Formula 1 SOCAR Azərbaycan Qran-Prisinin qalibi adını qazandı. O, 51 dövrəni hamıdan tez – 1 saat 31 dəqiqə 52,942 saniyəyə başa vurdu.

Ondan 1,524 saniyə geri qalan komanda yoldaşı, ötənilki Bakı Qran-Prisinin qalibi Luis Hamilton ikinci oldu. İlk üçlüyü liderə 11,739 saniyəlik fərqlə uduzan “Ferrari” komandasının sürücüsü Sebastian Fettel tamamladı.

“Mercedes” komandası bu qələbə ilə Formula 1 üzrə dünya çempionatları tarixində yeni rekorda imza atdı. Belə ki, ilk dəfə olaraq ardıcıl dörd Qran-Pridə bir komandanın hər iki pilotu yürüşləri ilk iki pillədə başa vurdu.

Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi.

Əvvəlcə qalib idmançının və komandanın şərəfinə müvafiq olaraq Finlandiyanın və Almaniyanın dövlət himnləri səsləndirildi.

Qran-Prinin qalibi Valtteri Bottasa kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi.

Dövlətimizin başçısı Konstruktorlar kubokunu “Mercedes” komandasının nümayəndəsinə təqdim etdi.




İkinci yerin sahibi, “Mercedes”in sürücüsü Luis Hamiltona kuboku Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan “Ferrari” komandasının sürücüsü Sebastian Fettelə isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdilər.

Beləliklə, Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsindən – Azərbaycan Qran-Prisindən sonra pilotların mübarizəsinə 87 xalla “Mercedes”in sürücüsü Valtteri Bottas liderlik edir. Komanda yoldaşı Luis Hamilton ondan 1 xal geri qalır. “Ferrari” komandasının almaniyalı pilotu Sebastian Fettel 52 xalla üçüncü, “Red Bull Racing Honda”nın hollandiyalı pilotu Maks Ferstappen 51 xalla dördüncü, “Ferrari”nin Monakodan olan sürücüsü Şarl Lekler isə 47 xalla beşinci pillədə qərarlaşıblar.

Konstruktorların yarışında isə “Mercedes” komandası 173 xalla birinci sıradadır. İkinci yerdə qərarlaşan “Ferrari” komandasının 99, üçüncü pillədəki “Red Bull Racing Honda”nın 64 xalı var.

Builki Bakı yarışı Formula 1 idmanı tarixində sayca 1001-ci Qran-Pridir. Çində təşkil olunan Formula 1 üzrə 1000-ci Qran-Pridə qələbə qazanan Luis Hamilton iki yubiley Qran-Prisinin qalibi olan ilk pilot kimi tarixə düşüb. Belə ki, o, 2014-cü ildə Bəhreyndə təşkil olunan 900-cü Qran-Pridə də qələbə qazanıb.

Bakıda Formula 1 Azərbaycan Qran-Prisinə aprelin 26-da start verilib. Yarışın birinci günündə pilotlar Bakı trekində iki sərbəst yürüşdə güclərini sınayıblar. Ötən gün keçirilmiş sıralama yürüşündən sonra isə Qran-Pridə pilotların düzülüşü müəyyənləşib. Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakıda Formula 2 yarışları da keçirilib.

Xatırladaq ki, Formula 1 yarışı Azərbaycanda dördüncü ildir təşkil olunur. 2016-cı ildə keçirilən birinci yarışda – Formula 1 Avropa Qran-Prisində “Mercedes” komandasının almaniyalı pilotu Niko Rosberq qalib gəlib. 2017-ci ildə təşkil olunan Formula 1 Azərbaycan Qran-Prisi “Red Bull Racing Honda” komandasının avstraliyalı pilotu Daniel Rikkardonun qələbəsi ilə başa çatıb. Ötənilki Qran-Pridə isə “Mercedes” komandasının britaniyalı sürücüsü Luis Hamilton qələbə qazanıb.

# Prezident İlham Əliyev Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib

**Prezident İlham Əliyev dünyanı ayrı-seçkiliyə, qeyri-bərabərliyə və zorakı münaqişəyə qarşı birgə fəaliyyət göstərməyə çağırıb**



Mayın 2-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.

Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak edirlər.

2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Ötən müddət ərzində Forumun coğrafiyası çox genişlənib. Nəticədə tədbirə qoşulan qurumların sayı xeyli artıb. Budəfəki Foruma Latın

Amerikası ölkələrindən tutmuş Səudiyyə Ərəbistanı, Böyük Britaniya kimi dövlətlərin təmsilçiləri qatılıblar. Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu öyrənilir. Forum üç istiqamətdə davam edəcək.

Dövlətimizin başçısı V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söylədi.

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi




– Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Əvvəlcə Forumun bütün iştirakçılarını salamlayır, bu gün bizimlə birlikdə olduqlarına görə qonaqlarımıza təşəkkürümü bildirirəm. Burada 100-dən artıq ölkədən 500-dən çox qonağımız var. Bu, onu göstərir ki, bu Forum nisbətən qısa zaman ərzində cari gündəlikdə duran mövzulardan biri olan mədəniyyətlərarası dialoqun müzakirəsi baxımından qlobal platformaya çevrilib.

Xatirimdədir, 8 il əvvəl ilk forum təşkil ediləndə biz onun bu qədər geniş beynəlxalq dəstək qazanacağını təsəvvür edə bilməzdik. 2011-ci ildə bizim mədəniyyətlərarası dialoqa həsr edilmiş dünya forumunun təşkil edilməsi təşəbbüsümüz tariximiz, coğrafiyamız və düşüncəmizdən qaynaqlanırdı ki, dünyanı təhlükəsiz etmək üçün biz sivilizasiyalar, mədəniyyətlər və müxtəlif etnik qrup və dinlərin nümayəndələri arasında dialoqun təşviqi sahəsində çox fəal olmalıyıq.

Foruma göstərilən geniş beynəlxalq dəstək bizi ruhlandırır. Bu gün Forumun həmtəşkilatçıları arasında dünyanın aparıcı beynəlxalq təşkilatları var və bizim birgə səylərimiz mədəniyyətlərarası dialoqun təşviqi işinə töhfə verir.

Azərbaycan əsrlər boyu müxtəlif mədəniy-

yətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır. Əsrlər boyu Azərbaycan dini dözümlülük və müxtəlif millətlərin birgə yaşadığı torpaq olmuşdur.

Tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri qədim Şamaxı şəhərində yerləşir. Qafqazın ən qədim kilsələrindən biri olan Qafqaz Albaniyasına məxsus kilsə bizim qədim Şəki şəhərindədir.

Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir.

Multikulturalizm bizim üçün həyat tərzidir. Bu söz nisbətən yeni olsa da, biz həmin ab-havada əsrlər boyu yaşamışıq. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan olunması onu sübut edir ki, biz dünyanın diqqətini bu mühüm ideyaya cəlb etmək istəyirik. 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib. Bu da bizim tarixi irsimizi, kökümüzü və dünyaya açıq olduğumuzu nümayiş etdirən, rəmzi məna daşıyan addım idi. Hesab edirəm ki, bu meyillər dünyada üstünlük təşkil etsə, dünyada təhlükəsizlik, proqnozlaşdırıla bilmə və sülh bərqərar olar.

Bizim üçün multikulturalizm həm də siyasətimizin mühüm elementlərindəndir. Azərbaycanda multikulturalizm üzrə beynəlxalq mərkəz yaradılıb. Biz bu dəyərləri təşviq edir və multikulturalizmin böyük gələcəyinin olduğunu nümayiş etdiririk. Bilirik ki, bu mövzu ilə bağlı müxtəlif fikirlər var. Ancaq hesab edirəm ki, bizim forum və bu mövzuda Azərbaycanda və dünyanın digər yerlərində təşkil olunan çoxsaylı beynəlxalq tədbirlər multikulturalizm dəyərlərinin təşviqi ilə bağlı səylər göstərdiyimizi aydın nümayiş etdirir.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal miqyasda və əlbəttə, bizim ölkəmiz üçün mühüm beynəlxalq tədbirlərdən biridir. Son illər ərzində Azərbaycan çoxsaylı beynəlxalq təbirlərə ev sahibliyi edib. Dünya Dini Liderlərinin Forumunu, ənənəvi Bakı Humanitar Forumunu, yeddi dəfə Bakı Qlobal Forumunu təşkil etmişik. Nizami Gəncəvi Mərkəzi tərəfindən təşkil edilən həmin forum da siyasi inkişaf və mədəniyyət dialoqu mövzularının müzakirəsi üçün çox vacib platformadır. Digər tədbirlər də təşkil edilir və bununla da biz dünya ictimaiyyətinin diqqətini bu mühüm məsələlərə yönəltməyə çalışırıq.

Əminəm ki, bu gün və sabah Forum çərçivəsində aparılan müzakirələr problemləri aşkar edərək çıxışçılara fikirlərini bildirmək imkanı verməklə yanaşı, tərəfdaşlıq, həmrəylik və əməkdaşlığı gücləndirəcək, nəticədə mədəniyyətlər arasında körpü yaradacaq.

Ötən il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd etdik. Bu da bizim fəxr etdiyimiz bir təşəbbüsdür. Yadımdadır, 2008-ci ildə bu təşəbbüs irəli sürülən kimi, o, dərhal beynəlxalq diqqəti özünə cəlb etdi. İlk dəfə məhz Azərbaycan Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin mədəniyyət nazirlərini bir araya gətirdi. 100-dən artıq dövlətin nümayəndəsi Bakıda toplaşdı və əməkdaşlıq perspektivlərini müzakirə etdi. Biz eyni tərkibdə nazirlərin iştirakı ilə daha bir tədbiri 2009-cu ildə təşkil etdik. Bu təşəbbüs "Bakı Prosesi" adlandırıldı və bu gün həmin proses Avropa ilə müsəlman dünyası arasında dialoq üçün mühüm vasitədir.

Həm İslam Əməkdaşlıq Təşkilatı, həm də Avropa təsisatlarına eyni zamanda üzv olan nadir ölkələrdən biri olan Azərbaycan təmasların qurulması və dialoq üçün imkanların yaradılmasında özünün təbii və əminəm ki, müsbət rolunu oynayır. Bizim dialoqa ehtiyacımız var. Mədəniyyət və dinlərarası münasibətlər, siyasi gündəlik, iqtisadi əməkdaşlıq və təhlükəsizlik məsələlərində

dialoq zəruridir. Forumun adı belə dialoq adlanır. Yəni, biz məhz bunu dünyaya təqdim edirik və bu təşəbbüs geniş beynəlxalq dəstəyə malikdir.

Bu gün "Bakı Prosesi" BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. Əminəm ki, "Bakı Prosesi"nin böyük gələcəyi var.

Bu qəbildən olan forumlar mədəniyyətlərarası dialoq mövzusuna diqqəti cəlb edir, yeni ideyalar və yanaşmalar ortaya qoyulur. Müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda mühüm qərar qəbul edənlər üçün bu, düzgün qərarların verilməsi məqsədilə yaxşı və müsbət platformadır. Bu baxımdan Azərbaycan həm daxildə, həm də xaricdə qarşılıqlı anlaşma və əməkdaşlığa söykənən siyasət yürüdür. Biz körpülər qururuq. Biz Avropa ilə Asiya arasında yerləşirik. Əlbəttə, bizim coğrafiyamız tariximizə təsir edib və bugünkü inkişafımıza da təsir etməkdədir.

Bu gün nisbətən gənc müstəqil dövlət olan Azərbaycan Avropa ilə Asiya arasında körpülərin yaradılmasında mühüm rol oynayır. Siyasi, iqtisadi, mədəni körpülər, eyni zamanda, praktiki baxımdan da nəqliyyat bağlılığı yaradan körpülər.

Ötən il biz müstəqilliyimizin 27-ci ildönümünü qeyd etdik. Bu müddət ərzində Azərbaycan müasir infrastruktura və gələcəklə bağlı aydın baxışa malik, inkişaf edən ölkəyə çevrilib. Uzun illər üzləşdiyimiz əsas problemlərdən biri Ermənistanın ölkəmizin ərazisini işğal etməsidir. İyirmi beş ildən artıqdır ki, Ermənistan bizim tarixi torpağımız olan Dağlıq Qarabağı və Azərbaycanın digər 7 rayonunu işğal etməkdə davam edir. Bu, beynəlxalq hüququn kobud pozulmasıdır. Bizim xalqa qarşı etnik təmizlənmə aparılıb, Ermənistanın təcavüzü və işğalı nəticəsində bir milyondan artıq insan evlərindən didərgin salınıb. ATƏT işğal edilmiş ərazilərə 2 dəfə faktaraşdırıcı missiya göndərib və həmin hesabatlar tarixi irsimizin və dini abidələrimizin dağıdıldığını aydın şəkildə göstərir.

BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu qətnamələr kağız üzərində qalıb. Bu, onun göstəricisidir ki, bəzən BMT Təhlükəsizlik Şurasının qətnamələri uzun illər ərzində icra edilmir. Onların yerinə yetirilmə mexanizmi ya mövcud deyil, ya da tətbiq edilmir. Bunun nəticəsində isə Azərbaycanın torpaqları işğal altında qalmaqdadır.

İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamə və qərarlar qəbul ediblər. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və münaqişə beynəlxalq hüququn normaları, BMT Nizamnaməsi, Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktına əsasən həll edilməlidir.

Bu böyük problem və humanitar fəlakətə baxmayaraq, Azərbaycan müasir ölkəyə çevrilə bilib. Bizim fəal xarici siyasətimiz var. İqtisadi siyasətimiz ölkə əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına imkan yaradıb. Xarici siyasət sahəsində Azərbaycan etibarlı tərəfdaşdır. Biz İslam Əməkdaşlığı Təşkilatının fəal üzvüyük. Bizim Avropa İttifaqı ilə yaxın münasibətlərimiz var. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər qəbul edilib. Qeyd etdiyim kimi, "Bakı Prosesi" Avropa ilə müsəlman dünyası arasında körpülərin qurulması baxımından bizim töhfəmizdir.

Yəni, bizim xarici siyasət gündəliyimiz əməkdaşlığın, tərəfdaşlığın gücləndirilməsi və qarşılıqlı fayda üzərində qurulub. Bizim xarici siyasətimiz bizə əhəmiyyətli beynəlxalq nəqliyyat layihələrini reallaşdırmağa imkan yaradır. Müxtəlif ölkələrlə və tərəfdaşlarla yaxşı əməkdaşlıq olmadan bu layihələrin icrası mümkünsüz olardı. Son illər ərzində bizim iqtisadi inkişafımız enerji layihələrimizə söykənib. Qonşularımız və tərəfdaşlarımızla birlikdə biz şaxələndirilmiş neft-qaz kəmərləri vasitəsilə Xəzər dənizini Qara dənizlə və Xəzəri Aralıq dənizi ilə birləşdirə bildik. Bu isə bizim, qonşularımızın və dünyanın bir sıra ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi deməkdir. Bu gün biz Cənub Qaz Dəhlizinin həyata keçirilməsi üzərində fəal çalışırıq. Bu, artıq yeni miqyasda həyata keçirilən layihədir.

O, 7 ölkəni birləşdirir və həmin ölkələrə layihədən faydalanmağa imkan yaradır.

Son 15 ildə bizim iqtisadiyyatımız ən sürətlə inkişaf edən iqtisadiyyatlar sırasında olub. Biz mühüm islahatlar həyata keçirmişik ki, bu da bizə ölkədə biznes mühitinin yaxşılaşdırılması və sərmayə cəlb etmək imkanı yaradıb. Dünya Bankının sonuncu "Doing Business" hesabatına görə, Azərbaycan dünyada 25-ci yerdə qərarlaşıb. Ölkədə xarici sərmayələr üçün münbit biznes mühiti mövcuddur.

Biz xarici borcumuzun azaldılması strategiyası üzərində çalışırıq. O, onsuz da aşağı səviyyədədir – ümumi daxili məhsulumuzun 19 faizi səviyyəsində. Eyni zamanda, biz iqtisadiyyatımızın şaxələndirilməsi, yoxsulluq və işsizliyin tamamilə aradan qaldırılması üzərində çalışırıq. Bu, gündəliyimizdə duran başlıca məsələlərdəndir. Çünki bizim iqtisadi inkişafımız insanlarımızın yaşayış səviyyəsinin yaxşılaşdırılması ilə nəticələnir. On beş il öncə əhalinin 50 faizi yoxsulluq səviyyəsində yaşayırdı. Bu gün bu göstərici 5-6 faiz səviyyəsindədir.

Yoxsulluq, işsizlik, sosial bərabərsizlik və savadsızlıq radikalizmin və ekstremizmin mənbələrindəndir. Azərbaycan beynəlxalq terrorizm, radikalizm və ekstremizmlə mübarizədə çox fəal tərəfdaşdır. Bununla yanaşı, biz dünyada İslam sivilizasiyasının dəyərlərini təbliğ edirik. Biz dünyanın müxtəlif yerlərində öz mədəniyyətimizi və digər tərəfdaş müsəlman dövlətlərinin mədəniyyətini əks etdirən çoxsaylı sərgi və təqdimatlar keçiririk.

Bağlılıq haqqında danışarkən istərdim Azərbaycanın iştirak etdiyi nəqliyyat layihələrini xüsusi qeyd edim. Biz bu layihələrə yalnız nəqliyyat bağlılığı kimi baxmırıq. Əslində, bu layihələr regionda ab-havanı dəyişir. Onlar geniş beynəlxalq əməkdaşlıq formatını yaradır. Azərbaycan qədim İpək Yolu üzərində yerləşir. Son illər yaratdığımız müasir nəqliyyat infrastrukturu artıq Azərbaycanı vacib tranzit ölkəyə çevirib. Yaxın qonşularımız və digər tərəfdaşlarımızla sıx əməkdaşlıq olmasa idi, biz tranzit ölkəyə çevrilə bilməzdik. Bunun üçün qonşular və tərəfdaşlar tələb olunur.

Nəqliyyat sahəsinə qoyulan sərmayələr avtomatik olaraq regionda daha da proqnozlaşdırıla bilən vəziyyət yaradır ki, burada ölkələr birgə faydalanır. Bizim siyasətimiz əməkdaşlıq, qarşılıqlı anlaşma və qarşılıqlı fayda vasitəsilə məqsədlərimizə nail olmaq və ölkəni gücləndirməkdən ibarətdir.

Enerji təhlükəsizliyi ilə bağlı siyasətimizdə də biz hər zaman istehsalçı, tranzit dövlətlər və istehlakçılar arasında lazımi balansı tapmağa çalışırıq. Burada hər bir tərəf fayda görməsə, uğurdan söhbət gedə bilməz. Biz hər zaman tərəfdaşlarımızın ehtiyacı olduğu vaxt onlara dəstək verməyə hazır olmalıyıq. Eyni zamanda, lazım gəldikdə onlardan da eyni dəstəyi gözləyirik.

Azərbaycan, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. Xəritəyə baxsanız Şərqdən-Qərbə, Şimaldan-Cənuba gedən nəqliyyat marşrutlarının ölkəmizin ərazisindən keçdiyini görərsiniz. Buna nail olmaq üçün isə gərgin işləməli olduq. Burada coğrafiya kifayət deyil, bu, yalnız ilkin şərt, zəruri element sayıla bilər. Biz nəqliyyat infrastrukturuna – dəniz limanları, dəmir yolları, hava limanları və magistral yollara böyük sərmayə yatırdıq. Beləliklə, bu gün coğrafi və nəqliyyat mərkəzi olmaq baxımından Azərbaycan tərəfdaşlarına çoxlu imkanlar təklif edir.

Əziz dostlar, Azərbaycanda keçirilən bugünkü Forum əlamətdar hadisədir. Bir daha bu Forumda iştirak edən bütün tərəfdaşlar, tərəfdaş təşkilatlar, ziyalılar, alimlər, siyasətçilər, ictimai xadimlər, QHT və media nümayəndələrinə minnətdarlığımı bildirirəm. Əminəm ki, müzakirələr səmərəli olacaq və bunun nəticəsində müvafiq tövsiyələr veriləcək və ölkələrin gələcəyi və regional inkişafla bağlı qərar qəbul edən şəxslər bizim tövsiyələrimizi nəzərə alacaq, beləliklə, dünya daha sabit və təhlükəsiz olacaq.

Çox sağ olun.

***

Sonra qədim sivilizasiyalara və müasir Azərbaycandakı tolerantlıq mühitinə həsr edilmiş videoçarx nümayiş olundu.

***

Tədbirin moderatoru Forumun yüksək səviyyədə təşkilinə və dərin məzmunlu çıxışına görə Prezident



İlham Əliyevə minnətdarlığını bildirdi. Qeyd etdi ki, "Bakı Prosesi" sülhsevər qüvvələri gücləndirməklə münaqişələri aradan qaldırmağa kömək edən prosesdir.

***

BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos, UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin, Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni, ISESCO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri çıxış etdilər.

***

Sonra insanları sülhə, dialoqa, həmrəyliyə, firavan dünya qurmağa çağıran "Necə gözəl bir dünya" mahnısı ifa edildi.

***

Sonda xatirə şəkli çəkdirildi.

***

Forum çərçivəsində mədəniyyətlərarası dialoq və insan ləyaqətini təbliğ etməklə inklüziv və davamlı cəmiyyətlərin qurulmasında dövlət, özəl və üçüncü sektoru təmsil edən təşkilatlar üçün ümumi yol xəritəsini hazırlamaq məqsədilə digər maraqlı tərəflərlə yanaşı, həm də siyasi, iqtisadi, maliyyə, hərbi, humanitar və sosial təşkilatlar arasında tərəfdaşlığın formalaşdırılması üçün beynəlxalq təşkilatların və nazirlərin 2-ci yüksək səviyyəli görüşü nəzərdə tutulub. Eyni zamanda, iki gün ərzində "Akademik Forum: dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması", "Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq", "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması", "Sülh naminə çoxtərəflilik və diplomatiya", "Türkdilli ölkələr arasında dialoqun qurulmasında Böyük İpək Yolunun rolu" və digər mövzularda plenar və aralıq sessiyalar keçiriləcək. Həmçinin tədbir günlərində qonaqlar üçün sərgi də açılacaq, musiqili proqramlar təşkil ediləcək.

Beləliklə iki gün ərzində Bakıda müasir dünyanı narahat edən ən aktual məsələlər müzakirə mövzusu olacaq.

Dünyada sülh və bərabərliyin, qarşılıqlı etimadın və anlaşmanın əldə olunmasında bu Forum mühüm əhəmiyyət kəsb edir.

# Prezident İlham Əliyev 9 May – Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib

## Azərbaycan faşizm üzərində tarixi qələbəyə mühüm töhfələr verib



İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz




rol oynayıb. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçan 7 min hərbi təyyarənin yanacaq təchizatında mühüm rol oynayıb. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilib. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər edib.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz ulu öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda 9 may – Qələbə Günü qeyd olunur. Ümummilli Lider müharibə veteranlarını "Xalqımızın qızıl fondu" adlandırırdı. Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır.

Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. Azərbaycan Prezidentinin 2019-cu il 23 aprel tarixli Sərəncamı ilə İkinci Dünya müharibəsinin iştirakçılarına 1 000 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Respublikamızda müharibə veteranlarına dövlət qayğısının artırıl-



ması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 may tarixli Sərəncamına əsasən isə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə Təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Veteranlar Təşkilatına 300 min manat ayrılıb. Bütün bunlar bir daha təsdiqləyir ki, müharibə veteranlarına hərtərəfli qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.

İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 74 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İkinci Dünya müharibəsinin iştirakçısı, partizan, Hollandiya Müqavimət Hərəkatının görkəmli nümayəndələrindən biri, Niderlandın azərbaycanlı Milli Qəhrəmanı Məmməd Məmmədovun ailə üzvləri və Oistervijk şəhərinin meri Hans Janssen ilə görüşdülər.

Sonra dövlətimizin başçısı və xanımı iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə günü münasibətilə onları təbrik etdilər.

***

Mərasimdə Baş Nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyasında iştirak edib

**Prezident İlham Əliyev bu istiqamətdə ardıcıl tədbirlər görür**




Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Zığ dairəsi-Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun 28-ci kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında iştirak ediblər.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Keçmiş yod-brom zavodunun çirklənmiş ərazilərinin təmizlənməsi" və "Heydər Əliyev Beynəlxalq Aeroportunun yaxınlığındakı çirklənmiş ərazilərin təmizlənməsi" layihələri barədə Prezident İlham Əliyevə məlumat verdi.

Qeyd edək ki, dövlətimizin başçısının tapşırığına əsasən Suraxanı rayonunda keçmiş yod-brom zavodunun ərazisində lay suları, duz, yod və digər tullantılarla çirklənmiş 67 hektar sahənin təmizlənərək bərpa edilməsi, kollektor-drenaj sisteminin qurulması işləri uğurla icra olunub. Ümumilikdə, indiyədək bu ərazidə yerli iqlim şəraitinə uyğun 50 mindən çox müxtəlif növ ağac əkilərək böyük yaşıllıq zolağı salınıb.




Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 96–cı ildönümü münasibətilə keçirilən ağacəkmə aksiyasında 4 hektar ərazidə, ümumilikdə, 3250 ağac əkildi. Ağaclar əraziyə çəkilmiş müasir, avtomatlaşdırılmış damcılı suvarma sistemi vasitəsilə suvarılır. Suvarma üçün su isə Hövsan Aerasiya Stansiyasından götürülür və təmizləyici qurğularda təmizləndikdən sonra suvarmaya ötürülür. Damcılı suvarma sisteminin elektrik enerjisi ilə təchizatı Suraxanı Günəş Elektrik Stansiyası hesabına təmin ediləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aksiyada iştirak edən gənclərlə görüşdülər. Dövlətimizin başçısı gənclərə ekoloji durumun yaxşılaşdırılması ilə bağlı gördüyü işlərə görə təşəkkürünü bildirdi. Azərbaycan gənclərinin çox önəmli sosial-ekoloji layihələr icra etdiyini deyən dövlətimizin başçısı Bakının daha da gözəlləşdiyini, yaşıllaşdığını vurğuladı.

Azərbaycan dövləti ekologiyanın və ətraf mühitin mühafizəsi məsələsinə həmişə xüsusi diqqətlə yanaşır. Ölkəmizin zəngin flora və faunasının qorunması, ekoloji durumun daha da yaxşılaşdırılması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində ulu öndər Heydər Əliyev bütün dövrlərdə çox böyük işlər görüb. Ümummilli liderin əsasını qoyduğu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Təsadüfi deyil ki, Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsini, həmçinin insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Dövlətimizin başçısı tərəfindən 2010-cu ilin ölkədə “Ekologiya ili” elan edilməsi isə bunun bariz nümunəsi olmaqla yanaşı, bir daha sübut edir ki, Azərbaycanda ekoloji siyasətə xüsusi diqqət ayrılır.

Prezident İlham Əliyev neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşıb. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı ölkədə ciddi əməli işlər görülüb, milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb, yaşıllıqların miqyası isə ildən-ilə daha da artırılıb. Bütün bu məqsədyönlü layihələr ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir.

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.

Müxtəlif vaxtlarda icra olunan ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə etməklə, ümumilikdə ölkəmizin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına böyük töhfələr verir.

Bu gün Azərbaycanın hər yerində vətəndaşların iştirakı ilə ağacəkmə aksiyaları keçirilir. Bu işlərin görülməsində, yaşıllıqların salınmasında, şəhərlərimizdə və rayonlarımızda təmizlik işlərində hər bir sakin fəal iştirakı ilə seçilir. Təsadüfi deyil ki, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunədir.

# Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü**




Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü günüdür.

Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər



Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq da öyünür.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", – deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan", – deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.

Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.



Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi.

Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ümummilli liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, ulu öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət olunması mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak ediblər.

# Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib

**Heydər Əliyevin xalq, bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətləri heç vaxt unudulmayacaq. Ulu öndərin adını daşıyan fond dahi rəhbərin siyasi irsini təbliğ etmək üçün böyük işlər görür.**



Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi



– Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümüdür. Bu gün Azərbaycan xalqı bir daha ulu öndərin əziz xatirəsinə hörmət və ehtiramını bildirir.

Azərbaycan xalqı Heydər Əliyevi sevirdi, ona inanırdı, ona həmişə dəstək olurdu. O isə öz həyatını Azərbaycan xalqına həsr etmişdir. Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət etmişdir. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın inkişafı üçün çox böyük fədakarlıq göstərmişdir. Təkcə onu demək kifayətdir ki, sovet dövründə – 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikalardan birindən ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox möhkəm sənaye potensialı yaradılmışdır, infrastruktur layihələri icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Heydər Əliyevin yüksək şəxsi keyfiyyətlərini və Azərbaycanda əldə edilmiş nəticələri nəzərə alaraq, 1982-ci ildə o, Moskvaya dəvət olundu, yüksək vəzifəyə – Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə də uğurla çalışırdı, o cümlədən Azərbaycanın inkişafı ilə bağlı verdiyi tapşırıqlar, qəbul etdiyi qərarlar o vaxt da ölkəmizin inkişafına xidmət göstərirdi. Yəni, o, Azərbaycanla daim maraqlanırdı, Azərbaycanda gedən işlərə böyük maraq və dəstək göstərirdi. 1987-ci ildə vəzifədən gedəndən sonra xalqımız, respublikamız üçün problemlər başladı. İki həftə də keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana verilməsi haqqında iddia qaldırdılar. Güclü Heydər Əliyev amili imkan vermirdi ki, bu məsələ bundan əvvəlki dövrdə qaldırılsın. Halbuki, belə cəhdlər, belə meyillər var idi. Ancaq Heydər Əliyev amili buna imkan vermirdi.

Deyə bilərəm ki, əgər Heydər Əliyev o vaxt Azərbaycanın rəhbərliyində olsaydı, heç şübhəsiz ki, Dağlıq Qarabağ problemi heç vaxt yaranmazdı. O vaxtdan xalqımız üçün böyük problemlər başladı. Dağlıq Qarabağda xüsusi idarəetmə komitəsi yaradıldı və separatçı meyillər geniş vüsət aldı. Pensiyada olan Heydər Əliyev Moskvada yaşayırdı və hər zaman Azərbaycan haqqında düşünürdü. Görürdü ki, respublikada vəziyyət kifayət qədər mürəkkəbdir, xoşagəlməz hallar baş verir, respublika tənəzzülə uğrayır. Hadisələrin gələcək inkişafı göstərdi ki, onun təhlili demək olar tam dəqiq və düzgün idi.

Qanlı Yanvar faciəsindən dərhal sonra Heydər Əliyev öz səsini ucaltdı, öz xalqı ilə birlikdə olduğunu bildirdi və yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransında çıxış edərək sovet rəhbərliyinin bu qəddar aktını qətiyyətlə pislədi. Mən bunun əyani şahidiyəm. Yadımdadır ki, biz daimi nümayəndəliyə gələndə orada çox böyük kütlə var idi, insanlar toplaşmışdılar, çox həyəcanlı idilər. Heydər Əliyevi görəndə onlar canlı dəhliz yaratdılar, kənara çəkildilər və Heydər Əliyev binaya daxil oldu. O vaxt Heydər Əliyev pensiyaçı idi, ona qarşı müxtəlif dövrlərdə qarayaxma kampaniyaları aparılırdı. Ancaq xalqın qəlbində o, lider, görkəmli şəxsiyyət, Azərbaycan xalqının böyük oğlu kimi yaşayırdı. Həmin gün ona göstərilən hörmət əlbəttə ki, həmişə bizim yadımızda qalacaqdır.



O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il var idi. Bəlkə də heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağıla bilər. Ona görə məhz o anda, xalqımız üçün ən ağır anda Heydər Əliyevin bu addımı, bu bəyanatı əlbəttə ki, böyük cəsarət tələb edirdi, bir daha onu göstərirdi ki, o, hər zaman Azərbaycan xalqı ilə bir yerdədir. Ondan sonra bu qanlı cinayətə etiraz olaraq uzun illər ərzində üzvü olduğu kommunist partiyasının sıralarını tərk etdi. Bu da böyük cəsarət tələb edirdi. Təbii ki, ondan sonra ona və onun ailə üzvlərinə qarşı təzyiqlər, təqiblər başlamışdır. Bu təzyiqlərin müxtəlif formaları var idi. Bir sözlə, ona təzyiq etmək və cəzalandırmaq üçün praktiki addımlar atılırdı. Hətta bizdə məlumat var idi ki, onun həbsi ilə bağlı məsələ müzakirə edilirdi.

Bakıya gəldi, ovaxtkı rəhbərlik ona Bakıda yaşamağa imkan vermədi, doğulduğu Naxçıvan Muxtar Respublikasına üz tutdu. O da tarixin hökmü idi. Çünki o vaxt Naxçıvan çox ağır vəziyyətdə idi. Erməni separatçılarının və onların havadarlarının Azərbaycana qarşı məkrli planlarında Naxçıvanın işğalı da var idi. Məhz Heydər Əliyev amili, onun iradəsi, xalqın ona olan inamı Naxçıvanı bu böyük bəladan qurtara bildi. O vaxt onun rəhbərliyi ilə Naxçıvanda səfərbərlik işləri aparılmışdır. Sərhəddə şiddətli döyüşlər gedirdi və Naxçıvan öz torpağını qoruya bildi.

Naxçıvanda digər yaddaqalan hadisə Azərbaycanın tarixində qızıl hərflərlə yazılıb. Məhz Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Məclisinin – ovaxtkı Ali Sovetin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar qərar ölkə miqyasında qəbul edilsin. Yəni, bu, tarixdir. Bu tarix bir daha göstərir ki, Heydər Əliyev hər zaman Azərbaycan xalqının yanında idi. Xalq ona böyük dəstək verirdi, o da gücü xalqın inamından, məhəbbətindən alırdı.

Azərbaycanda ovaxtkı vəziyyət bizim yadımızdadır. O vaxt – 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş AXC-Müsavat cütlüyü ölkəmizi, gənc, müstəqil dövləti uçuruma aparırdı. Xaos, anarxiya, özbaşınalıq, total böhran hökm sürürdü, talançılıq, rüşvətxorluq baş alıb gedirdi, ölkə idarəolunmaz

vəziyyətə düşmüşdü. Siyasi, iqtisadi, hərbi böhran gənc dövlətin dayaqlarını sarsıdırdı. Azərbaycan xalqı bu xəyanətkar hakimiyyətə bir il dözə bildi. Bir ildən sonra onlar tarixin arxivinə göndərildi. O vaxt torpaqlarımız işğal altına düşdü. Şuşa, Laçın, Kəlbəcər rayonlarının işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı.

Azərbaycan öz inkişaf yolunu Heydər Əliyevin simasında görürdü və müraciət edərək onu dəvət etdi. Heydər Əliyevin o vaxt 70 yaşı var idi, ömrünün böyük hissəsi geridə qalmışdı. Ancaq xalq sevgisi, xalqa olan məhəbbət və böyük məsuliyyət hissi onu bu dəvəti qəbul etməyə sövq etdi. Beləliklə, müstəqil Azərbaycanın müstəqil həyatı başladı. Çünki tam qətiyyətlə deyə bilərəm ki, 1993-cü ilə qədər bizim dövlət müstəqilliyimiz şərti xarakter daşıyırdı. Atributlar var idi, ancaq ölkə müstəqil siyasət apara bilmirdi. 1993-cü il dönüş nöqtəsi oldu. Məhz Heydər Əliyevə xalq tərəfindən göstərilən inam, etimad imkan verdi ki, ölkə bu ağır vəziyyətdə, vətəndaş müharibəsinin fəsadlarından ləyaqətlə çıxa bilsin və belə də oldu. Sabitlik yaradıldı, inkişafa yol açıldı, bütün sahələrdə, ilk növbədə, siyasi sahədə islahatlar icra edilməyə başlandı. Çünki o vaxt Azərbaycanda siyasi sistem hələ formalaşmamışdı. Siyasi sistemin formalaşmasında 1992-ci ildə Naxçıvanda yaradılmış Yeni Azərbaycan Partiyasının rolunu qeyd etməliyəm. Onu da bildirməliyəm ki, özlərini demokrat adlandıran şəxslər o vaxt imkan vermədilər ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Bir qrup vətənpərvər ziyalı Naxçıvana gedərək Heydər Əliyevin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayını keçirdilər.

Heydər Əliyevin təşəbbüsü ilə senzura ləğv edildi. O vaxt Azərbaycanda mətbuat azadlığı yox idi. Senzuranın ləğvi də ulu öndərin gələcəyə yönəlmiş baxışlarını tam əks etdirirdi.

Ordu quruculuğu prosesi başlamışdır. Çünki o vaxta qədər nizami ordu yox idi. İqtisadi sahədə çox ciddi islahatlar aparılmışdır, o cümlədən kənd təsərrüfatı sahəsində. O islahatlar ki, bu gün bizim apardığımız islahatlar üçün gözəl zəmin yaradır. Sənaye potensialının inkişafı ilə bağlı önəmli addımlar atılmışdır. Sərmayə qoyuluşu Azərbaycanda artıq bir amil kimi mövcud oldu. “Əsrin kontraktı”nın imzalanması əlbəttə ki, tarixi hadisədir. 1994-cü ilin sentyabrında bu kontraktın imzalanması bu gün müstəqil Azərbaycanın inkişafını böyük dərəcədə təmin etmişdir. Bu kontraktdan əldə edilən gəlirlər ölkəmizin bütün sahələrində özünü büruzə verir – insanların rifah halının yaxşılaşması, ordu potensialının gücləndirilməsi, məcburi köçkünlərin problemlərinin həlli, infrastruktur layihələrinin icrası. Əgər bizim maliyyə imkanlarımız olmasaydı, bu işləri nəyin hesabına görə bilərdik? Bu maliyyə imkanlarını bizə “Əsrin kontraktı” yaratdı. Mən o dövrü yaxşı xatırlayıram. O vaxt Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi digər yoldaşlarla bu məsələ ilə ciddi məşğul idim. Bu kontrakt Azərbaycan üçün ən məqbul şərtlərlə imzalanmışdır və bu, bugünkü reallıqda özünü göstərir. Bu yaxınlarda kontraktın müddəti 2050-ci ilə qədər uzadıldı. Azərbaycan bu kontraktın faydasını görəcəkdir.

Yəni, bu, tarixi hadisə idi, Heydər Əliyevin xalq, bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətlərindən biridir. Bu, böyük cəsarət tələb edirdi. Çünki o vaxt bölgədə geosiyasi vəziyyət çox mürəkkəb idi və bu kontraktın imzalanması o qədər də asan məsələ deyildi. Kontraktın imzalanmasından sonra baş vermiş hadisələr onu göstərdi. Ancaq Heydər Əliyevin dəmir iradəsi, qətiyyəti və gələcəyə yönəlmiş addımları bugünkü Azərbaycanın reallıqlarını böyük dərəcədə müəyyən edir.

2003-cü ildə prezident seçkiləri ərəfəsində mən bəyan etmişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasətini davam etdirəcəyəm və xalq Heydər Əliyev siyasətinə səs verdi. O vaxtdan bu günə qədər Azərbaycan böyük və uğurlu yol keçdi, müstəqillik daha da möhkəmləndi. Azərbaycanda sabitlik təmin olunub, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmləndi. Bu gün Azərbaycan dünya miqyasında çox müsbət nüfuza malik olan bir ölkədir. Dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir və bu dəstək BMT Təhlükəsizlik Şurasında keçirilmiş səsvermədə özünü büruzə verdi, 155 ölkə bizi dəstəklədi. Yəni, bu da tarixi nailiyyətimizdir. Bir çox beynəlxalq təşkilatlar bu dövrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətə əsaslanan, bizim mövqeyimizi müdafiə edən qərar və qətnamələr qəbul etmişdir, o cümlədən BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təşkilatlar. Bu, bizim böyük diplomatik və siyasi uğurumuzdur.

Münaqişə ilə bağlı bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız bu tor-

paqda yaşamış və yaratmışdır. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq. Bizim mövqeyimiz ondan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri, Helsinki Yekun Aktı əsasında öz həllini tapmalıdır. Bu, yeganə yoldur və biz bu yolla gedirik və gedəcəyik.

Eyni zamanda, ordunun gücünü artırırıq. Bu gün Azərbaycan beynəlxalq reytinqlərə əsasən dünya miqyasında ordu potensialına görə 50 ölkə arasındadır. Bundan sonra da ordumuzun inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir texnika ilə təchizatı üçün lazımi addımlar atılacaqdır.

Heydər Əliyev hər zaman məcburi köçkünlərin problemləri ilə maraqlanırdı, onlara böyük qayğı, diqqət göstərirdi. O vaxt biz donor təşkilatlardan böyük dərəcədə asılı idik, çünki bizim maliyyə imkanlarımız yox idi. O vaxt böyük işlər görüldü ki, beynəlxalq təşkilatlar Azərbaycana yardım göstərsinlər və bu yardım hesabına müəyyən mənada köçkünlərə şərait yaradıldı. Heydər Əliyev göstəriş verdi ki, ilk neftdən Azərbaycan Dövlət Neft Fonduna daxil olan gəliri məcburi köçkünlərin problemlərinin həllinə istifadə edək. Belə də oldu. Yadımdadır, yağışlı hava idi, gözəl mənzərəli yer idi, Heydər Əliyev özü şəxsən o köçkün qəsəbəsinin açılışını qeyd etdi. Bu gün bu siyasət davam etdirilir. Bu günə qədər yüzdən çox şəhərcik salınıb, 100 minlərlə köçkün yeni evlərlə, mənzillərlə təmin edilib.

Biz bu illərdə digər sosial layihələri uğurla icra etmişik. Son 15 il ərzində əməkhaqqının, pensiyanın 10 dəfəyə yaxın artırılması bizim sosial siyasətimizi göstərir. Biz iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük işlər görmüşük. Bu gün bu istiqamətdə işlər davam etdirilir. İqtisadiyyatın neft-qaz amilindən asılılığını azaltmaq üçün praktiki addımlar atılır. Son 15 il ərzində iqtisadiyyat 3 dəfə artıb, çox gözəl biznes mühiti yaradılıb. Dünya Bankının hesablamalarına görə, biz bu göstərici üzrə dünya miqyasında 25-ci yerdəyik. Yəni, islahatlar aparıldı və ölkə qarşısında duran problemlər həll olunmağa başlandı. Əgər biz buraya texnoloji inkişafı əlavə etsək, deyə bilərik ki, bu gün Azərbaycanın 3 peyki var, Azərbaycan kosmik klubun üzvüdür. Bu da böyük nailiyyətdir, tarixi nailiyyətdir. Enerji təhlükəsizliyi sahəsində görün nə qədər böyük işlər görüldü. Heydər Əliyevin öz əlləri ilə təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan artıq 13 ildir ki, fəaliyyət göstərir və ölkəmizə gəlir gətirir. Bu gəlir xalqın rifah halının yaxşılaşmasına, infrastruktur layihələrinin icrasına yönəldilir. Bu gün biz daha böyük enerji layihəsini icra edirik və əminəm ki, uğurla başa vuracağıq. Baxmayaraq ki, açıq dənizə çıxışımız yoxdur, biz Azərbaycanı nəqliyyat mərkəzinə çevirmişik. Bu sahəyə qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir. Çünki bundan sonra Azərbaycan onilliklər, yüzilliklər ərzində tranzit imkanlarından istifadə edərək öz büdcəsini artıracaqdır. Azərbaycana daxil olacaq vəsait, sadəcə, coğrafi vəziyyətdən və tranzit imkanlardan asılı olacaqdır.

Əlbəttə ki, əldə edilmiş nəticələr haqqında çox danışmaq olar. Amma bizim əsas vəzifəmiz gələcəyə baxışımızdır. Biz necə inkişaf etməliyik, hansı yollarla inkişaf etməliyik? Bir şeyi qətiyyətlə deyə bilərəm ki, biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Biz daim irəliyə baxmalıyıq. Dünya dəyişir, bölgə dəyişir, bölgədə yeni çağırışlar meydana çıxır, 15-20 il bundan əvvəl olan vəziyyət bu gün tamamilə fərqlidir. Bölgənin, dünyanın geosiyasi mənzərəsi tam fərqlidir və biz buna hazır olmalıyıq. Ona görə hər bir məsələ ilə bağlı biz çox operativ və çevik fəaliyyət göstərməliyik və göstəririk. Ölkəmizin maraqlarını müdafiə etməliyik. Biz bundan sonra da çalışmalıyıq ki, Azərbaycanı mümkün olan risklərdən qoruyaq, necə ki, bu günə qədər qorumuşuq. Bu, asan məsələ deyil. Çünki hər birimiz yaxşı bilirik ki, dünyada gərginlik çoxalır, beynəlxalq hüququn normaları pozulur, bu normalara məhəl qoyulmur və ölkələr arasında gərginlik artmaqdadır. Ona görə bizim əsas məqsədimiz uğurlu xarici siyasətdən istifadə edərək ölkəmiz üçün mövcud olan və gələcək mümkün riskləri azaltmaqdır. Biz bu istiqamətdə fəal işləyirik. Ancaq deyə bilərəm ki, bu, asan məsələ deyil.

Uzun illərdir ki, Azərbaycanda sabitlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalqın bizim siyasətə göstərdiyi dəstək bizə güc verir və eyni zamanda, imkan verir ki, islahatları dərinləşdirək və Azərbaycanın uğurlu dayanıqlı inkişafını təmin edək.

Sabitlik hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır. Dünyaya, beynəlxalq mənzərəyə baxın. Harada ki, sabitlik pozulur, ölkələr geriyə gedir, idarəolunmaz vəziyyətə düşür, ölkələrdə xoşagəlməz proseslər başlayır, xarici təsir artır, daxili çəkişmələr baş verir və ölkələr öz gələcəyini itirir. Son illər ərzində sabitliyi pozulan ölkələrin bugünkü

mənzərəsinə nəzər salın. Nə görəcəyik? Müharibə, qardaş qanının tökülməsi, dağılmış şəhərlər, sıradan çıxmış infrastruktur, iflic vəziyyətə düşmüş sənaye, milyonlarla qaçqın-köçkün, çadır şəhərcikləri, o şəhərciklər ki, biz onlardan 2007-ci ildə xilas olmuşuq. Mən o vaxt seçkiqabağı söz vermişdim ki, 5 il ərzində bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Bunu biz 4 ilə etdik. Yəni, sabitliyin pozulması buna gətirib çıxarır. Hər bir insan bilməlidir ki, sabitlik böyük sərvətdir. Biz bunu çox böyük fədakarlıq göstərərək əldə etmişik.

Yadımıza 1990-cı illərin əvvəllərini salaq. Nələr baş verirdi? Azərbaycan idarəolunmaz vəziyyətdə idi, Azərbaycan müstəqil siyasət apara bilmirdi. Müxtəlif çaxnaşmalar, toqquşmalar ölkəmizi tamamilə iflic vəziyyətə salmışdı. Bundan istifadə edən Ermənistan torpaqlarımızı zəbt etdi. Əgər o vaxt Azərbaycanda sabitlik olsaydı və əgər o vaxt Heydər Əliyev kimi şəxsiyyət Azərbaycanın rəhbəri olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşə bilməzdi. Ona görə biz bilməliyik ki, sabitliyin mövcudluğu Azərbaycanın, gənc nəslin xoşbəxt gələcəyidir. Bir daha demək istəyirəm ki, Azərbaycanda sabitlik möhkəm qorunur. Düzdür, bəzi cəhdlər göstərilir, tam iflasa düçar olmuş bəzi qruplaşmalar, hansılar ki, Azərbaycanı 1990-cı illərdə bərbad vəziyyətə qoydular, həmin dəstələr yenə də nə isə əldə etməyə çalışırlar. İndi onların mübarizə üsulu yalan, şər, böhtan, uydurma, iftiradır. Onların bundan başqa mübarizə üsulu yoxdur və müxtəlif media vasitələrindən istifadə edərək ölkəmizə qara yaxırlar. Həm ölkə daxilində, həm də xaricdə çox eybəcər bir mənzərə yaratmağa çalışırlar. Azərbaycan xalqı onları yaxşı tanıyır. Məhz onlar Azərbaycanı bərbad vəziyyətə qoydular, onlar ölkəmizi dağıtdılar, onlar vətəndaş müharibəsinə start verdilər, qardaş qanı tökdülər. Azərbaycan xalqı heç vaxt imkan verməz ki, antimilli, xəyanətkar ünsürlər Azərbaycanda nə isə əldə etsinlər. Azərbaycan xalqı müdrik xalqdır və hər şeyi yaxşı bilir.

Biz bundan sonra da islahatlar yolu ilə gedəcəyik. Çünki bir daha demək istəyirəm, əldə edilmiş nəticələr, hesab edirəm ki, tarixdə qalmalıdır. Biz bunu bilməliyik ki, haradan gəlmişik, hara çatmışıq. Ancaq bu, tarixdir, biz gələcəyə baxmalıyıq. Bu gün iqtisadi sahədə aparılan islahatlar bütün mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, bizim tərəfdaşlarımız Azərbaycana böyük kreditlər verirlər. Nəyə görə? Ona görə ki, bizə inanırlar. Birinci növbədə görürlər ki, islahatlar səmərə verir, digər tərəfdən Azərbaycanın uğurlu gələcəyinə inanırlar. Əgər belə olmasaydı, milyardlarla dolları Azərbaycana kredit şəklində verərdilərmi? Əlbəttə ki, yox.

İqtisadi sahədə aparılan islahatlar hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır və tapır. Biz əməkhaqlarını, pensiyaları, müavinətləri nəyin hesabına artırırıq? Ona görə ki, daha da səmərəli işləyirik, ona görə ki, büdcə daxilolmaları artır və artacaq. Biz hələ islahatların növbəti mərhələsinin başlanğıcındayıq və bu ilin dörd ayının yekunları deməyə əsas verir ki, çox böyük nəticələr əldə edilir. Bu, bizə imkan verir ki, sosial sahəyə həm maddi təminat, həm də islahatlar baxımından daha böyük diqqət göstərilsin. Dünən, ulu öndərin doğum günü ərəfəsində ilk DOST Mərkəzi yaradıldı. Bu da sosial təminat sahəsində bir inqilabdır. Necə ki, vaxtilə "ASAN xidmət" mərkəzi ictimai xidmətlər sahəsində bir inqilab oldu. Artıq 6 milyondan çox insan "ASAN xidmət"dən istifadə edib. Bu, Azərbaycan brendidir, biz indi bu brendi intellektual məhsul kimi başqa ölkələrə ixrac edirik. Ona görə islahatların davam etdirilməsi zəruridir və bunun başqa yolu yoxdur.

Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi ilə bağlı bu yaxınlarda Fərman imzalanıb. İndi əməli işlər aparılır ki, Fərmanın icra edilməsinə başlansın. Bu da bir ciddi islahat olacaq. İcbari-tibbi sığorta Azərbaycanda pilot layihə kimi icra edilibdir və nəticələr həddindən artıq müsbətdir. Biz bəlkə də heç gözləmirdik ki, bu qədər müsbət nəticələr olacaq. Bu, həm əhali, həm həkimlər tərəfindən, həm də bütün digər sahələrdə yüksək qiymətləndirilir. Biz qabağa baxmalıyıq. Dünya dəyişir, bir daha demək istəyirəm, biz ön sıralarda olmalıyıq və olacağıq da. Çünki üfüqlər açıqdır, siyasətimiz tam aydındır və gələcəyə nikbinliklə baxmaq üçün bütün əsaslar var.

Biz bu gün, eyni zamanda, Heydər Əliyev Fondunun 15 illiyini qeyd edirik. On beş il bundan əvvəl Fond yaradıldı və bu illər ərzində bir çox sahələrdə – mədəniyyət, incəsənət, təhsil və digər sahələrdə çox böyük işlər gördü. Təhsil sahəsində deyə bilərəm ki, Fondun təşəbbüsü ilə başlanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı ölkə miqyasında geniş vüsət aldı və ondan sonra dövlət xətti ilə 3 min 200-dən çox məktəb tikildi,




təmir edildi. Fond səhiyyə sahəsində çox böyük işlər görür və bir çox hallarda bu işlər haqqında heç məlumat da verilmir. Yəni, ictimaiyyət bəlkə də məlumatlı deyil ki, nə qədər böyük işlər görülür, nə qədər insana kömək göstərilir, nə qədər insanı – uşağı, xəstəni Fondun xətti ilə aparılan müalicə normal həyata qaytarıb. Fondun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır. Fondun dünya miqyasında çox böyük hörməti var. Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində – bizim musiqimizi, xalçaçılıq sənətini, muğam sənətini, digər mədəniyyət incilərimizi dünyaya çatdırmaq, təqdim etmək üçün Fond çox böyük işlər görür. Kitablar çap olunur, disklər hazırlanır, sərgilər, elmi-praktik konfranslar, simpoziumlar keçirilir. Mən Fondun əməkdaşlarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm və eyni zamanda, bildirmək istəyirəm ki, Fond ulu öndərin siyasi irsini təbliğ etmək üçün də böyük işlər görür.

Biz ulu öndərin doğum gününü yaxşı nəticələrlə, böyük planlarla qarşılayırıq. Əminəm ki, bütün planlar reallaşacaq. Necə ki, bu günə qədər reallaşıb, bundan sonra da reallaşacaq. Çünki buna bizim iradəmiz də çatır, gücümüz də var, xalq da bizim siyasətimizi dəstəkləyir. Biz bundan sonra yalnız və yalnız uğurlar və qələbələr yolu ilə gedəcəyik. Sağ olun!

***

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə Heydər Əliyev Mükafatının verilməsi ilə bağlı Sərəncamı oxundu.

Prezident İlham Əliyev Heydər Əliyev Mükafatını akademik Xoşbəxt Yusifzadəyə təqdim etdi.

***

Daha sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş “Qızıl çinar” beynəlxalq mükafatının 2019-cu il üzrə qalibləri elan olundu.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Almaniya Münxen Yeni Filarmoniyasının Simfonik Orkestrinin baş dirijoru, Əməkdar artist Fuad İbrahimova və Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin direktor müavini Zərifə Məmmədovaya “Qızıl çinar” beynəlxalq mükafatlarını təqdim etdi.

Mərasim bədii hissə ilə davam etdi.

# Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib

**Azərbaycan dünyada öz milli-mənəvi dəyərlərinə sadiq qalan tolerant ölkə kimi tanınır**




Mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə mərasim iştirakçılarını salamlayaraq çıxış etdi. Allahdan hər kəsə xeyir-dualar dilədi.

***

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayev, Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete çıxış etdilər.

***

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi



– Hörmətli Şeyx həzrətləri.

Hörmətli din xadimləri.

Xanımlar və cənablar.

Hər il olduğu kimi, mübarək Ramazan ayında Şeyx həzrətlərinin iftar süfrəsində görüşürük. Bu, gözəl ənənədir. Bu ənənə yaşayır və yaşayacaq. Bu, dövlət-din münasibətlərinin bariz nümunəsidir. Dövlət-din münasibətləri hər bir ölkə üçün xüsusi əhəmiyyətə malikdir və Azərbaycanda bu münasibətlər nümunəvi xarakter daşıyır.

Bu münasibətlərin təməlində ulu öndər Heydər Əliyev və Şeyx həzrətləri dayanırlar. Onların şəxsi dostluğu, bir-birilərinə olan hörməti dövlət-din münasibətlərinin inkişafına çox böyük təsir göstərmişdir. Mən onun şahidiyəm ki, Şeyx həzrətləri və ulu öndər Heydər Əliyev bir-birinə çox yaxın insanlar olmuşlar və onların xalq, Vətən qarşısında gördükləri işlər bugünkü Azərbaycanın uğurlu inkişafına şərait yaratmışdır.

1993-cü ilə qədər dövlət-din münasibətlərində müəyyən boşluqlar var idi. 1993-cü ildən sonra bu sahədə də bütün istiqamətlər üzrə işlər ən yüksək səviyyədə tənzimlənir. Mayın 10-da, ulu öndərin anadan olmasının 96-cı ildönümü günündə onun xalq, dövlət qarşısında gördüyü işlər haqqında danışdıq. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri var. Bugünkü müstəqil Azərbaycan onun əsəridir. Dövlətçiliyin əsaslarının qurulması, Azərbaycanın strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi məhz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində mümkün olmuşdur.

Hörmətli Şeyx həzrətləri xalq və dövlət qarşısında böyük xidmətlər göstərir. Şeyx həzrətləri həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuza malik görkəmli din xadimidir və Azərbaycanı dünyada öz dəyərlərinə sadiq, eyni zamanda, müasir, tolerant ölkə kimi təqdim edir.

Onun çoxşaxəli beynəlxalq fəaliyyəti Azərbaycanı dünyaya tanıtdırır, Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə təqdim edir və Şeyx həzrətlərinin uğurlu fəaliyyəti ölkəmizi gücləndirir.

Ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi var. Konstitusiyaya görə din dövlətdən ayrı olsa da, əslində din və dövlət bir-birinin yanındadır. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanın uğurlu inkişafı dövlət-din münasibətlərinin uğurlu inkişafından böyük dərəcədə asılıdır.

Dünyada vəziyyət gərginləşir. Həm bölgəmizdə, həm dünyada yeni toqquşmalar, yeni münaqişə ocaqları yaranır, yeni risklər, təhdidlər meydana çıxır. Dünyanın gələcəyi ilə bağlı, sabitliyin gələcəyi ilə bağlı müxtəlif fikirlər, fərziyyələr irəli sürülür. Bizim əsas vəzifəmiz Azərbaycanda sabitliyi qorumaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və ölkəmizi mümkün olan risklərdən qorumaqdan ibarətdir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb. Azərbaycan inkişaf yolu ilə gedir. İnkişaf dinamikamız çox müsbətdir. Əminəm ki, gələcək illərdə aparılan dərin islahatlar sayəsində ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir.

Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq. İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Biz öz dinimizə bağlıyıq. Biz dünyada İslam mədəniyyətini təbliğ edirik. Dünyada çoxsaylı konfranslar, sərgilər, təqdimatlar keçirilir, Azərbaycan həqiqətləri, İslam mədəniyyətinin həqiqətləri dünya ictimaiyyətinə təqdim edilir. Biz İslamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya təqdim edirik və bu fəaliyyəti bundan sonra da davam etdirəcəyik.

Müsəlman ölkələri ilə bizim ənənəvi dostluq-qardaşlıq əlaqələrimiz vardır. Bu, xarici siyasətimizdə prioritet istiqamətlərdən biridir. Azərbaycan bütün müsəlman ölkələri ilə sıx əlaqələr qura bilmişdir və beynəlxalq müstəvidə biz daim bir-birimizi dəstəkləyirik. Eyni zamanda, ikitərəfli formatda çox fəal əməkdaşlıq edirik. Bir neçə gün bundan əvvəl müsəlman ölkələrinin səfirləri ilə görüş əsnasında bu məsələlərlə bağlı fikir mübadiləsi apardıq.

Azərbaycan, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür və bu təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verir. Ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatının xətti ilə bir çox tədbirlər keçirilir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dəyərlərinin qorunması işində apardığımız siyasətə çox yüksək qiymət verir. Biz bundan sonra da təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsi işində öz səylərimizi davam etdirəcəyik. Onu da bildirməliyəm ki, 2016-cı ildə İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə kontakt qrupu yaratmışdır və təşkilat bu münaqişə ilə bağlı bizim haqq işimizi daim dəstəkləyir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var – Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır. Biz bu həqiqətləri dünyaya çatdırırıq. Əfsuslar olsun ki, münaqişə başlanan zaman münaqişə ilə bağlı dünyada kifayət qədər məlumat yox idi. 1990-cı illərin əvvəllərində torpaqlarımız işğal altına düşmüşdür. Ölkəmizdə o vaxt yaşanan böhran, hərc-mərclik, xaos Ermənistana imkan verdi ki, bizim tarixi torpaqlarımızı zəbt etsin. O vaxt biz beynəlxalq təcriddə idik, öz səsimizi dünya ictimaiyyətinə çatdıra bilmirdik. Beləliklə, dünyada münaqişə ilə bağlı böyük dərəcədə təhrif edilmiş rəy formalaşdırılmışdı. Bizim müntəzəm səylərimiz nəticəsində artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarixi torpağımızdır. Münaqişəyə dair çoxsaylı kitabların çap edilməsi, təqdimatların, konfransların keçirilməsi dünya ictimaiyyətinə münaqişə ilə bağlı həqiqətləri çatdırır.

Hər kəs görür ki, münaqişə ilə bağlı ikili standartlar mövcuddur. Necə ola bilər, dünyanın ali orqanı olan BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edir, bu qətnamələrdə açıq-aydın deyilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır və bu qətnamələr icra olunmur. Ona görə hesab edirəm ki, dünyada mövcud olan ikili standartlar ən böyük problemlərdən biridir. Münaqişənin həlli üçün biz səylərimizi davam etdirəcəyik. Biz iqtisadi gücümüzü artırırıq, siyasi çəkimiz artır, hərbi baxımdan Azərbaycan bu gün güclü ölkələr sırasındadır. Döyüş meydanında üstünlüyümüzü təmin etmişik. Vaxtilə işğal altına düşmüş torpaqların bir hissəsini azad etmişik. O torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlarda Şuşa məscidinin bənzəri olan məscid tikilmişdir, qəsəbə salınmışdır, oraya həyat qayıtmışdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan

xalqı bu işğalla heç vaxt barışmayacaq. Bu gün dirçələn və inkişaf edən Cocuq Mərcanlı kəndi Azərbaycan xalqının əyilməz ruhunu təcəssüm etdirir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Bir daha demək istəyirəm ki, bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Biz tarixi, dini abidələrimizi qoruyuruq və burada da dövlət və din bir yerdədir. Son illərdə yüzlərlə məscid tikilmiş və ya təmir edilmişdir. Onların arasında tarixi məscidlərimiz xüsusi yer tutur. Şeyx həzrətləri qeyd etdi, Təzəpir məscidinin ətrafında salınan möhtəşəm park həm şəhərə yeni nəfəs verəcək, yəni, 20 hektar ərazidə salınan yaşıllıqlar bu zonada iqlimin yaxşılaşmasına xidmət göstərəcək, insanların rahatlığı üçün imkanlar yaradacaq, eyni zamanda, Təzəpir məscidinin əzəmətli görkəmi artıq bütün vətəndaşlara açıq olacaq. Çünki vaxtilə Təzəpir məscidinin ətrafında tikilmiş binalar imkan vermirdi ki, biz onu uzaq məsafədən seyr edək. Digər məscidlərimizin əsaslı şəkildə bərpası bizim niyyətimizi, siyasətimizi göstərir. Bibiheybət, Əjdərbəy, Şamaxı Cümə məscidlərinin, "İmamzadə" tarixi-dini kompleksinin əsaslı şəkildə təmir edilməsi dövlət-din münasibətlərinin təzahürüdür. Heydər məscidinin tikintisi tarixi hadisədir.

Bildiyiniz kimi, keçən il prezident seçkilərindən sonra iştirak etdiyim birinci tədbir Hacı Cavad məscidinin yeni binasının açılışı olmuşdur. Bu da təsadüfi deyil. Mən seçkilərdən sonra istənilən yerə gedə bilərdim. Məhz Hacı Cavad məscidinin yeni binasının açılışını birinci növbədə qeyd etməyimiz dövlət-din münasibətlərimizə, İslam dininə göstərdiyimiz hörmətdir.

Ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədə tənzimlənir. Bu, artıq reallıqdır. Bütün dünya bu reallıqları bilir və qəbul edir. Bu gün Azərbaycan dünya miqyasında dinlərarası dialoqun aparılması üçün bir mərkəzə çevrilib. Təsadüfi deyil ki, çoxsaylı beynəlxalq tədbirlər məhz bizim təşəbbüsümüzlə ölkəmizdə keçirilir. Əgər biz bu təşəbbüsü göstərməsəydik, bu tədbirlər də keçirilməzdi.

Hörmətli Şeyx həzrətlərinin dediyi kimi, bu il Dünya Dini Liderlərinin II Zirvə Görüşü keçiriləcəkdir. Bu məsələ ilə bağlı qərar qəbul edildi. Şeyx həzrətlərinin yubileyi və fəaliyyətinin 40 illiyi dövlət səviyyəsində təntənəli şəkildə qeyd ediləcəkdir. Əminəm ki, Azərbaycan müasir, öz dini, milli köklərinə bağlı olan ölkə, eyni zamanda, tolerant və multikultural dəyərləri təbliğ edən dövlət kimi öz reallıqlarını dünyaya bir daha təqdim edəcək.

Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlər həm ölkəmiz, həm daxildə gedən proseslər, həm də dünya üçün böyük məna daşıyır. Çünki Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri mehribanlıq, əmin-amanlıq şəraitində yaşayır. Biz bir ailə kimi yaşayırıq və bizim gücümüz birliyimizdədir. Bu tədbirlərin dünya üçün də böyük əhəmiyyəti var. Çünki bu gün dünyada dinlərarası münasibətlərlə bağlı fərqli fikirlər var, yəni, birmənalı yanaşma yoxdur. Bəzi hallarda çox təhlükəli fikirlər səslənir, çox böyük fəsadlara gətirib çıxara biləcək addımlar atılır. Ona görə bizim təşəbbüslərimiz dünya üçün böyük əhəmiyyət daşıyır. Sonuncu böyük tədbir Mədəniyyətlərarası Dialoq Forumu idi. Bu Forum çərçivəsində çox önəmli məsələlər müzakirə edilmişdir və Azərbaycanın bu sahədəki müsbət rolu bir daha qeyd olunmuşdur. Biz bu sahədə öz səylərimizi davam etdirəcəyik. Bir daha demək istəyirəm ki, bu, bizim üçün lazımdır və bu, dünya üçün lazımdır. Çünki biz istəyirik ki, dünyada proseslər müsbət məcrada getsin, dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmasın, sülh olsun, bərabərlik olsun, ədalət olsun. Müqəddəs İslam dinimiz bunu tələb edir və biz dövlət olaraq bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin olunacaq, ölkə qarşısında duran vəzifələr icra edilir və ediləcəkdir, mövcud problemlərin həlli üçün çox aydın baxışlar, konkret proqramlar var və onlar icra edilir. Bu gün Azərbaycan reallıqları belədir ki, ölkəmiz inamla, nikbinliklə irəliyə gedir, nikbinliklə yaşayır. Ölkə qarşısında duran bütün problemlərin həlli üçün bizdə həm güclü siyasi iradə, həm də cəmiyyət tərəfindən böyük dəstək var.

Hörmətli mərasim iştirakçıları, mən hörmətli Şeyx həzrətlərinə, digər din xadimlərinə mənim haqqımda, ünvanıma deyilən bütün xoş sözlərə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bütün dünya müsəlmanlarını Ramazan ayı münasibətilə təbrik etmək istəyirəm. Bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq, rifah arzulayıram! Sağ olun.

***

Sonra iftar süfrəsi açıldı.

# Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik**

Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram.

Bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayı dünya müsəlmanlarının ən əziz ayıdır. Oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır. Ramazan bayramı günlərində mömin vətəndaşlarımız Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar.

Azərbaycan İslam sivilizasiyasının tərkib hissəsi kimi bəşəriyyətin mədəni irsinə öz töhfələrini vermiş, böyük alimlər və mütəfəkkirlər yetişdirmişdir. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynamışdır.

Əziz bacı və qardaşlarım!

Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 03 iyun 2019-cu il.

# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

## Cümhuriyyət irsinə böyük ehtiram



Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxt Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

***

Yüz bir il bundan əvvəl – 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən – Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: “Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır”.

Ümummilli liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan olundu və AXC-nin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Xalqımız Cümhuriyyətin yarandığı 28 May – Respublika Gününü bu il də milli bayram kimi qeyd edir.

# Prezident İlham Əliyev 28 May – Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak edib

**Prezident İlham Əliyev: "Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik."**



Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Rəsmi qəbul Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başladı.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi



– Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur. Bu, onu göstərir ki, xalqımız çox mütərəqqi xalqdır. Onu göstərir ki, Azərbaycanın görkəmli ziyalıları ölkəmizin inkişafı üçün çox böyük işlər görmüşlər. Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, 23 ay ərzində çox böyük işlər görə bilmişdir. Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordu yaradılmışdır və Qafqaz İslam Ordusu ilə birlikdə Bakını işğalçılardan azad etmişdir. Bakı Dövlət Universiteti yaradılmışdır. Bu, onu göstərir ki, təhsilə çox böyük diqqət yetirilirdi. 200-dən çox qanun qəbul olunmuşdur. Onların arasında qadınlara səsvermə hüququ verən qanun qəbul edilmişdir. Yəni, bütün bu və digər addımlar onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ölkəmiz, xalqımız üçün çox böyük işlər görmüşlər. Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini əziz tutur. Onların xatirəsi bizim qəlbimizdə yaşayır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakı şəhərinin mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Keçən il isə ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmişdir.

İyirmi üç aydan sonra respublika süqut etdi və bu, bir daha onu göstərir ki, müstəqilliyi saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi. Ondan sonra ilk dəfə olaraq rəsmi qaydada bu bayrağı ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırmışdır və təsis etmişdir. Əslində, müstəqilliyə gedən yol bu tarixi andan başlamışdır. Sovet İttifaqı hələ yaşayırdı və belə cəsarətli addım ulu öndərin öz xalqına, öz dövlətinə, xalqının, dövlətinin gələcəyinə

nə qədər bağlı olduğunu, nə qədər böyük önəm verdiyini göstərir.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində digər müttəfiq respublikalarla birlikdə Azərbaycan da müstəqilliyə qovuşdu və əlbəttə ki, bizim üçün XX əsrdə ikinci şans yarandı. Ancaq əfsuslar olsun ki, ölkədə gedən xoşagəlməz proseslər imkan vermirdi ki, gənc müstəqil Azərbaycan ayaqda möhkəm dayana bilsin, öz müstəqil siyasətini apara bilsin və xalqın maraqlarını doğrulda bilsin. Çox ağır, faciəvi illər idi. 1992-ci ildə AXC-Müsavat rejimi hakimiyyəti qanunsuz şəkildə zəbt etdikdən sonra vəziyyət daha da ağırlaşdı, pisləşdi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Məhz o illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi alovlanmış və torpaqlarımız işğal altına düşmüşdü. Ölkəmizdə xaos, total böhran hökm sürürdü, iqtisadiyyat iflic vəziyyətdə idi. Əlbəttə ki, Azərbaycan xalqı çıxış yolu axtarırdı. Onu da əlavə edim ki, AXC-Müsavat rejimi ölkədə vətəndaş müharibəsini başlamışdı. Xalqımız nicat yolunu Heydər Əliyevin simasında gördü, onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini təsdiqlədi.

1993-cü il müasir tariximizdə dönüş nöqtəsi idi. Məhz 1993-cü ildən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu, Azərbaycanda sabitlik təmin edildi və ölkə inamla irəliyə getməyə başladı. Ulu öndər Heydər Əliyevin xalq, dövlət qarşısında misilsiz xidmətləri vardır. Onu da bildirməliyəm ki, 1993-cü ilə qədər müstəqilliyimiz formal xarakter daşıyırdı, ölkəmiz müstəqil siyasət apara bilmirdi. Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdır. Nizami ordu yaradılmışdır, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlamışdır, dövlətçiliyin əsasları qoyulmuşdur, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edilmişdir. Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi. Bu gün Azərbaycan bu strateji inkişaf istiqamətlərini əsas tutaraq bölgədə, dünyada dəyişən vəziyyətə uyğun olaraq öz inamlı siyasətini aparır. Bu gün ölkəmiz müstəqil siyasət apararaq, milli maraqların təmin olunmasında çox böyük addımlar atıb, çox böyük uğurlar qazanıb. 2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir. Əlbəttə ki, o vaxtdan bu günə qədər çox böyük işlər görülüb, ancaq, eyni zamanda, dünya da, bölgə də dəyişib. Dünyada, bölgədə yeni təhlükə mənbələri üzə çıxır, yeni çağırışlar meydana gəlir. Əlbəttə, biz həmişə çalışırıq və çalışmalıyıq ki, ölkəmizi mümkün olan risklərdən qoruya biləк. Son illərin təcrübəsi onu göstərir ki, biz buna müvəffəq ola bilmişik.

Ölkəmizin hərbi qüdrəti güclənir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi, Naxçıvan Muxtar Respublikasında keçirilən əməliyyat nəticəsində böyük torpaq sahəsi işğalçılardan azad edilmişdir. Hərbi qüdrətimizin artırılması nəticəsində bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərdə güclü ordular sırasındadır.

Biz son 16 ildə iqtisadi inkişafa nail olduq və bir çox iqtisadi məsələlər öz həllini tapdı. Ölkəmizə böyük həcmdə sərmayə gətirildi. Qoyulan 260 milyard dollardan çox vəsait bu gün ölkəmizin, xalqımızın inkişafına xidmət göstərir. Həm neft, həm qeyri-neft sektoruna qoyulan vəsait ölkəmizin iqtisadi potensialını böyük dərəcədə gücləndirə bilmişdir.

Sosial sahə ilə bağlı çox ciddi addımlar atılır və insanların rifah halı böyük dərəcədə yaxşılaşıb. Məcburi köçkünlərin problemləri öz həllini tapır. Yüzdən çox şəhərcik salınmışdır və bu məsələ ilə bağlı bundan sonra da addımlar atılacaq. Azərbaycanda çox müasir infrastruktur yaradılmışdır və bu sahəyə çox böyük vəsait qoyulmuşdur.

Bir sözlə, son illər ərzində bütün istiqamətlər üzrə inkişaf, tərəqqi var. Sosial infrastrukturun inkişafı ilə bağlı çox böyük işlər görülmüşdür, məktəblər, xəstəxanalar tikilmişdir. Bütün bunlar Azərbaycan reallıqlarıdır. Biz artıq güclü iqtisadi potensial, güclü iqtisadi baza yaratmışıq. Əgər bizim təşəbbüsümüzlə uğurla reallaşan nəqliyyat və enerji layihələrini əlavə etsək, görərik ki, doğrudan da Azərbaycan böyük yol keçmişdir.

Bu gün biz beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevrilmək üçün çox fəal iş aparırıq. Bu istiqamətdə də böyük addımlar atılır, böyük sərmayə qoyulur. Dəmir yolu infrastrukturu, avtomobil yollarının tikintisi, 6 beynəlxalq aeroportun fəaliyyətə başlaması, dəniz nəqliyyatının müasirləşdirilməsi – bütün bunlar son illər ərzində görülmüş işlərdir.

Görülmüş bütün işləri sadalamaq üçün bir neçə saat vaxt lazım olacaq. Sadəcə olaraq, demək istəyirəm ki, bu gün Azərbaycan müstəqillik yolunda inamla irəliləyir və ölkə qarşısında duran problemlər həll edilir. Ancaq biz gələcəyə baxmalıyıq, əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Ölkə qarşısında duran problemlər bizim üçün əsas məsələ olmalıdır və bütün müvafiq tapşırıqlar bu istiqamətdə verilir.

Bundan sonra dayanıqlı inkişafı təmin etmək üçün biz fəal işləməliyik və qəbul olunmuş qərarlar icra edilməlidir. Hesab edirəm ki, bu, qarşıda duran ən vacib məsələlərdən biridir. Çünki bəzi hallarda qərarlar qəbul edilir, sərəncamlar imzalanır, ancaq onların reallaşması yubanır. Ona görə, bundan sonrakı dövrdə

mütləq bu sahəyə daha ciddi diqqət göstərilməlidir ki, qəbul edilmiş qərarlar, qanunlar, imzalanmış sərəncamlar həyata keçirilsin.

Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Belə olan halda hərbi potensialımızın gücləndirilməsi əsas prioritet məsələlərdən biri olmalıdır. Bu istiqamətdə çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, son illərdə hərbi hissələrimizin 80 faizi tamamilə yenidən qurulub. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hissələr də təmir ediləcəkdir. Azərbaycan bu gün çox güclü hərbi potensiala malikdir. Ancaq bundan sonra da bu istiqamətdə praktiki addımlar atılacaq.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğal altına düşməsi AXC-Müsavat rejiminin acı mirasıdır. Biz çalışırıq bu məsələni həll edək. Həm hüquqi, həm siyasi, həm iqtisadi, həm hərbi nöqteyi-nəzərdən Azərbaycan bu istiqamətdə böyük dərəcədə güclənib. Son illərdə mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələr bizim ədalətli mövqeyimizi dəstəkləyir və münaqişənin həlli üçün bu, çox güclü hüquqi baza yaradıb. Qondarma “Dağlıq Qarabağ respublikası”nı heç bir ölkə tanımayıb, orada keçirilmiş qanunsuz referendumlara dünyanın aparıcı təşkilatları və bir çox ölkələr tərəfindən sərt, mənfi reaksiya verilmişdir. Biz münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırırıq və bundan sonra da çatdırmalıyıq. Hesab edirəm ki, bu gün vəziyyət tamamilə fərqlidir. Çünki əgər əvvəlki dövrlərdə erməni lobbisi tərəfindən yayılan saxta, təhrif edilmiş məlumatlar daha çox yer tuturdusa, bu gün münaqişə ilə bağlı dünya ictimaiyyəti kifayət qədər məlumatlıdır. Hər kəs xəritəyə baxsa görər ki, Azərbaycan işğala məruz qalan ölkədir.

Bu məsələ ilə bağlı biz bundan sonra da ardıcıl siyasət aparacağıq. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Biz bu mövqedən dönməyəcəyik. Münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və müvafiq beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilməlidir.

Biz bundan sonra da sosial sahəyə çox böyük diqqət göstərəcəyik. Çünki bu sahə hər bir ölkə üçün prioritet olmalıdır, o cümlədən bizim üçün. Baxmayaraq ki, son illər ərzində dəfələrlə maaşlar və pensiyalar artırılıb, biz bundan sonra da bu istiqamətdə addımlar atacağıq. Bu yaxınlarda çox böyük sosial paket qəbul edildi. Bu islahatların anonsu keçənilki prezident seçkilərindən sonra verilmişdir. Bu ilin əvvəlindən çox ciddi sosial təşəbbüs icra edilməyə başlamışdır. Qəbul edilmiş qərarlar üç milyon insanı əhatə edir və bu vətəndaşların maddi vəziyyəti yaxşılaşır.

Ancaq hesab edirəm ki, biz bundan sonra da bu istiqamətdə tam qətiyyətlə addımlar atacağıq. Çünki vətəndaşların sosial rifahı bizim üçün ən prioritet məsələdir. Ancaq təbii ki, bu, iqtisadi inkişafa bağlıdır. Çünki iqtisadi inkişaf, maddi imkanlar olmasa sosial proqramları həll etmək mümkün olmayacaq. Ona görə iqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir. Nəticə ondan ibarətdir ki, büdcə daxilolmaları artır. Bu ilin əvvəlindən büdcə daxilolmaları böyük dərəcədə – yüz milyonlarla manat həcmində artmışdır. Bu, bizə əlavə imkanlar yaradır ki, ilk növbədə sosial sahədə bu artım özünü göstərsin.

İşsizliklə bağlı problemlərin həlli daim gündəlikdə duran məsələdir. Çünki 2003-cü ildən bu günə qədər 2 milyon iş yeri yaradılmasına baxmayaraq, yenə də işsizlik var. Düzdür, başqa ölkələrə nisbətən Azərbaycanda işsizliyin səviyyəsi çox aşağıdır, ancaq biz hesab edirik ki, bundan sonra da bu istiqamətdə addımlar atılmalıdır. Bu ilin əvvəlindən təkcə dövlət sektorunda 50 minə yaxın iş yeri yaradılmışdır. Ancaq, əlbəttə, biz yaxşı başa düşürük ki, ilk növbədə özəl sektorda iş yerləri yaradılmalıdır, özəl sektorda da yaradılır. Biz dövlət olaraq özəl sektora dəstək göstərərək onları da bu işə sövq edirik.

İşsizlik hər bir ölkə üçün xas olan problemdir. Bu məsələnin həlli böyük səylər tələb edir. Biz bu səyləri göstəririk və nəticə də əldə olunur. Ancaq onu da bilməliyik ki, son 15 il ərzində Azərbaycan əhalisi 1,7 milyon artmışdır. İşsizliklə bağlı tədbirlər müntəzəm olaraq aparılmalıdır. Bu, gündəlikdə daimi duran məsələdir və biz məsələ ilə bağlı ciddi məşğuluq.

Bu gün dünyada informasiya müharibəsi aparılır və hər bir vətəndaş bunu açıq-aydın görə bilir. Azərbaycan uzun illərdir ki, informasiya müharibəsinin hədəfində dayanan ölkədir. Ölkə haqqında təhrif edilmiş, yalan məlumatlar, uydurma faktlar, saxta xəbərlər geniş vüsət alıb. Biz buna adekvat cavab verməliyik, öz həqiqətlərimizi dünyaya çatdırmalıyıq. Bizə qarşı hücumların əksəriyyətinin arxasında erməni lobbisi və onlarla müttəfiq olan bəzi yerli, özünü müxalifət adlandıran qruplaşmalar durur. Onların hədəfi Azərbaycanı ləkələməkdir, Azərbaycan haqqında təhrif edilmiş yalan məlumatlar yaymaqdır. Bu, informasiya müharibəsinin bir növüdür. Biz öz siyasətimizlə bütün bu yalanları, bütün bu böhranları darmadağın edirik və etməliyik. Çünki bu gün Azərbaycan reallıqları onu göstərir ki, ölkə inamla, sürətlə inkişaf edir. Mənim Prezident kimi təcrübəmdə bir çox hallarda xarici qonaqlarla təmaslar, Azərbaycana ilk dəfə gəlmiş qonaqlarla görüşlər əsnasında onlar tərəfindən bir təəccüb hissi duyulurdu: yəni, biz bilmirdik ki,



Azərbaycan bu qədər inkişaf etmiş ölkədir. Biz bilmirdik ki, Azərbaycanda vəziyyət bu qədər yaxşıdır, şəhərlər bu qədər təmizdir, səliqəlidir, gözəldir. İctimai ovqat müsbətdir. Xalq iqtidarı dəstəkləyir. Yəni, nəyə görə bu təəccüb hissləri oyanırdı? Ona görə ki, bizə qarşı çoxşaxəli, məqsədyönlü və davamlı informasiya müharibəsi aparılırdı. Məqsəd Azərbaycanı ləkələmək, inkişafımıza zərbə vurmaq, cəmiyyətimizin ənənəvi dayaqlarını sarsıtmaqdır. Biz buna heç cür imkan verə bilmərik və imkan vermirik. Çünki biz müstəqillik yolu ilə gedirik. Bizim öz seçimimiz var. Biz güclü dövlət qururuq. O dövlət ki, milli-mənəvi dəyərlər üzərində qurulub. Ona görə hədəflərin biri də məhz bizim milli dəyərlərimizdir, ənənələrimizdir. Çalışırlar ki, onları sarsıdaraq ölkəmizin inkişafına zərbə vursunlar. Azərbaycan xalqı hər şeyi yaxşı bilir və bilməlidir ki, biz informasiya müharibəsi şəraitində yaşayırıq və buna hazır olmalıyıq. Biz bu müharibədə ancaq öz işimizlə, öz qətiyyətimizlə qalib gələ bilərik.

Bizim qarşımızda bir çox vəzifələr dayanır. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan öz müstəqil siyasətini aparmalıdır. Xalqımız ancaq müstəqillik şəraitində inkişaf edə bilər. Biz əsrlər boyu müstəqillikdən məhrum idik və öz seçimimizi edə bilmirdik. Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir. Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq! Sağ olun.

***

Rəsmi qəbul Azərbaycan incəsənət ustalarının konsert proqramı ilə davam etdi.

# Prezident İlham Əliyev Olimpiya Stadionunda UEFA Avropa Liqasının final oyununa baxıb

## UEFA Avropa Liqasının final qarşılaşması Bakıda




Mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilən UEFA Avropa Liqasının final qarşılaşmasının qalibi "Çelsi" komandası olub.

Londonun "Arsenal" və "Çelsi" komandaları arasında baş tutan maraqlı final oyununa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də baxıblar.

Azərbaycanın paytaxtında çoxdandır maraqla gözlənilən futbol yarışı uğurla baş tutdu.

Oyunu italiyalı referi Canluka Rokki idarə edib. Avropa Liqası tarixində ilk dəfə bu oyunda videonəzarət (VAR) sistemindən istifadə olunub. Bundan başqa, bu turnirdə ilk dəfə olaraq komandalar əlavə vaxt təyin olunacağı təqdirdə dördüncü əvəzetmədən istifadə etmək hüququ qazanıblar.

Final oyununun möhtəşəm açılış mərasimində ingiltərəli DJ, bəstəkar və remikser Conas Blu Bakı Olimpiya Stadionuna toplaşan azarkeşlərə unudulmaz anlar yaşatdı. O, möhtəşəm mərasimdə 150 yerli rəqqasla birlikdə səhnəyə çıxdı.

Şərq ilə Qərbin qovuşduğu Bakıda təşkil olunan bu möhtəşəm mərasimdə Conas Blunun bənzərsiz ifası azarkeşlərin coşqulu alqışları ilə qarşılandı.

Əsrarəngiz xüsusi effektlər "Odlar Yurdu" üzərində səmanı işıqlandırdığı zaman DJ Blu özünün ən böyük hitlərinin miksini ifa etdi. Bu, tamaşaçılara müsbət enerji verməklə final oyununda mübarizə aparacaq hər iki komandaya da ehtiramın ifadəsi oldu.

Mərasimin ən yadda qalan hissəsi Conas Blunun bənzərsiz ifasının sədaları altında "Çelsi" və "Arsenal" komandalarının nəhəng formalarının arenaya gətirilməsi oldu.




Açılış mərasimindən sonra turnirin kuboku arenaya gətirildi. Daha sonra "Arsenal" və "Çelsi" komandalarının futbolçuları meydana çıxdılar.

İki yüzdən çox ölkədə canlı yayımlanan final qarşılaşmasının birinci hissəsində bir neçə dəfə təhlükəli vəziyyət yaransa da, hesab açılmadı. İkinci hissəyə "Çelsi" daha fəal başladı. Bu fəallığın nəticəsində 49-cu dəqiqədə Oliviye Jiru öz komandasını 1:0 hesabı ilə önə keçirdi. Qarşılaşmanın 60-cı dəqiqəsində "Çelsi" hesabda üstünlüyünü artırdı. Budəfəki qolun müəllifi Pedro Rozdrigez oldu. Beş dəqiqə sonra "Arsenal"ın qapısına penalti təyin edildi. Penaltini dəqiq yerinə yetirən Eden Azar hesabı 3:0-a çatdırdı. "Arsenal" hesab arasındakı fərqi 69-cu dəqiqədə Aleks İvobinin möhtəşəm qolu ilə azaltmağa müvəffəq olsa da, iki dəqiqə sonra Eden Azarın vurduğu qolla "Çelsi" fərqi üç topa çıxardı: 4:1.

Maraqlı idman mübarizəsi şəraitində keçən qarşılaşma elə bu hesabla da başa çatdı.

Bununla da "Çelsi" komandası UEFA Avropa Liqasının 2018-2019-cu illər mövsümünün qalibi oldu.

Matçda dubl edən Eden Hazard final qarşılaşmasının ən yaxşı futbolçusu seçilib.

"Çelsi"nin fransalı hücumçusu Oliviye Jiru isə vurduğu qol sayəsində UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün ən məhsuldar futbolçusu olub. O, cari mövsümdə bu turnirdə 11 dəfə fərqlənib.

Final matçından sonra qaliblərin təntənəli mükafatlandırılması mərasimi keçirildi.

Qalib komandaya kuboku UEFA prezidenti Aleksandr Çeferin təqdim etdi.

Bununla da "Çelsi" 2012-2013-cü il mövsümündən sonra ikinci dəfə UEFA Avropa Liqasının qalibi adını qazandı. "Arsenal" isə ikinci dəfə UEFA Avropa Liqasının finalında məğlub oldu.

Qeyd edək ki, bu oyunla peşəkar futbolda 851-ci dəfə meydana çıxan "Arsenal"ın çexiyalı qapıçısı Petr Çex final görüşündən sonra karyerasını başa vurub.

Daha bir maraqlı məqam ondan ibarətdir ki, final qarşılaşması ilə əlaqədar tamaşaçı tutumu 70 min yerə çatdırılan Bakı Olimpiya Stadionu bu baxımdan UEFA Avropa Liqasının tarixində 20 illik rekordu yeniləyib. Bakı Olimpiya Stadionu bu göstərici üzrə UEFA Avropa Liqasının final matçına ev sahibliyi edən stadionlar arasında ən çox tamaşaçı tutumuna malik arena olub. Belə ki, 1999-cu ildə "Parma" və "Marsel" komandaları Moskvanın 62 min tamaşaçı tutumuna malik "Lujniki" stadionunda üz-üzə gəliblər.

Xatırladaq ki, 2017-ci il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsi futbol üzrə UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final oyununun 2019-cu il mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar qəbul edib. UEFA Avropa Liqasının final qarşılaşmasının Bakıda keçirilməsi ilə əlaqədar Azərbaycan paytaxtında silsilə tədbirlər təşkil olunub. Belə ki, UEFA Avropa Liqasının zəngin irsinin təbliği məqsədilə Bakıda ötən il dekabrın 22-




dən bu il yanvarın 7-dək "UEFA Avropa Liqası Muzeyi" fəaliyyət göstərib.

Bu mötəbər futbol turnirinin kubok səyahətinə martın 9-da Cenevrədə start verilib. Martın 22-23-də Sevilya, martın 29-30-da Berlin, aprelin 5-6-da London, aprelin 12-də Milan, aprelin 20-də Moskva, mayın 10-da Parisdə olan kubok mayın 19-da Gəncədə, 21-də isə Cocuq Mərcanlıda nümayiş olunduqdan sonra Bakıya gətirilib.

UEFA Avropa Liqasının final qarşılaşması çərçivəsində keçirilən tədbirlərdən biri də martın 3-də "Bakı 2019: Ulduzlar Finalı" adlı qarşılaşma olub. Həmin oyunda məşhur futbolçular Yeju Dudek, Maykl Essien, Anderson Luis de Souza (Deku), Hamit Altıntop, Nihat Kahveci, Andrey Arşavin, Revaz Arveladze, eləcə də yerli veteran futbolçulardan Nazim Süleymanov və UEFA Avropa Liqasının Bakıda keçirilən final oyununun səfiri Vəli Qasımovun iştirakı ilə "Bakı 2019: Ulduzlar Finalı"nda "Qərb Ulduzları" və "Şərq Ulduzları" komandaları qarşılaşıblar.

UEFA Avropa Liqasının final matçının Bakı Olimpiya Stadionunda keçirilməsi ilə bağlı qərar son illər sürətlə inkişaf edən Azərbaycan idmanının qazandığı növbəti uğurdur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət idman siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilməsi nəticəsində bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Azərbaycanın son illərdə bir neçə mötəbər beynəlxalq idman yarışına – I Avropa, IV İslam Həmrəyliyi Oyunlarına, Formula 1 yarışına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına yüksək səviyyədə ev sahibliyi etməsi Azərbaycanın idman dövləti olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, bu gün ən mötəbər idman qurumları nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verirlər. Belə ki, UEFA Avropa Liqasının final oyunu ilə yanaşı, 2020-ci ildə futbol üzrə Avropa çempionatının qrup mərhələsinin üç, dörddəbir final mərhələsinin bir oyununun, bu il iyulun 20-28-də Avropa Gənclərinin Yay Olimpiya Festivalının Bakıda keçirilməsi barədə qərarlar bunun göstəricisidir. İdmançılarımızın Olimpiada, dünya və Avropa, eyni zamanda, digər beynəlxalq idman tədbirlərində qazandıqları medalların sayının ilbəil artması dövlət səviyyəsində idman sahəsinə göstərilən diqqətin nəticəsidir. Təqdirəlayiq haldır ki, uşaqlar və gənclər arasında idmana böyük maraq var. Bütün bunlar digər sahələr kimi, Azərbaycan idmanının da inkişafının ən parlaq dövrünü yaşadığını nümayiş etdirir.

# Baş Prokurorluqda Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03 aprel 2019-cu il tarixli Fərmanında prokurorluğa ünvanlanmış tövsiyələrin yerinə yetirilməsi məqsədi ilə geniş əməliyyat müşavirəsi keçirilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanından irəli gələn vəzifələrin təxirə salınmadan icrasını təmin etmək məqsədilə ilə aprelin 9-da Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun sədrliyi ilə geniş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirəni giriş nitqi ilə açan Baş prokuror ölkə başçısı tərəfindən əhalinin layiqli həyat səviyyəsinin təmin olunması və dövlət-vətəndaş münasibətlərinin müasir çağırışlara uyğun formalaşmasına yönəlmiş institusional tədbirlərin müvəffəqiyyətlə həyata keçirildiyini vurğulamışdır.

Dövlət başçısının humanist siyasətinin təzahürü olan, mühüm strateji əhəmiyyətə malik bir sənəd kimi ölkənin hüquq sisteminin müasir dövrün ən yüksək tələbləri səviyyəsində yenilənməsinə və təkmilləşməsinə təkan verən "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin

humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamının əhəmiyyətini vurğulayan Baş prokuror sənədin imzalandığı tarixdən ötən müddət ərzində istintaq zamanı həbs edilmiş şəxslərin sayının 30 faiz azaldığını diqqətə çatdırmışdır.

Həmin Sərəncamdan irəli gələn vəzifələrin vaxtında və tam şəkildə yerinə yetirilməsi, cəza siyasətinin liberallaşdırılması, cinayət təqibi ilə əlaqədar fəaliyyətin səmərəli təşkil edilməsi məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsi, Ədliyyə Nazirliyi və Baş Prokurorluğunun əməkdaşlarından ibarət tərkibdə yaradılmış birgə işçi qrupu tərəfindən təkliflərin hazırlandığını, həmin təkliflər əsasında hazırlanmış qanun layihəsinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında qanunvericilik orqanına təqdim edildiyini, həmin layihənin qəbul edilməklə 1 dekabr 2017-ci il tarixdən qüvvəyə mindiyini qeyd edən Baş prokuror yeni qanunla Cinayət Məcəlləsinə ümumilikdə 300-ə yaxın dəyişiklik edilərək, Məcəllədə indiyədək nəzərdə tutulmuş 18 növ cinayət əməlinin dekriminallaşdırıldığını, cinayət məsuliyyətinə alternativ olan tədbirlərin tətbiqi əsaslarının xeyli dərəcədə genişləndirildiyini, 152 növ cinayətlərin sanksiyasına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunaraq cəza siyasətinin humanistləşdirilməsi istiqamətində bir sıra digər mühüm tədbirlərin həyata keçirildiyini bildirmişdir.

Baş prokuror həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində prokurorluğun və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının istintaq qurumlarının icraatında olan cinayət işləri üzrə son dövrlərdə təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi məqsədilə vəsatət və təqdimatların verilməsi zamanı yol verilən nöqsanların aradan qaldırılması ilə bağlı 12 mart 2019-cu il tarixdə Baş Prokurorluğun bütün struktur qurumlarına və Respublikanın müvafiq icra hakimiyyəti orqanlarının istintaq qurumlarının rəhbərlərinə göstəriş xarakterli məktubun göndərildiyini nəzərə çatdırmışdır.

Müşavirədə Fərmandan irəli gələn vəzifələrin vaxtında və səmərəli icrasını təmin etmək məqsədilə 4 aprel 2019-cu il tarixdə Baş Prokurorluqda İşçi Qrupun yaradıldığını qeyd edən Baş prokuror cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi ilə əlaqədar müvafiq qanun layihələrinin hazırlanmasının, həmçinin məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsininin mütəmadi təhlil edilməsinin zəruriliyini vurğulamışdır.

Fərmanda vahid məhkəmə təcrübəsinin formalaşdırılması vəzifəsinin və həmin vəzifənin icra olunması mexanizminin təsbit edilməsinə münasibət bildirən Baş prokuror cinayət təqibi orqanlarında başlanmış cinayət işlərinin istintaqı zamanı cinayət qanunvericiliyinin müddəalarına düzgün istinad edilməklə əmələ obyektiv hüquqi qiymət verilməsi, cinayət işlərinin yüksək peşəkarlıqla istintaq edilməsi, prokurorlar tərəfindən ibtidai araşdırmanın həm prokurorluq, həm də digər istintaq orqanlarında keyfiyyətlə aparılması istiqamətində kəsərli tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Əməliyyat müşavirəsində Baş prokuror Fərmandan irəli gələn vəzifələrin icrası ilə əlaqədar ilkin mərhələdə Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin fəaliyyət keyfiyyətinin artırılması məqsədilə tərkibinin yenidən formalaşdırılması üçün Müsabiqə komissiyasının təşkil olunması və növbəti mərhələdə isə dövlət ittihamının müdafiəsini həyata keçirən bütün prokurorların eyni prosedurlar əsasında müsabiqə yolu ilə vəzifəyə təyin edilmələri barədə göstəriş vermişdir.

Bundan əlavə, əməliyyat müşavirəsində Baş prokurorun müavini Namiq Əsgərov, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Baş prokurorun köməkçiləri Toğrul Muxtarov və Zaur Axundzadə çıxışlar edərək, Fərmanın qarşıda mühüm vəzifələr qoyduğunu vurğulamışlar.

Tədbirin sonunda bildirilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanının icrası ilə əlaqədar Baş Prokurorluqda həmin Fərmanın tələblərindən irəli gələn vəzifələrin vaxtında və səmərəli yerinə yetirilməsi istiqamətində qanun layihələrinin hazırlanaraq təqdim edilməsi təmin ediləcəkdir.

**Baş Prokurorluq**

# Prokurorluğun kollektivi növbəti ağacəkmə kampaniyası keçiriblər



Mayın 4-də Baş Prokurorluğun, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının işçiləri xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə ağacəkmə kampaniyası keçirmişdir.

Son illər respublikamızda yaşıllıqların artırılması, yeni park və xiyabanların salınmasına diqqət artırılmışdır. Yaradılan parklar və yaşıllıqlar sakinlərdə xoş əhval-ruhiyyə yaradır. Əkilən agaclar insanların sağlamlığına müsbət təsir göstərməklə yanaşı, paytaxtın ümumi mənzərəsinə yeni çalarlar əlavə edir. Əsas məqsəd paytaxtın ekoloji cəhətdən sağlamlaşdırılmasına töhfə verməkdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə ictimai həyatın bütün sahələri ilə yanaşı, ekoloji mühitin mühafizəsinə, yeni yaşıllıq



sahələrinin salınmasına xüsusi diqqət yetirmişdir. Azərbaycan Respublikası Prokurorlugu orqanlarının əməkdaşları da bu xeyirxah və nəcib tədbirdə həmişə yüksək əhval-ruhiyyə ilə iştirak ediblər. Ulu öndər tərəfindən əsası qoyulmuş ekoloji siyasət bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ölkə başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə, həmçinin Baş Prokurorluqda yaranmış ənənəyə uyğun olaraq prokurorluq orqanlarının əməkdaşları ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illilyi münasibətilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçirmişdir.

Tədbir çərçivəsində paytaxtın Suraxanı rayonu ərazisində Dədə Qorqud qəsəbəsinin yaxınlığında 1 hektar ərazidə minə yaxın badam ağacları əkilmişdir. Abşeron yarımadasının iqliminə uyğun olaraq əkilən agacların küləkdən qorunması üçün dirəklər basdırılmış və onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunmuşdur. Həmçinin, əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülmüşdür.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

**Baş Prokurorluq**

# Azərbaycan Respublikasının Baş Prokurorluğunda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib



Mayın 7-də Baş Prokurorluqda xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş mərasim keçirilmişdir.

Mərasim iştirakçıları əvvəlcə Baş Prokurorluğun inzibati binasının foyesində müstəqil Azərbaycan Respublikasının memarı və yaradıcısı Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoymuşlar.

Tədbirdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, Azərbaycan Respublikasının müasir inkişaf tarixi dahi şəxsiyyət Heydər Əliyevin adı, onun dövlətçilik siyasəti ilə ayrılmaz şəkildə bağlıdır. Müstəqilliyimizin xilaskarı kimi tarixə düşən Heydər Əliyevin siyasi irsi bugünkü uğurlarımızın əsasını təşkil edir. Bütün nəsillərə örnək olan bir ömür yaşamış ulu öndər Heydər Əliyevin ictimai-siyasi və dövlət xadimi kimi Azərbaycan xalqı qarşısında ən böyük xidməti ondan ibarət olmuşdur ki, o, sovet sisteminin mövcudluğu şəraitində Azərbaycan Respublikasının gələcək müstəqilliyinin iqtisadi əsaslarını yaratmış və xalqımızı öz müstəqilliyi uğrunda mübarizəyə hazırlamış, dövlətçiliyimiz üçün məhv olma qorxusu yarandığı illərdə həyatını təhlükə qarşısına qoyaraq, radikal müxalifət və digər destruktiv qüvvələrin cinayətkar hərəkətlərinin qarşısını almaqla dayanıqlı sabitlik və əmin-amanlıq şəraitini formalaşdırmış, Azərbaycanın qüdrətli bir dövlətə çevrilməsini şərtləndirən misli görünməmiş yenidənqurma və quruculuq işlərini həyata keçirmişdir.

Ümummilli liderin dəyanəti və cəsarəti, mətinliyi və zəkası sayəsində xalqımız zamanın bütün çətinliklərinə sinə gərmiş, təzyiq və təhlükələrdən xilas olaraq ictimai-siyasi sabitliyin bərqərar olunmasına, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, insan hüquq və azadlıqlarının təmin edil-



məsinə nail ola bilmişdir. Bütövlükdə Azərbaycanın ötən əsrin 70-ci illərindən başlayaraq bu günə qədər olan inkişaf tarixi "Azərbaycan tarixinin Heydər Əliyev dövrü" kimi səciyyələndirilməklə, onun Azərbaycanda siyasi hakimiyyətə yenidən qayıdışı tarixi olan 15 iyun isə "Azərbaycan xalqının Milli Qurtuluş Günü" kimi təntənəli şəkildə qeyd olunur.

Ulu öndərin 1993-cü il iyunun 15-də Azərbaycana xilasedici qayıdışı müstəqil tariximizin dönüş nöqtəsinə çevrilməklə, xalqın itirilmiş inamını özünə qaytarmış və gələcəyə olan ümidlərini artırmış, Azərbaycan parçalanıb dağılmaq, müstəqilliyini itirmək və vətəndaş müharibəsi təhlükəsindən xilas olmuş, qısa bir müddət ərzində dövlət və hakimiyyət böhranına, xaos və anarxiya şəraitinə son qoyulmuş, torpaqlarımızın işğalı prosesinin qarşısını alan atəşkəs barədə razılaşma əldə edilmişdir. Çoxsaylı dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı qətiyyətlə alınmaqla əmin-amanlıq şəraiti formalaşdırılmış, insanların dinc yaşaması üçün təhlükə yaradan cinayətkarlığın hakimiyyətə meydan oxuması, qanunsuz silahlı birləşmələrin mövcudluğu kimi neqativ təzahürlər aradan qaldırılmaqla kriminogen durum stabilləşdirilmişdir.

Azərbaycanda dayanıqlı ictimai-siyasi sabitlik yaradıldıqdan sonra Heydər Əliyevin rəhbərliyi ilə ölkə miqyasında hərtərəfli iqtisadi islahatlara, bazar iqtisadiyyatına hərtərəfli keçidi şərtləndirən yeni iqtisadi siyasətin reallaşdırılmasına başlanılmışdır. Yeni neft strategiyasının uğurla reallaşdırılmasının nəticəsi olaraq, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və digər mühüm layihələrin reallaşdırılması təmin edilməklə, irimiqyaslı xarici investisiyaların respublikamıza axınına şərait yaradılmış, genişmiqyaslı özəlləşdirmə proqramının həyata keçirilməsi, uğurlu makroiqtisadi sabitləşmə siyasəti nəticəsində inflyasiyanın artım tendensiyasının qarşısı alınmış, Azərbaycanın dünya iqtisadiyyatına hərtərəfli inteqrasiyası, ən əsası əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-2003-cü illər ərzində Azərbaycan Respublikasında hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolunda mühüm addımlar atılmaqla, milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara uyğun köklü hüquqi islahatlar aparılmışdır. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə əsaslanan və memarı Heydər Əliyev olan müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi ilə hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməli qoyulmuşdur, hakimiyyət bölgüsü prinsipinə uyğun dövlət idarəetmə sistemi yaradılmaqla qanunvericilik, icra və məhkəmə orqanlarının səmərəli fəaliyyəti təmin edilmişdir.

Çoxpartiyalılıq əsasında demokratik seçkilər keçirilməsi təcrübəsinin formalaşdırılması, söz və mətbuat azadlığı, siyasi partiyalar və qeyri-hökumət təşkilatlarının maneəsiz fəaliyyəti üçün bütün imkanların yaradılması demokratik dövlət quruculuğu yolunda atılan mühüm addımlar olmuşdur.

Heydər Əliyevin dahiliyi, müdrikliyi və uzaqgörənliyi onun ideya və tövsiyələrinin reallığa əsaslanaraq zamanın sınaqlarından keçməklə Azərbaycan xalqının yeganə tarixi inkişaf yolunun müəyyən edilməsində, ölkə həyatının bütün sahələrinin davamlı olaraq inkişaf etməsində özünü göstərmişdir. Bu tarixi şəxsiyyətin öz xalqı qarşısında ən böyük xidməti həm də ondan ibarət olmuşdur ki, ölkənin uzunmüddətli davamlı strateji inkişaf konsepsiyasını müəyyən etməklə yanaşı onu, özündən sonra müasir dövrün tələblərinə uyğun şəkildə yüksək peşəkarlıqla həyata keçirməyə qadir olan, hərtərəfli liderlik keyfiyyətlərinə malik, səmərəli fəaliyyəti nəticəsində ölkəmizi regionun qabaqcıl dövlətinə çevirmiş, həyata keçirdiyi sistemli islahatlarla respublikamızın davamlı tərəqqisini təmin edən xarizmatik və təşəbbüskar rəhbər, yüksək idarəçilik məharətinə, möhkəm siyasi iradə və qətiyyətə malik olan İlham Əliyev kimi layiqli davamçı hazırlamışdır.

Qeyd edilmişdir ki, Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gerçəkləşdirən, mərkəzində Azərbaycan vətəndaşı, onun qayğı və maraqları dayanan sosial yönümlü dövlət siyasəti həyata keçirən Möhtərəm Prezidentimiz daim öz müdrik qərarları, səriştəli və bacarıqlı idarəçiliyi ilə xalqımızı ciddi sınaqlardan, iqtisadi risklərdən və onların yarada biləcəyi fəsadlardan xilas etmiş, ölkənin davamlı və dayanıqlı tərəqqisini təmin etmişdir. Ölkədə son dövrlərdə həyata keçirilən mütərəqqi islahatlar, idarəetmənin təkmilləşdirilməsi istiqamətində mühüm yeniliklər, korrupsiya hallarının qarşısının alınması, şəffaflığın və ictimai nəzarətin artırılması ilə bağlı qəbul olunan strateji əhəmiyyətə malik innovativ qərarlar göstərilənlərin bariz nümunəsi olmaqla Heydər Əliyev siyasətinə alternativin olmadığını bir daha təsdiqləyir.

Ulu öndərin rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi cinayətkarlığa qarşı mübarizə sahəsində də həyata keçirilmiş fəaliyyətin nəticələri bu gün hamımızın gözü önündədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, "Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən, Bakı isə ən təhlükəsiz şəhərlərindən birinə çevrilmişdir. Ölkəmizdə inkişaf üçün əsas amil olan siyasi sabitlik və əmin-amanlıq mövcuddur. Azərbaycan dünyada sabitlik adası kimi tanınır və kriminogen durum çox müsbətdir".

Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşdırılması naminə müəyyən etdiyi ideyaları reallaşdıran, məqsədlərinin əhəmiyyətinə və miqyasına görə Azərbaycanda alternativi olmayan Heydər Əliyev Fondu tərəfindən milli-mənəvi dəyərlərimizin qorunması, təhsil, səhiyyə, idmanın inkişafı sahəsində dövlətin yürütdüyü siyasətə dəstək verilməsi, xüsusilə Azərbaycanda müasir xeyriyyəçilik institutunun əsasını qoymuş Fondun prezidenti Mehriban xanım Əliyevanın xoşməramlı və əzmkar fəaliyyəti Heydər Əliyev irsinə verilən dəyərli töhfə kimi qəbul edilir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın sosial, humanitar, mədəni sahələrlə yanaşı, ölkəmizin ictimai-siyasi həyatında çoxşaxəli fəaliyyəti, gördüyü mötəbər işlər və həyata keçirdiyi layihələr xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Xüsusi vurğulandı ki, Silahlı Qüvvələrin formalaşdırılması, ordumuzun ən müasir hərbi texnika ilə təchiz olunması, qürur duyduğumuz Azərbaycan Ordusunun qazandığı nailiyyətlər də ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin uğurlarındandır. Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən hərbi islahatların aparılmasına göstərilən gündəlik diqqət və qayğı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin sülh danışıqları ilə həll edilməsi yolunda böyük səbr və təmkinlə həyata keçirilən tədbirlərin erməni təcavüzkarlarının məkrli niyyəti üzündən baş tutmayacağı təqdirdə Azərbaycan Silahlı Qüvvələrinin torpaqlarımızı erməni işğalçılarından təmizləyə biləcəyinə xalqın inamını daha da artırır. Erməni silahlı qüvvələri ilə təmas xəttində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi istiqamətində uğurla həyata keçirilmiş aprel döyüşləri, həmçinin 2018-ci ilin may ayında Şərur rayonunun Günnüt kəndi və 11 min hektara yaxın ərazinin işğaldan azad edilməsi şanlı ordumuzun, dövlətimizin, Ali Baş Komandanımızın tarixə qızıl hərflərlə həkk olunan böyük qələbəsi olmuşdur.

Diqqətə çatdırılmışdır ki, Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyin maraqlarına xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması ölkəmizdə aparılan hərtərəfli məhkəmə-



hüquq islahatlarının müəllifi kimi Heydər Əliyevin dövlətçilik siyasəti, onun gündəlik qayğı və dəstəyi nəticəsində mümkün olmuşdur. Azərbaycan prokurorluğu orqanlarına dövlət səviyyəsində göstərilən etimad və diqqət bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və prokurorluğa hərtərəfli qayğı göstərilir.

Çıxışının sonunda Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin etmişdir ki, sivil və müasir məzmunlu dövlət təsisatı kimi yenidən formalaşmasına görə ulu öndər Heydər Əliyevin şəxsiyyətinə borclu olan Azərbaycan Prokurorluğunun kollektivi onun ideyalarına sadiqdir və bütün səylərini həmin ideyaların həyata keçirilməsinə, dövlət müstəqilliyimizin, sabitlik və əmin-amanlığın hər cür cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəkdir.

Mərasimin yekununda ümummilli liderin xatirəsinə həsr olunmuş Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış “Liderlik Missiyası” adlı film nümayiş etdirilmişdir.

**Baş Prokurorluq**

# Azərbaycan Prokurorluğunun kollektivi ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

## Prokurorluq işçiləri ulu öndər Heydər Əliyevin xatirəsini Fəxri xiyabanda yad ediblər

Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluqları orqanlarının işçiləri dekabrın mayın 10-da Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, əziz və unudulmaz xatirəsini yad ediblər. Ulu öndərin məzarı önünə qızıl güllər qoyub, xatirəsini dərin ehtiramla anıblar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub.

**Baş Prokurorluq**

# Hərbi Prokurorluqda ümummilli lider Heydər Əliyevin 96 illik yubileyi münasibəti ilə elmi-praktik konfrans keçirilib





Aprelin 30-da Hərbi Prokurorluqda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 96 illik yubileyi münasibəti ilə əlaqədar "Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasında Heydər Əliyevin xüsusi xidmətləri və Azərbaycan Silahlı Qüvvələrinin bu günü" mövzusunda elmi-praktik konfrans keçirildi.

Tədbir iştirakçıları – Respublika Hərbi prokuroru Xanlar Vəliyev, Milli Məclisin deputatları Musa Quliyev, İlham Məmmədov, Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov, üzvü Bəhrəm Zahidov, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədri Füzuli Rzaquliyev, sədr müavini Vahid Abudurəhmanov və Hərbi Prokurorluğun rəhbər vəzifəli işçiləri əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək böyük şəxsiyyətin əziz və unudulmaz xatirəsinə olan dərin ehtiramlarını bildirdilər.

Konfrans başlamamışdan öncə ümummilli liderin müqəddəs ruhu sükutla yad edildi. Ardınca konfransı açıq elan etməklə, çıxışına başlayan Hərbi prokuror Xanlar Vəliyev fövqəlbəşər Heydər Əliyevin çoxşaxəli, şərəfli, mənalı ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən, millətimiz və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən, o cümlədən Azərbaycan Silahlı Qüvvələrinin qurulması və formalaşdırılması istiqamətində gördüyü nəhəng işlərdən söz açaraq, ulu öndərin müəyyən etdiyi, Azərbaycanın parlaq gələcəyinə hesablanmış siyasi kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə, o cümlədən ordu quruculuğunda əldə olunmuş böyük nailiyyətləri diqqətə çatdırdı.

Hərbi prokuror Xanlar Vəliyev bildirdi ki, bir qərinədən də çox zaman kəsiyində ölkəmizin rəhbəri olmuş ümummilli lider Heydər Əliyev təkcə qeyd olunan dövrdə deyil, bütün həyatı boyu Azərbaycanın və onun xalqının rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərməklə, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanmışdır. Məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə tarixin ən sərt və çətin sınaqlarından keçən xalqımız, əxz etdiyi milli dövlətçilik ənənələrini vahid sistem halına salaraq özünü təsdiq etmiş, müstəqil dövlətdə suveren yaşamağı və özünü idarə etmək haqqını qorumağı bacarmışdır.

Ümummilli liderin zəngin və çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən birinin də Azərbaycanın təhlükəsiz gələcəyinə təminat, müstəqilliyinə zəmanət



verən ordu quruculuğunun təşkil etdiyini vurğulayan Xanlar Vəliyev bildirdi ki, 14 iyul 1969-cu il tarixdə Azərbaycanda siyasi hakimiyyətə gələn ulu öndər ölkəmizdə SSRİ müdafiə sənayesinin on bir böyük zavodunun tikilməsini, həmin zavodlarda o dövrün ən müasir texnologiyaları tətbiq olunmaqla keyfiyyətli hərbi sənaye məhsulların istehsalını, milli hərbi kadrların hazırlanmasını və bu sahədə digər zəruri tədbirlərin görülməsini təmin etməklə, müstəqillik əldə olunmasından illər öncə ilkin milli hərbi bazanın ən yüksək səviyyədə təşkilinə nail olmuşdur.

Xanlar Vəliyev qeyd etdi ki, müstəqilliyin ilk illərində ölkənin məruz qaldığı hərbi təcavüzün, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrinin, habelə ölkə daxilində siyasi çəkişmələrin mövcud olduğu, vətəndaş müharibəsinin reallığa çevrildiyi bir şəraitdə nicat axtaran xalqımızın yeganə ümidi olan ulu öndər Heydər Əliyev belə bir mürəkkəb vəziyyətdə, 1993-cü ildə xalqın israrlı çağırışı ilə respublika rəhbərliyinə qayıdaraq, dərin təfəkkürü, iti zəkası, polad kimi mətin iradəsi, müdrikliyə söykənən qeyri-adi cəsarəti və bənzərsiz qətiyyəti sayəsində millətimizi və dövlətimizi böyük bəlalardan xilas etməklə, Azərbaycanı keçmiş Sovetlər Birliyindən miras qalmış rejimdən çıxararaq, ölkəmizin güclü iqtisadiyyatı və Silahlı Qüvvələri olan demokratik, hüquqi və dünyəvi dövlətə çevrilməsinə müvəffəq oldu.

Azərbaycan xalqının ən parlaq şəxsiyyətlərinin fövqündə dayanan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən möhtərəm Prezident, cənab İlham Əliyevin müdrik siyasəti, mükəmməl rəhbərliyi, həmçinin gərgin əməyi və yorulmaz fəaliyyəti ilə respublikamızda aparılan islahatlar və əldə olunmuş böyük nailiyyətlərdən, ölkəmizin sürətlə və hərtərəfli inkişaf etməsindən, dövlətimizin daha da qüdrətlənməsindən bəhs edən Xanlar Vəliyev bildirdi ki, Azərbaycan qeyd olunan dövrdə misli görünməmiş uğurlar əldə etmiş, ölkənin müasirləşməsi sahəsində möhtəşəm layihələr icra olunmuş, paytaxt Bakı şəhəri ilə yanaşı, regionlar da sürətli inkişaf etdirilmiş, insanların yaşayış və əmək şəraiti əsaslı yaxşılaşdırılmışdır. Hərbi prokuror həmçinin qeyd etdi ki, ölkədə insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, dünya tarixi-mədəni irsinin inkişafına və tolerantlığa xüsusi önəm verilməsi, beynəlxalq hüquqa və dünyada mövcud olan siyasi dəyərlərə sədaqət Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla, dünya dövlətləri sırasında mövqeyini də gücləndirmişdir. Ulu öndər Heydər Əliyevin mükəmməl ordu quruculuğu strategiyasının müdrik lider cənab İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilməsi nəticəsində maddi-texniki bazası möhkəmləndirilmiş, arsenalı ən müasir silah və digər hərbi texnika ilə zənginləşdirilmiş, şəxsi heyəti dərin

nəzəri biliklərə və peşəkar vərdişlərə malik hərbçilərdən komplektləşdirilmiş, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələrinin formalaşdırıldığını vurğulayan Hərbi prokuror, 2003-cü ildən bu günə qədər hərbi xərclərimizin 15 dəfə artmasından, cənab Prezidentin təşəbbüsü ilə 20-dən çox hərbi zavodun yaradılmasından, bu zavodlarda istehsal olunan 1200 adda hərbi təyinatlı müxtəlif məhsulların hesabına ordumuzun potensialının gücləndirilməsindən, eyni zamanda hərbi məhsullarımızın digər ölkələrə ixrac olunmasından, bununla bərabər, xarici ölkələrdən ən müasir hərbi texnika və silahlar alınmaqla Silahlı Qüvvələrimizin maddi-texniki bazasının daha da gücləndirilməsindən geniş söz açdı. Ardınca Hərbi prokuror Silahlı Qüvvələrimizin qüdrətini və nəyə qadir olduğunu sübut edən 2016-cı ilin “aprel” və 2018-ci ilin “may” döyüşlərindən, həmçinin yüksək səviyyədə keçirilən möhtəşəm paradlardan bəhs etdi. “Global Firepower” təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı yeni hesabatda Gürcüstan 85-ci, Ermənistan 96-cı sırada qərarlaşdığı halda, ordumuzun 52-ci yeri tutmasını, bununla da, Azərbaycan Ordusunun Cənubi Qafqazın ən güclü ordusu olduğunun bir daha öz təsdiqini tapmasını və bunun təsadüf olmadığını xüsusi vurğulayan Xanlar Vəliyev, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrdə aparılmış köklü islahatlar və görülmüş zəruri tədbirlər sayəsində hazırda Silahlı Qüvvələrimizdə mövcud olan ciddi nizam intizamdan, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmlənməsindən, şəxsi heyətin peşəkar hazırlığından, yüksək döyüş ruhundan, eləcə də Hərbi Prokurorluğun səmərəli fəaliyyətindən nəticədə Silahlı qüvvəllərdə baş verən cinayətlərin, o cümlədən hərbi xidmət əleyhinə olan cinayətlərin sayının əhəmiyyətli dərəcədə azalmasından danışmaqla, nitqinin davamında bildirdi ki, ötən ildə Azərbaycan Respublikası Hərbi Prokurorluğu üzrə qeydə alınmış müxtəlif qəbildən olan cinayətlərin digər fərqli illərlə müqayisəli təhlili aparılarkən məlum olmuşdur ki, hərbi xidmət əleyhinə olan cinayətlər 1998-ci illə müqayisədə 7 dəfə, hərbi xidmətdən yayınma cinayətləri 1998-ci illə müqayisədə 33 dəfə, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri 1998-ci illə müqayisədə 29 dəfə, fərarilik cinayətləri 1998-ci illə müqayisədə 371 dəfə, müharibə vaxtı və ya döyüş şəraitində hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri 1998-ci illə müqayisədə 1000 dəfə; tabeçilik qaydaları əleyhinə olan cinayətlər 2007-ci illə müqayisədə 2 dəfə; hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə cinayətləri 2007-ci illə müqayisədə 2 dəfə; tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətləri 2013-cü illə müqayisədə 41,7%; hakimiyyətdən sui-istifadə etmə 1998-ci illə müqayisədə 36,0 %; qulluğa səhlənkar yanaşma cinayətləri 1998-ci illə müqayisədə 51,4 %; qeyri hərbi cinayətlər 1998-ci illə müqayisədə 10,2%, 1998-ci illə müqayisədə qəsdən adam öldürmə cinayətləri 5 dəfə və özünü öldürmə həddinə çatdırma cinayətləri isə 2 dəfə azalmışdır.

Ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlar barədə nitqini davam etdirən Xanlar Vəliyev, bu uğurların qazanılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətlərini xüsusi vurğulayaraq, Mehriban xanımın görkəmli dövlət xadimi kimi uzun illər ərzində ölkəmizin hərtərəfli və sürətli inkişafı, dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqımızın rifahının yaxşılaşdırılması, dövlətimizin, xalqımızın, mədəniyyətimizin və milli dəyərlərimizin bütün dünyaya tanıdılması istiqamətində zəngin və dəyərli fəaliyyəti barədə geniş çıxış etdi.

Daha sonra, millət vəkilləri Musa Quliyev, İlham Məmmədov, professorlar Cəlil Xəlilov və Bəhrəm Zahidov böyük şəxsiyyət Heydər Əliyevin zəngin və mənalı həyatından, ali idarəçilik təcrübəsindən, çoxşaxəli fəaliyyətindən, onun uzaqgörən və müdrik siyasətinin layiqli davamçısı möhtərəm Prezident, cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən bəhs edərək, geniş nitqlər söylədilər.

Sonda Xanlar Vəliyev, 11 aprel 2018-ci il tarixdə Azərbaycan xalqının növbəti dəfə düzgün seçim etdiyini, bu müdrik seçimin ümummilli liderə və möhtərəm Prezident, cənab İlham Əliyevə xalqda yaranmış sonsuz inam və sevgidən irəli gələn zərurətdən doğduğunu xüsusi vurğulayaraq bildirdi ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən ulu öndər siyasətinin möhtərəm Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, o cümlədən dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə qanunçuluğun, hüquq qaydasının və hərbi intizamın daha da möhkəmləndirilməsində, qanunun aliliyinin təmin edilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə Azərbaycanın firavan gələcəyinin təminatı olan bu siyasəti daim dəstəkləyəcəkdir.

**Hərbi Prokurorluq**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 96 illik yubileyinə həsr olunan tədbir keçirilib



Mayın 8-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 96 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev məruzə ilə çıxış edərək qeyd etdi ki, 10 may günü Azərbaycan xalqının taleyində və tarixində hər zaman fəxrlə yad edilən bir gündür. Ona görə ki, xalqımızın ümummilli lideri, böyük dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyev 1923-cü ilin bu günündə dünyaya gəlmişdir. Azərbaycan tarixinin ən böyük şəxsiyyəti kimi şərəfli ömür yolunu xalqının nicatına həsr edən ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaratmaqla xalqımızı həqiqi müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq hüququ qazanmışdır. Dərin zəkası, liderlik qabiliyyəti, milli ideallara sıx bağlılığı, məharətli idarəçilik qabiliyyəti, zəngin mənaviyyatı ilə hər zaman xalqının sevimli şəxsiyyəti olmuş ulu öndər bu zirvəyə siyasi hakimiyyətə gəldiyi ilk gündən qanunsuzluğa, ədalətsizliyə qarşı apardığı prinsipial mübarizə ilə yüksələ bilmişdir.

Qeyd olundu ki, dahi insanlar zamanın fövqünə yüksələrək öz dövrlərini yaradırlar. Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan üçün belə bir şəxsiyyətdir. Siyasi tariximizin 35 ilə yaxın bir dövrü onun adı ilə bağlıdır. Buna görədir ki, ulu öndərimizin adı milli dövlətçiliyimizin simvolu kimi səslənir. Qüdrətli şəxsiyyət Heydər Əliyevin mənalı həyat yolu və fəaliyyəti tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəcilik məktəbidir. Ulu öndər Azərbaycan xalqının və dovlətinin milli maraqlarını hər şeydən uca tutan, onu ümummilli məqsədlər naminə səfərbər etməyi bacaran lider, dahi rəhbər idi. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilərək Azərbaycan müstəqilliyə qovuşmuşdur. “Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır”, – deyən xalqımızın böyük oğlu Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını, milli dövlətçiliyin konsepsiyasını yaratmışdır. Öz şərəfli və möhtəşəm fəaliyyəti ilə doğma Vətəninin və xalqının adını əlçatmaz zirvələrə ucaldan ulu öndər Heydər Əliyev daim böyük qürur hissi ilə deyirdi: “Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam”.

1969-cu ildə ölkəmizə rəhbər seçilən ulu öndər

Heydər Əliyev o dövrdə Azərbaycanda mövcud olan problemləri müəyyən edərək onların tezliklə aradan qaldırılması yollarını araşdırmış, qısa bir zamanda mühüm qərarlar vermiş və əməli tədbirlər həyata keçirmişdir. O zaman Azərbaycan daha çox aqrar ölkə kimi tanınırdı. Qısa müddətdən sonra Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə yanaşı, respublikamızda sənayenin inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. Azərbaycanda çoxlu yeni zavod və fabriklər açılmış, respublikamızın iqtisadi qüdrəti yüksəlmişdir. 1969-1982-ci illər Azərbaycan tarixinə yüksəliş, tərəqqi və inkişaf dövrü kimi daxil olmuşdur. Həmin dövrün ən böyük uğurlarından biri də milli şüurun oyanışı istiqamətində həyata keçirilən tədbirlərdir. Çünki bunsuz sosial-iqtisadi inkişafa nail olmaq, müstəqilliyə zəmin hazırlamaq mümkün deyildi. Keçmiş sovetlər məkanında, sovet ideologiyasının kifayət qədər güclü olduğu bir dövrdə Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, xalqın milli düşüncə tərzinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirləri yalnız və yalnız ulu öndər Heydər Əliyev kimi Vətəninə, xalqına bağlı cəsarətli bir dövlət xadimi, böyük iradə sahibi olan siyasi lider reallaşdıra bilərdi. Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirdiyi tədbirlər gələcək müstəqillik dövrünə hazırlıq xarakteri daşıyırdı və bütün bunlar həyata keçirilməsəydi, ölkəmiz müstəqil dövlətçilik şəraitində özünü qoruyub-saxlaya və inkişaf edə bilməzdi.

Qeyd olundu ki, Azərbaycanın xilası da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu böyük şəxsiyyət hər zaman Azərbaycançılıq uğrunda xidmətlərini davam etdirmiş, həyatını təhlükə qarşısında qoyaraq 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə o zamankı sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını kəskin ittiham etmişdi. Bu bəyanatdan sonra ümummilli liderimizin Moskvada yaşaması mümkün olmadı. Ulu öndər 1990-cı il iyulun 20-də Bakıya gəldi. İyul ayının 22-də isə doğma Naxçıvana qayıtdı. Və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etdi. Ulu öndərimizin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyası ilə zəngindir. Bu missiyanın öz başlanğıcını götürdüyü yer isə Azərbaycanın qədim diyarı Naxçıvandır. Xalqımızın böyük oğlunun 1990-cı il iyul ayının 22-də Moskvadan Naxçıvana qayıdışı Azərbaycanın qurtuluş tarixinin parlaq səhifəsini təşkil etmişdir. Bu böyük şəxsiyyətin Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsi və milli dövlətçiliyin bərpası istiqamətin də qəti addımların atılması ilə nəticələndi.

Vurğulandı ki, bu gün Azərbaycanda əldə olunan nailiyyətlərin bir səbəbi var-o da təməli 1969-cu ildə qoyulan inkişafın Heydər Əliyev modeli, Heydər Əliyevin quruculuq xəttidir. "Azərbaycan dünyaya Günəş kimi doğacaq", – deyən ulu öndər Heydər Əliyevin ideyaları Azərbaycanı lider dövlətə çevirərək xalqımızı daha işıqlı sabahlara doğru aparmaqdadır. Bu gün Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, ulu öndərimizin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası onun layiqli varisi-Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğur və inamla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinmə izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır".

Əsl siyasi liderlər öz cəsarəti, prinsipial qərarları, ən çətin şəraitdə çıxış yolu tapmaq məharəti ilə seçilən fitri istedada malik insanlardır. Heydər Əliyev liderliyinin, Heydər Əliyev öndərliyinin fərqləndirici xüsusiyyəti isə yuxarıda sadaladığımız hər üç cəhəti təkcə öz xarakterində əks etdirməsi deyil, onları şah əsəri olan müstəqil Azərbaycan dövlətinin bugünkü reallıqlarına çevirməsidir.

Qeyd olundu ki, Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə ulu öndər Heydər Əliyevin insan hüquq və azadlıqlarının hərtərəfli müdafiəsi, hümanizm və ədalət prinsiplərinin möhkəmləndirilməsi dövlətçilik siyasətinin əsas mahiyyəti təşkil etmişdir. Bu sahədə ulu öndərimizin atdığı ən mühüm addımlardan biri Şərq aləmində ilk dəfə olaraq məhz Azərbaycan Respublikasında ölüm cəzasının tətbiq olunmasının ləğv edilməsidir. Ölkəmiz dövlət müstəqilliyini bərpa edib onu möhkəmləndirdikdən sonra prokurorluq orqanlarının fəaliyyətini tənzimləyən və onun dövlət orqanları sistemindəki yerini müəyyənləşdirən normativ hüquqi bazanın yaradılması da məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ o dövrlərdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədinə çevrilməsi, yeni iqtisadi münasibətlərə keçid milli prokurorluğun da status və funksiyalarına yenidən baxılmasını zəruri etmişdi. Mühüm dövlət təsisatı kimi Prokurorluq orqanlarının sivil və demokratik məzmunlu bir qurum kimi formalaşması yalnız ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının memarı dahi rəhbər Heydər Əliyevin böyük dövlətçilik siyasəti, gündəlik qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Azərbaycanın bu günkü və gələcək nəsillərinin ulu öndər Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahi naminə fədakarlıqla çalışmaq və milli birliyimizə sədaqətlə xidmət göstərməkdir.

Sonda əminliklə ifadə edildi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin etimad və qayğısı nəticəsində demokratik məzmunda tamamilə yenidən formalaşmış Azərbaycan Prokurorluğunun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, onun əbədiliyi və daimiliyi üçün bütün təminatlar yaratdığı dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitlik və əmin-amanlığın hər cür cinayətkar qəsdlərdən qorunmasınada bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində həmişə yaxından iştirak edəcəkdir.

Tədbirdə çıxış edənlər ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gürdüyü möhtəşəm işlərdən danışdılar.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Bakı şəhər prokurorluğunda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib



Mayın 10-da Bakı Şəhər Prokurorluğunda xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş mərasim keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin şəhər prokurorluğunun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə çıxış edən Bakı şəhər prokuroru İlqar Abbasov diqqətə çatdırmışdır ki, görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan Milli dövlətçiliyini bütün təhlükələrdən xilas edib qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət kimi Heydər Əliyevin həyat və fəaliyyəti müasir tariximizin ən mühüm və şərəfli mərhələsini təşkil edir. Təsadüfi deyildir ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər tariximizin qızıl dövrü kimi yaddaşlara həkk olunmuşdur.

Heydər Əliyev nadir tarixi şəxsiyyətlərdəndir ki, Azərbaycanı böyük bir fəlakətdən xilas etmiş, sonra isə dövrün tələblərinə yüksək dərəcədə cavab verən müstəqil demokratik dövlət quruculuğu konsepsiyasını işləyib hazırlamaqla Azərbaycanın dünyada layiqli yerini tutması üçün uzun illər çalışmış, bununla da müstəqil Azərbaycanın memarı və qurucusu kimi tarixdə öz əbədi yerini tutmuşdur.

Ümummilli liderin rəhbərliyi ilə 1998-ci il 28 noyabr tarixdə prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr edilmiş təntənəli yığıncaqdakı tarixi nitqində verdiyi tapşırıq və tövsiyələr prokurorluq orqanlarını fəaliyyəti üçün proqram əhəmiyyətinə malik olmuşdur.



Diqqətə çatdırılmışdır ki, hər bir prokurorluq əməkdaşında qürur hissi doğuran haldır ki, Heydər Əliyev siyasi kursunu və strateji inkişaf konsepsiyasını uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən prokurorluğun fəaliyyəti dünya standartları səviyyəsində təkmilləşdirilir, prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqət göstərilir.

Ulu öndər Heydər Əliyevin memarı olduğu müasir Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir, dövlətçiliyimiz gündən günə daha da möhkəmlənir. Xalqımızın 2018-ci ilin aprelin 11-dəki müdrik seçimi isə bir daha Heydər Əliyev siyasi kursunun Azərbaycanın yeganə nicat yeri olduğunu göstərmiş və milli inkişafda mühüm rol oynadığını növbəti dəfə təsdiqləmişdir. Ölkəmizdə hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə əsası ulu öndər tərəfindən qoyulmuş qanunvericilik və hüquqi islahatlar daha da genişləndirilməkdədir. Bunun bariz nümunəsi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanın imzalanmasıdır.

Bakı şəhər prokuroru İlqar Abbasov şəhər prokurorluğunun kollektivinin böyük xilaskarlıq və hərtərəfli quruculuq missiyalarını həyata keçirməklə Azərbaycanın ən yeni müstəqil tarixini, bugünkü təminatlı həyatımızın möhkəm əsaslarını yaradan ulu öndər Heydər Əliyevin dövlətçilik ideyalarına daim sadiq qalacağını, dövlət müstəqilliyimizin, milli maraqlarımızın, ictimai-siyasi sabitliyin qorunması işində səylərini daha da artıracağını, böyük əzmlə çalışacağını vurğulamışdır.

Mərasimin sonunda ümummilli liderin xatirəsinə həsr olunmuş “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış “Vətənə, Xalqa Həsr Edilən Ömür” filmi nümayiş etdirilmişdir.

**Bakı şəhər prokurorluğu**

# Baş prokuror Zakir Qaralov Türkiyənin Baş Ombudsmanı ilə görüşüb



İyunun 19-da Baş prokuror Zakir Qaralov Ombudsmanların XVI Bakı Beynəlxalq Konfransı çərçivəsində paytaxtda səfərdə olan Türkiyənin Baş ombudsmanı Şeref Malkoçla görüşmüşdür.

Qonağı səmimi salamlayan Baş prokuror tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirərək, bu əlaqələrin hər iki qardaş ölkənin dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ədoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən düşünülmüş və məqsədyönlü siyasətin ardıcıl həyata keçirilməsi nəticəsində 2019-cu ilin birinci rübündə imzalanmış Fərman və Sərəncamların əməli icrası ilə minimum əməkhaqları və pensiyaların əhəmiyyətli dərəcədə artırılması, həmin sosial paketin mərhələli şəkildə bütün əhali qrupları daxil olmaqla ümumilikdə 3 milyona yaxın insanı əhatə etməsi barədə ətraflı məlumat verən Baş prokuror, ölkəmizdə əmin-amanlıq və sabitlik mühitinin hökm sürdüyünü, vətəndaşların hüquqlarının etibarlı şəkildə qorunduğunu bildirmişdir.

Cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən korrupsiyaya qarşı mübarizə istiqamətində görülən işlər, ölkə əhalisi, eyni zamanda beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilən və dünyada artıq Azərbaycan brendi kimi tanınan “ASAN Xidmət” Mərkəzlərinin, həmçinin həyata keçirilən sosial siyasətin ifadəsi olmaqla əmək münasibətləri, məşğulluq, sosial müdafiə və təminat sahələri üzrə xidmətlərin tam şəffaf, vətəndaşlarla açıq iş şəraitində, sadə və əlçatan prosedurlarla təqdim edilməsinə imkan yaratmış Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) əhəmiyyəti qonaqların diqqətinə çatdırılmışdır.

Səmimi qəbula görə təşəkkürünü bildirən Türkiyənin Baş ombudsmanı Azərbaycanda görülən işləri, aparılan məhkəmə-hüquq islahatlarını yüksək qiymətləndirmiş, ölkəmizdə müasir dünyanın çağırışlarına cavab vermək iqtidarında olan və ən yüksək tələblərə cavab verən hüquq mühafizə sisteminin formalaşmasından məmnunluq ifadə etmişdir.

Şeref Malkoç hər iki ölkənin müvafiq strukturları arasında əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəyini, əməkdaşlıq və işbirliyimizin xalqlarımız və ölkələrimizin mənafelərinə xidmət edəcəyini vurğulamışdır.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluq**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

**Ə.N.Nağıyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**Əli Nağı oğlu Nağıyev** Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 iyun 2019-cu il.

# Ə.N.Nağıyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilməsi ilə bağlı Baş Prokurorluqda toplantı keçirilib




"Ə.N.Nağıyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 iyun 2019-cu il tarixli Sərəncamı ilə əlaqədar iyunun 21-də Baş Prokurorluqda toplantı keçirilib.

Tədbiri giriş sözü ilə açan Baş prokuror Zakir Qaralov Sərəncamın mətnini elan edib, onu ölkə başçısının prokurorluğa olan etimadının təcəssümü kimi qiymətləndirib, qısaca olaraq Əli Nağıyevin təhlükəsizlik xidməti və prokurorluq orqanlarında keçdiyi şərəfli yolu, çalışdığı bütün vəzifələrdə dövlətçilik ideallarına sadiqliyi, dövlət maraqlarının müdafiəsində nümayiş etdirdiyi prinsipial mövqeyi, yüksək təşkilatçılığı və peşəkarlığı, nüfuzlu kollektiv rəhbəri olması barədə





məlumat verib. Baş prokuror Əli Nağıyevin Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində əməliyyat işini yüksək səviyyədə təşkil etdiyini, bu xidmətə peşəkar kadrların cəlb olunması və onun ən müasir avadanlıqlarla təchiz olunması işinə rəhbərlik etdiyini, məhz bu hesaba Baş İdarə tərəfindən çoxsaylı uğurlu əməliyyatlar keçirildiyini, buna görə dövlət mükafatlarına layiq görüldüyünü vurğulayıb, əməliyyat-axtarış işinin bundan sonra da lazımi səviyyədə qalacağına ümid bəslədiyini qeyd edib.

Yeni iş yerində Əli Nağıyevə böyük uğurlar arzulayan Zakir Qaralov milli dövlətçiliyimizin maraqlarının qorunması, cinayətkarlığa qarşı səmərəli mübarizə, ədalətin, qanunçuluğun və hüquq qaydasının təmin edilməsi naminə Dövlət Təhlükəsizlik Xidməti ilə prokurorluq orqanlarının münasibətlərinin daha da inkişaf edəcəyinə əmin olduğunu xüsusi vurğulayıb.

Baş prokurorun birinci müavini Rüstəm Usubov, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev deyilən sözlərə qatılaraq Əli Nağıyev ilə birgə fəaliyyətlərindən, onun yüksək insani keyfiyyətlərindən, peşəkarlığından danışıb ona nailiyyətlər diləyiblər.

Əli Nağıyev göstərilən böyük etimada görə cənab Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib, bu etimadı doğrultmaq üçün səylərini əsirgəməyəcəyini vurğulayıb. Daha sonra o, prokurorluqda çətin və məsuliyyətli dövrdə çalışdığını, bu təcrübənin onun üçün dəyərli olduğunu, yeni təyinatla prokurorluqdan







vidalaşmadığını, Dövlət Təhlükəsizliyi Xidmətinin prokurorluqla münasibətlərinin naminə daha sıx qurulacağı üçün çalışacağını qeyd edib.

Tədbir Əli Nağıyevin "Fəxri Fəman"la təltif edilməsi ilə başa çatıb.

**Baş Prokurorluq**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılmaqla vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

## Baş prokuror Zakir Qaralov Ucar rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov aprelin 19-da Ucar rayon prokurorluğunun inzibati binasında Ucar, Ağdaş və Zərdab rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Ucar rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 25 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

## Baş prokuror Zakir Qaralov Gəncə şəhərində vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov mayın 24-də Gəncə şəhər prokurorluğunun inzibati binasında Gəncə şəhər, Samux və Göygöl rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Gəncə şəhər İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 44 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

## Baş prokuror Zakir Qaralov Astara rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov iyunun 28-də Astara rayon prokurorluğunun inzibati binasında Astara, Lerik və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Astara rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 19 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

***

Qəbullarda vətəndaşların müraciətlərinin bir qismi yerində həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

**Baş Prokurorluq**

# Müstəqil və müasir Azərbaycanın memarı

*"...Xalqın, Vətənin taleyi hər bir ¬insanın taleyinə çevrilməlidir...".*
***Heydər Əliyev***
***ümummilli lider***

*"...Mənim bir amalım var, güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək...".*
***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti,***
***Silahlı Qüvvələrin Ali Baş Komandanı***

**Milli-mənəvi dəyərlərin bərpası və azərbaycançılıq ideologiyasının formalaşdırılması**

Millət, Vətən və dövlət qarşısındakı misilsiz xidmətləri ilə adını tarixə qızıl hərflərlə yazdırmağı bacaran dahi şəxsiyyət – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz və unudulmaz xatirəsi hər zaman qədirbilən millətimiz tərəfindən böyük ehtiramla yad edilir, bu böyük insanın doğum günü hər il olduğu kimi, bu il də həm ölkəmizdə, həm də dünyanın müxtəlif ölkələrində xüsusi təntənə ilə qeyd olunur. Azərbaycançılıq məfkurəsinin və milli özünüdərk prosesinin banisi, ölkəmizin siyasi və iqtisadi sisteminin qurucusu, müstəqil Azərbaycan dövlətinin müəllifi və memarı olan ulu öndər Heydər Əliyev millətimiz və dövlətimiz üçün elə nəhəng işlər görmüşdür ki, bu barədə nə qədər danışılsa da onun titanik fəaliyyətini tam əhatə etmək mümkünsüzdür. Bununla belə, hər bir sağlam düşüncəli və qədirbilən azərbaycanlının borcudur ki, dünya şöhrətli siyasətçi haqqında fikirlərini digərləri ilə bölüşərək, gələcək nəsillərin də bu böyük insanın zəngin və çoxşaxəli fəaliyyəti barədə məlumatlandırılmasını təmin etsin. Tarixə nəzər saldıqda aydın görünür ki, istənilən xalqın müəyyən əlverişli situasiyada milli-etnik soykökünə qayıdışı, tarix boyu əxz etdiyi milli-mənəvi dəyərlər və təfəkkür tərzi sisteminə söykənən özünəməxsusluğunu bərpa və bəyan etməsi əsasən lider fenomeninin fövqəladə missiyası ilə şərtlənir. Hər bir xalqın vahid məqsədlər uğrunda birləşməsi üçün zəruri olan milli ideologiya da böyük siyasi liderlərin dövlətçilik konsepsiyasında reallaşır. Azərbaycan xalqı ilə bağlı bu şərəfli missiyanı məhz ümummilli lider Heydər Əliyev həyata keçirmişdir.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə tarixi ənənə və soykökünün təməl prinsipləri üzərində milli ideologiyanın formalaşması və tərəqqisi naminə müstəsna xidmətlər göstərmiş, milli şüurun düzgün məcrada inkişafına nail olmuş, xalqa məxsus adət-ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmış, azərbaycançılığı milli ideologiyaya çevirməklə, millətin həmrəyliyinə və mənəvi bütövlüyünə nail olmuşdur. Bu isə millətin bir xalq kimi formalaşması prosesində, təkamülündə və monolitliyində aparıcı amil olmaqla yanaşı, həm də müdrik rəhbərə xalqı öz ətrafında birləşdirməyə, bununla da, milli birliyin yaranmasına zəmin yaratmışdır. İohan Volfqanq Höte demişdir: "Faydasız həyat vaxtsız ölümə bərabərdir." Ümummilli lider, nəhəng siyasətçi, dahi şəxsiyyət Heydər Əliyev öz ömrünü xalqına və vətəninə fəda etməklə həyatını ölümsüzləşdirmişdir.

1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi və digər maneələrə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün mümkün tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, tərəddüdü aradan qaldırmağa, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişə ruhlandırmağa müvəffəq olmuş və azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya maşınında boğulmasının qarşısını qətiyyətlə almışdır. Ulu öndər xalqın şanlı keçmişini, soykökünü qaytarmaq, habelə zəngin mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, eləcə də ana dilini inkişaf etdirmək üçün ölçüyəsığmaz işlər görmüşdür. Bu sahədə kütləvi informasiya vasitələrinin əhəmiyyətini nəzərə alan müdrik lider Heydər Əliyev Azərbaycan KP MK-nın 20 mart 1970-ci il tarixli plenumundakı çıxışında onların fəaliyyətindən narazılığını ifadə etmiş, bundan sonra mətbuatda, televiziya və radioda xalqın milli-mənəvi dəyərlərini, adət-ənənələrini, tarixini, ədəbiyyatını, mədəniyyətini, incəsənətini, folklorunu təbliğ edən materiallar əhəmiyyətli dərəcədə çoxalmış, milli irsi təcəssüm etdirən verilişlər ərsəyə gətirilmiş, ana dilinin təbliği istiqamətində konkret addımlar atılmışdır.

Ümummilli lider hələ ötən əsrin 70-ci illərində Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin, o

cümlədən ədiblərinin və şairlərinin xatirəsini əbədiləşdirməklə, onların əsərlərinin nəşrini təmin etməklə milli ədəbi düşüncənin inkişafına təkan vermiş, azərbaycanlıların necə zəngin tarixə, qədim soykökünə malik olduğunu dünyaya bəyan etdirmişdir. Əzmkar lider Nizami Gəncəvinin və İmadəddin Nəsiminin yubileylərinin dünya miqyasında qeyd olunması ilə bağlı partiya qərarlarının verilməsinə belə nail olmuşdur.

Azərbaycan dilini azərbaycançılığın başlanğıc məqamı, ən mühüm cəhəti, təməl prinsipi hesab edən ümummilli lider Heydər Əliyev kosmopolit ideyaların hökm sürdüyü bir dövrdə milli məfkurənin qorunub saxlanılması, ana dilinin inkişaf etdirilməsi sahəsində də bir sıra mühüm işlər görmüşdür. Müdrik lider yəqin bilirdi ki, xalqa milli-mənəvi dəyərləri aşılamaq üçün ona ilk növbədə öz dilini qaytarmaq və sevdirmək lazımdır. Özündən əvvəlki partiya rəhbərlərindən fərqli olaraq rəsmi çıxışlarında rus dilində deyil, əksər hallarda Azərbaycan dilində nitq söyləyən ulu öndər, bütün rəhbər vəzifəlilərdən də bunu tələb edirdi. Onun rəsmi partiya tədbirlərində ana dilində nitqləri mükəmməl milli-siyasi-ədəbi dil üslubunu yaratmaqla bərabər, böyük tarixi məna kəsb edirdi. Fədakar insanın ilk dəfə hakimiyyətə gəlişi ilə başlanan milliləşmə prosesi, demək olar ki, bu nitqlərin təsiri ilə başlamışdır. Dahi liderin yazıçılar, şairlər və sənət adamları ilə görüşəndə də yeni bir elmi-ədəbi üslubda danışması, onun zəngin ana dilinin söz imkanlarının hamısına, bütün çalarlarına zərgər dəqiqiliyi ilə bələd olduğunun göstəricisi idi. Ümummilli liderin səlis nitqi ədibləri, şairləri, hətta ədəbiyyatçı alimləri belə heyran qoyurdu. O dövrdə yaşayan şairlərdən biri Heydər Əliyevə xitabən "Yoldaş Əliyev, Siz Azərbaycan dilində çox gözəl danışırsınız" – deyəndə, müdrik rəhbər ona belə cavab vermişdi: "Sən niyə mənim rus dilində səlis danışmağıma deyil, Azərbaycan dilində gözəl danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, bu dili bilmək mənim, eləcə də hər bir azərbaycanlının müqəddəs borcudur!". 1978-ci ildə Azərbaycan SSR-nin Konstitusiya layihəsi qəbul edilərkən, müxtəlif ciddi maneələrə baxmayaraq, Azərbaycan dilinin bu ali hüquqi aktda dövlət dili kimi təsbit olunması ulu öndərin qətiyyətli mübarizəsinin nəticəsi idi. Bundan sonra, hüquqi əsas yarandığı üçün ana dilini inkişaf etdirmək, bu dildə elmi və bədii yaradıcılığı genişləndirmək, televiziya, mətbuat, radio, kino, teatr quruculuğunda milli dilin tətbiqini genişləndirmək daha asan oldu.

Millətin birliyində, həmrəyliyində mühüm rola malik, müqəddəs dəyərlərin qorunmasında müstəsna əhəmiyyəti olan İslam dininə hər zaman xüsusi ehtiramla yanaşan Heydər Əliyev, onun siyasi alətə çevrilməsinə, insanların saf inanclarının cəmiyyətdə gedən proseslərin təsiri ilə adiləşib dəyərini itirməsinə heç zaman imkan verməmişdir. Qeyd olunmalıdır ki, ulu öndər ölkədə İslam dininin mütərəqqi dəyərlərinin təşviqinə, formalaşmasına və inkişafına xüsusi diqqət yetirməklə yanaşı, başqa dinlərin də təşəkkül tapmasına tolerant mühitin yaradılmasını təmin etmiş, dini konfessiyalar arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin yaranmasına müyəssər ola bilmişdir.

Xalqın milli-mənəvi dəyərlər sisteminin önəmli əhəmiyyət kəsb etdiyini və dövlətdəki xüsusi rolunu hər zaman vurğulayan böyük şəxsiyyət cəmiyyətin özəyi olan ailəni, milli genofondun saflığının qorunmasının əsas vasitələrindən biri kimi qiymətləndirirdi. Bunun nəticəsidir ki, bu gün Azərbaycanda yeni qurulan minlərlə ailənin örnək kimi istinad etdiyi ulu öndər Heydər Əliyevin möhkəm mənəvi təməl və saf niyyətlər, ülvi hisslər üzərində yaratdığı ailə modeli hər bir azərbaycanlıda rəğbət hissi doğurur. Məhəbbəti uğrunda əzmlə mübarizə apararaq, sevdiyi şəxsə qovuşmaq, qəlbinə yaxın bir insanla ailə həyatı qurmaq üçün çalışdığı keçmiş Dövlət təhlükəsizlik orqanlarının rəhbərliyinin mövqeyinə qarşı çıxmaqdan, buna görə hətta tutduğu vəzifəni və gələcək karyerasını itirməkdən belə çəkinməyən cəsarətli şəxsiyyət öz haqlı inadından dönmədi və onun mərhum akademik Zərifə xanım ilə müqəddəs ittifaqa – nikaha girməsinə heç kim və heç nə mane ola bilmədi. Bununla da o, mənəviyyat tariximizdə gələcək nəsillərə örnək ola biləcək məhəbbət dastanı yarada bildi. Yeri gəlmişkən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsini, zəngin mənəvi dünyasını, oftalmologiya elminin inkişafındakı müstəsna xidmətlərini və çoxşaxəli fəaliyyətini xüsusi olaraq qeyd etməyə ehtiyac vardır. Belə ki, Zərifə xanımın tibbi, elmi və pedaqoji fəaliyyəti, saf və təvazökar insan kimi yaşadığı mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir ziyalı, həkim və müəllim üçün mənəviyyat məktəbi, kamillik nümunəsidir. Hər kəs üçün örnək sayılacaq şəxsi keyfiyyətləri, xeyirxah məqsədlərə köklənmiş nəcib xarakteri və sadəliyi Zərifə xanıma həm də ailəsinin sağlam təməl üzərində qurulmasına zəmin yaratmışdır. Göründüyü kimi, böyük şəxsiyyət Heydər Əliyev tariximizi, dilimizi, dinimizi, mədəniyyətimizi, incəsənətimizi, xalqımızın milli-mənəvi dəyərlərini, adət-ənənələrini sevərək öz varlığında yaşatmış, hər zaman onlara sadiq olmuş, davranışları və konkret əmælləri ilə bu müqəddəs dəyərləri toxunulmaz bir xəzinə kimi qoruyaraq, onların əbədiyaşarlığını təmin etmişdir. Bir sözlə, milli dövlətçilik konsepsiyasının konkret mənəvi dəyərlər sistemi əsasında vahid məqsədə yönəldilməsi, xalqın tarixi yaddaşının və mənəvi irsinin mühafizəsinə xidmət edən genişmiqyaslı fəaliyyətin həyata keçirilməsi, vətənpərvər ruhlu nəslin yetişdirilməsi Heydər Əliyevlə bağlı olmuşdur.

## Müstəqilliyə doğru gedən yol

1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə görülmüş səmərəli və mütərəqqi işlər nəticəsində Azərbaycan geridə qalmış kənd təsərrüfatı respublikasından müasir aqrar-sənaye respublikasına çevrilməklə, Sovet İttifaqında ön sıraya keçərək, özünü tam təmin edən, ümumittifaq büdcəsinə töhfələr verən iki ölkədən biri oldu. Ulu öndər Heydər Əliyev xalqda milli dövlətçilik təfəkkürünün formalaşması üçün hər bir vətəndaşın yüksək təhsil almasını, elmin yeni nailliyyətlərini əxz etməsini son dərəcə mühüm məsələ hesab etdiyi üçün, hakimiyyətə gəldiyi ilk günlərdən bu sahədə də bütün zəruri tədbirlərin görülməsini təmin etdi. Onun rəhbərliyi ilə respublikada milli maarifçilik hərəkatına start verildi, təhsilin inkişafı, eyni zamanda, milliləşdirilməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsinə başlanıldı.

Dahi strateqin ötən əsrin 70-80-ci illərində yüzlərlə azərbaycanlı gəncin respublikamızın hüdudlarından kənarda ali, həmçinin ali hərbi təhsil almasına, onların ixtisaslı kadr kimi yetişməsinə hər cür dəstək göstərməsi də onun müdrikliyinin, uzaqgörənliyinin, vətənpərvərliyinin və xeyirxahlığının əyani təcəssümü idi. Bütün sahələr üzrə peşəkar milli kadrlar hazırlamağı önəmli istiqamət hesab edən Heydər Əliyev ilk növbədə hakimiyyət strukturlarına əsasən sadə insanların içərisindən seçdiyi azərbaycanlıları yerləşdirməklə xalqın birləşməsi və respublikanın tərəqqi yoluna çıxarılması istiqamətində zəruri tədbirlərin görülməsini təmin edirdi.

Ümummilli liderin zəngin və çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən birini də Azərbaycanın təhlükəsiz gələcəyinə təminat, müstəqilliyinə zəmanət verən ordu quruculuğu təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkəmizdə bu sahədə yaranmış tənəzzül ulu öndərin birinci dəfə hakimiyyətə gəlişindən sonra aradan qaldırıldı. Azərbaycanda SSRİ müdafiə sənayesinin on bir böyük zavodunun tikilməsi, bu zavodlarda o dövrün ən müasir texnologiyalarının tətbiq olunması Azərbaycan Respublikasının müdafiə sənayesi sahəsində keyfiyyətli məhsullar istehsal etməsinin həcmini dəfələrlə artırırdı ki, bu da müstəqilliyə doğru gedən yolda vacib amillərdən idi. Bununla yanaşı, milli hərbi kadrların hazırlanması prosesi də vüsət aldı. Ordu quruculuğunda keyfiyyətli hərbi təhsilin formalaşdırılmasının və ixtisaslı gənc hərbi kadrların hazırlanmasının son dərəcə strateji əhəmiyyətli məsələ olduğunu hər zaman vurğulayan müdrik rəhbər, bu sahəni də daim diqqət mərkəzində saxlayırdı. Məhz ulu öndərin əzmi və cəsarəti sayəsində 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb fəaliyyətə başladı. Ölkədə milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayan adıçəkilən məktəbin açılması SSRİ rəhbərliyini ciddi şəkildə narahat etdiyindən, həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbin açılmasına lüzum olmadığını əsaslandırmağa çalışsalar da, ulu öndər müdrikliklə bu cəhdlərin qarşısını almağa müyəssər oldu. Sözügedən hərbi məktəbin fəaliyyətə başlaması Azərbaycanda hərb sahəsinə marağın daha da güclənməsinə böyük təkan verdi. Bütün bunların nəticəsi idi ki, müstəqilliyin ilk illərində dövlətimizin ordu quruculuğunda əsas bazanı o dövrdə hazırlanmış milli kadrlar təşkil edirdi.

Göründüyü kimi, ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqillik əldə etməsindən illər öncə milli hərbi kadr hazırlığı üçün zəruri bazanın ən yüksək səviyyədə təşkilini təmin etmişdir. Növbəti illərdə Silahlı Qüvvələrin Hərbi Akademiyasının, Təlim və Tədris Mərkəzinin, Ali Hərbi Məktəbin, Ali Hərbi Dənizçilik Məktəbinin, Ali Hərbi Təyyarəçilik Məktəbinin və sair nüfuzlu ali hərbi təhsil ocaqlarının müasir tələblərə uyğun təşkil edilməsi də məhz ulu öndərin bu sahəyə göstərdiyi diqqətin nəticəsi idi. Dahi lider Heydər Əliyevin müstəqil dövlətçilik strateji proqramının özünəməxsusluğu onunla səciyyələnirdi ki, burada nəzərdə tutulan tədbirlərin icrası bir sahənin deyil, bütün sahələrin çoxşaxəli inkişafını və milliləşdirilməsini təmin edirdi. Bütün bunlar isə, təbii ki, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaradırdı.

Əzmkar insanın böyük zəhmətlər hesabına ardıcıl olaraq yüksək zirvələri fəth etməsi, ali vəzifələr tutması, ali dövlət mükafatlarına layiq görülməsi, habelə bilavasitə onun sayəsində xalqımızın çoxsaylı elm, mədəniyyət, incəsənət xadimlərinə və digər ziyalılarına Sovetlər İttifaqının fəxri adlarının və mükafatlarının verilməsi millətimizi nə qədər qürurlandırırdısa, tarixi düşmənlərimiz olan erməniləri bir o qədər məyus edirdi. 1982-ci ildə ulu öndərimizin İttifaq dövlətinin ən yüksək postlarından birinə–SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi və Mərkəzi Komitənin Siyasi Bürosuna üzv seçilməsi ermənilər üçün növbəti sarsıdıcı zərbə oldu. Yeni vəzifənin də öhdəsindən yüksək peşəkarlıqla gələn dahi rəhbər Heydər Əliyevin şöhrəti artdıqca, ölkə rəhbərliyinin yüksək eşalonunda əyləşənlərin də ona qarşı qısqanclıq hissləri güclənirdi və bu ermənipərəst Qorbaçovun hakimiyyətə gəlişindən sonra özünü daha aydın büruzə verirdi. Münbit məqamdan istifadə edən ermənilər onun vəzifədən uzaqlaşdırılması planını işə salaraq, bu prosesə erməni lobbisini də cəlb etdi.

Vətənimizə və xalqımıza rifah bəxş edən Heydər Əliyev doğma Azərbaycanda xalq, vətən təəssübkeşli mütərəqqi insanların məhəbbətini, ehtiramını qazanmaqla bərabər, xəbis, cılız, paxıl, riyakar insanların iftiraları ilə üzləşdi. Beləliklə o, 1987-ci ilin oktyabrında vəzifədən istefa vermək qərarını qəbul etdi. Ulu öndərin rəhbərlikdən getməsindən istifadə edən erməni millətçiləri heç iki həftə keçməmiş Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək fikrini ortaya atdılar ki, bu da təsadüfi deyildi. Ardınca Xankəndidə və Ermənistanda fasiləsiz mitinqlər başlandı. Bir tərəfdən ölkədə yaranmış özbaşınalıq, anarxiya, xaos, hakimiyyət zəifliyi, xalq ilə iqtidar arasında olan inamsızlıq, digər tərəfdən isə Ermənistanın Azərbaycana qarşı əsassız iddiaları ölkəmiz üçün ciddi çətinliklər yaradırdı. Bütün bunlar isə "Qanlı Yanvar" qırğınına və xalqımızın soyqırımı ilə müşayiət olunan tarixi torpaqlarımızın işğal olunmasına yol açdı. Sözsüz ki, o dövrdə ümummilli lider hakimiyyətdə olsaydı bu hadisələrin heç biri baş verməzdi.

Hər kəsə məlumdur ki, həmin faciə baş verənə qədər Heydər Əliyevin yenidən fəal siyasətlə məşğul olmaq fikri yox idi. Ancaq baş verənlərə biganə qala bilməyən vətənpərvər lider sağlamlığını və hətta həyatını belə təhlükəyə ataraq, heç nədən və heç kəsdən çəkinmədən 1990-cı ilin sərt qış günlərində Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, respublikada "20 Yanvar" faciəsini törətmiş Sovet İttifaqı rəhbərliyini kəskin şəkildə ittiham edən son dərəcə cəsarətli və qətiyyətli bəyanatla çıxış etməklə, Azərbaycan xalqının yanında olduğunu bildirdi. Məntiqi olaraq bundan sonra ona qarşı təzyiqlər, təxribatlar kampaniyası vüsət aldı və hətta onu həbs etmək belə istəsələr də, o buna məhəl qoymadan Azərbaycana üz tutdu. Bakıda yaşamağına imkan verilmədiyini və doğulub boya-başa çatdığı Naxçıvanın təhlükədə olduğunu görən Heydər Əliyev ora gedir, Naxçıvanı və əhalisini qoruyur. Belə ki, həmin vaxt məkrli niyyətləri, həmçinin Naxçıvanın işğalına yönələn ermənilərin bu çirkin istəklərini ürəklərində qoyan Heydər Əliyev Naxçıvanı müdafiə edir və müstəqilliyin əldə edilməsi üçün həlledici addımlar atmağa başlayır. SSRİ-nin mövcud olduğu bir dövrdə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin ulu öndərin sədrliyi ilə keçirilən 17 noyabr 1990-cı il tarixli sessiyasında cümhuriyyət ideyalarına sədaqət nümayiş etdirilərək, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Ali Məclisində dövlət rəmzi elan olunur və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti əsasında Azərbaycan Respublikasının Ali Soveti 5 fevral 1991-ci ildə üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul olunması haqqında qərar qəbul edir. Bununla bərabər, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözləri çıxarılır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1992-ci ilin noyabrında siyasi platforması Azərbaycanın rifahından xəbər verən Yeni Azərbaycan Partiyası yaradılır. Müxalifət partiyası kimi yaradılmış Yeni Azərbaycan Partiyası düzgün fəaliyyəti, bilavasitə milli maraqlara və xalqa xidməti ilə qısa zamanda iqtidar partiyasına çevrilir. Hazırda bu partiya nəinki Azərbaycanda, həmçinin Cənubi Qafqazda ən böyük partiyadır.

**Qurtuluş, xalqın və dövlətin nicatı**

SSRİ-nin süqutu ilə əlaqədar yaranmış tarixi şəraiti düzgün qiymətləndirməklə, vəziyyətdən bəhrələnən xalqımız ötən əsrin sonlarında ikinci dəfə öz müstəqilliyinə qovuşsa da, AXC-Müsavat iqtidarı təmsilçilərinin ambisiyaları və səriştəsizlikləri çox qısa müddətdə müstəqilliyimizi uçurumun kənarına gətirib çıxartdı. Müstəqilliyimizin ilk illərində siyasi çəkişmələr ölkə həyatını iflic edir, müharibə aparan, işğala məruz qalan dövlətdə vahid komandanlığa tabe olan ordu olmadığından silahlı qüvvələr ayrı-ayrı şəxslərin əlində alətə çevrilir, iqtisadiyyat tənəzzülə uğrayır, respublikada vətəndaş həmrəyliyi pozulur, hətta ölkədə "qardaş qanı" axıdılır və vəziyyət ADR-in acı taleyinin təkrarlanması, ikinci dəfə qazanılan müstəqilliyin yenidən tarixə qovuşması təhlükəsi həddinə çatır. Belə bir çətin şəraitdə dövlətçilik ənənələrinə böyük önəm verən və nicatın onda olmasına əmin olan xalq, doğru seçim edərək özünün sınanmış rəhbərini – ümummilli lider Heydər Əliyevi israrlı tələblə müstəqil Azərbaycanın rəhbərliyinə dəvət edir.

Azərbaycanını və xalqını özündən çox sevən ulu öndər bütün təhlükələri gözaltına almaqla, heç birinə məhəl qoymadan xalqın çağırışını qəbul edərək, 9 iyun 1993-cü il tarixdə Naxçıvandan Bakıya gəlir və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilir. Bir müddət sonra Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayan dünya şöhrətli siyasətçi Heydər Əliyev, 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilir. Sağlam təfəkkürlü hər bir Azərbaycan vətəndaşı yaxşı dərk edir ki, ölkəmizin müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən həmin anda Heydər Əliyev hakimiyyətə gəlməsəydi, nəinki bugünkü qüdrətli Azərbaycan olmazdı, ümumiyyətlə, onun mövcudluğu şübhə altına düşə bilərdi. Ulu öndər Heydər Əliyev növbəti dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da köklü islahatlar həyata keçirildi. Silahlı Qüvvələrin beynəlxalq əlaqələrinin genişlən-

dirilməsini hər zaman diqqətində saxlayan Ali Baş Komandan Heydər Əliyev, onu müasirləşdirmək üçün sovet hərb sistemini dəyişib, NATO standartlarını tətbiq etməyin zəruriliyini, Şimali Atlantika Alyansının isə beynəlxalq münasibətlər sistemində yeri və rolunu nəzərə alaraq, ölkəmizin NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması barədə qətiyyətli qərar verdi və 4 may 1994-cü ildə Brüsseldə təşkilatın çərçivə sazişini imzaladı. Bununla da, görülən işlər qısa zamanda öz bəhrəsini verdi və Azərbaycanın qüdrətli ordusu formalaşmağa başladı. Azərbaycan Ordusunun gücləndiyini görən və onun tərəfindən aparılan uğurlu döyüş əməliyyatlarından təlaş içində olan düşmən 12 may 1994-cü il tarixdə atəşkəs haqqında müqaviləni imzalamaq məcburiyyətində qaldı. Bundan sonra, digər ölkələrin qanunvericiliyindən və təcrübəsindən bəhrələnilməklə, eləcə də hərb tariximizə əsaslanılmaqla mükəmməl hərbi qanunvericilik bazası yaradılması prosesi başladı, həyata keçirilən bir çox mühüm tədbirlər sayəsində çağırış və səfərbərlik işi xeyli təkmilləşdirildi, hərbi hissələrdə intizam möhkəmləndi və qanunun aliliyi prinsipi bərqərar oldu.

Dahi lider ölkəni böhran vəziyyətindən, müstəqilliyini itirmək təhlükəsindən xilas etmək üçün müdrik siyasəti ilə qısa müddət ərzində vətəndaş qarşıdurmasının və müharibənin dayandırılmasına nail olmaqla, Azərbaycanda sabitliyin bərpasını təmin edir ki, bu da böyük islahatların başlanmasına rəvac verir. İslahatların yüksək peşəkarlıqla aparılması sözsüz ki, Heydər Əliyev dühasının bəhrəsi idi. Məlum olduğu kimi, ulu öndərin ikinci dəfə respublikamıza rəhbərliyinin ilk illərində ölkəmiz vətəndaş müharibəsindən yenicə qurtulduğu, atəşkəs rejimini təzəcə əldə etdiyi üçün, həmin dövrdə investorları Azərbaycana sərmayə qoymaq üçün həvəsləndirmək, onların etimadını qazanmaq həddindən artıq çətin, demək olar ki, mümkünsüz bir məsələ idi. Bununla belə, peşəkar siyasətçi 1994-cü ilin sentyabr ayında ölkəmizin qüdrətlənməsində mühüm əhəmiyyəti olan, Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsi barədə "Əsrin müqaviləsi" kimi möhtəşəm bir müqavilənin bağlanılmasına nail oldu. Sözsüz ki, Azərbaycan neftinin dünya bazarlarına çıxmasında müstəsna rolu olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlinin qoyulması, Azərbaycanı dünyada böyük qaz potensialına malik olan bir dövlət kimi tanıdan "Şahdəniz" layihəsinin, türk dünyasının bir-birilə, o cümlədən bütün dünya ilə birləşdirilməsinə xidmət edən tarixi "İpək Yolu" layihəsinin reallaşması da bu dahi şəxsiyyətin müstəsna xidmətlərinin nəticəsi idi.

**Müharibəni silah, iradə və ruh yüksəkliyi hesabına udmaq olar**

Qürurverici haldır ki, ulu öndər Heydər Əliyevin mükəmməl strategiyasının möhtərəm Prezidentimiz tərəfindən yüksək məharətlə davam etdirilməsi nəticəsində ən müasir səviyyədə formalaşmış Azərbaycan Silahlı Qüvvələri bu gün yeni inkişaf yoluna qədəm qoymaqla, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə öz şərəfli missiyasını uğurla davam etdirir. Dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan möhtəşəm islahatlar sayəsində dövlətimiz hərtərəfli qüdrətlənmiş, o cümlədən ordu quruculuğunda həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq, bu gün vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı möhkəmləndirilmiş, mənəvi-psixoloji hazırlıqlı, yüksək əhvali-ruhiyyəli, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri -formalaşmışdır.

Təsadüfi deyildir ki, "Global Firepower" təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı yeni hesabatda Gürcüstan 85-ci, Ermənistan 96-cı sırada qərarlaşdığı halda, ordumuz 52-ci yeri tutmuşdur. Bu isə Azərbaycan Ordusunun Cənubi Qafqazın ən güclü ordusu olduğunu bir daha təsdiq etmişdir. Hər kəsə məlumdur ki, 2003-cü ildən bu günə qədər hərbi xərclərimiz 15 dəfə artmış, cənab Prezidentin təşəbbüsü ilə 20-dən çox hərbi zavod yaradılmış, bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsul istehsal olunaraq nəinki ordumuzun potensialı gücləndirilmiş, eyni zamanda, hərbi məhsullarımızın ixrac olunmasına başlanılmışdır.

Xarici ölkələrdən ən müasir zirehli texnikalar, gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, döyüş təyyarələri, nəqliyyat vasitələri, helikopterlər, kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri, eləcə də digər texnika və silahlar alınmaqla Silahlı Qüvvələrimizin maddi-texniki bazası daha da gücləndirilmişdir. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhəyanı zonalara ardıcıl səfərlər edərək hərbi qulluqçularla görüşməsi, onlarda sonsuz mübarizə əzmini aşılayan qətiyyətli çıxışları və düşmənə ünvanlanmış tutarlı ismarıcları şəxsi heyətdə sarsılmaz ruh yüksəkliyi yaratmışdır. Hər kəsə məlumdur ki, dövlətimizin və xalqımızın təhlükəsizliyini, eləcə də müdafiəsini, habelə əmin-amanlığı ləyaqətlə qoruyan rəşadətli ordumuz, 2016-cı ilin aprel ayında mövqelərimizə doğru irəliləməklə, işğal altında saxladıqları

ərazilərimizi bir qədər də genişləndirməyə cəhd göstərən düşmənin layiqli cavabını vermiş və qəhrəman hərbçilərimiz böyük cəsurluq və şücaət göstərməklə nəinki öz mövqelərini qoruya bilmiş, hətta düşməni öz əvvəlki mövqelərindən də geri çəkilməyə məcbur etməklə, bir sıra mühüm strateji məntəqələri işğaldan azad etmişdir.

Aprel döyüşlərindən dərhal sonra, dövlət başçısı cənab İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birlikdə cəbhəyanı zonalarda yerləşən yaşayış məntəqələrinə getməklə, orada yerli sakinlərlə görüşmələri, hər zaman onların yanında olduqlarını bildirmələri dövlətin öz vətəndaşlarına olan diqqət və qayğısının parlaq təzahürü idi. 2018-ci ilin may ayında da atəşkəsi ciddi şəkildə pozaraq öz işğalçı niyyətini davam etdirmək istəyən düşməni növbəti dəfə uğursuzluğa düçar edən ordumuz Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisini, o cümlədən Şərur rayonunun Günnüt kəndini düşməndən azad edərək dövlət sərhədi boyunca əlverişli əraziləri öz nəzarətinə götürmüşdür. Hər iki döyüş əməliyyatlarında Azərbaycan hərbçilərinin göstərdiyi peşəkarlıq və qəhrəmanlıq ordumuzun yüksək döyüş ruhunu və qabiliyyətini, torpaqlarımızı azad etməyə hər an qadir olduğunu və qələbə əzmini əyani nümayiş etdirdi. Haqqında fəxrlə danışdığımız bu uğurlar Ali Baş Komandan cənab İlham Əliyevin müdrik siyasətinin və qətiyyətinin, dövlətimizin qüdrətinin, ordumuzun gücünün, hərbi qulluqçularımızın qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdəti nəticəsində əldə olunmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibəti ilə keçirilən möhtəşəm hərbi paradda 240-dan çox hərbi texnikanın, gəmilərin, 70-dən artıq uçuş vasitəsinin, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikaların, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, helikopterlərin, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikaların nümayiş olunması Silahlı Qüvvələrimizin daha da qüdrətlənməsindən xəbər verirdi.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik siyasəti, gərgin əməyi, yorulmaz fəaliyyəti və sarsılmaz qətiyyəti sayəsində dövlətimizin sürətlə hərtərəfli inkişafı, o cümlədən ölkə iqtisadiyyatının durmadan güclənməsi Silahlı Qüvvələrə kifayət qədər vəsait ayrılmasına imkan vermişdir ki, bu da maddi-texniki bazanın, şəxsi heyətin təminatının və sosial müdafiəsinin daha da gücləndirilməsini şərtləndirmişdir. Bu istiqamətdə görülən nəhəng işlər sırasında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçularının dövlət vəsaiti hesabına mənzillə təmin edilməsini nəzərdə tutan "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2011-ci il tarixli Fərmanı hərbi qulluqçularımızda xüsusi ovqat yaratmaqla döyüş ruhunu artırmış, onların və ailə üzvlərinin sonsuz sevincinə səbəb olmuşdur. Qeyd olunmalıdır ki, Silahlı Qüvvələrdə 20 il və daha çox qüsursuz xidmət etmiş 1279 hərbi qulluqçuya dövlət tərəfindən indiyədək Bakıda 629, Gəncədə 632, Naxçıvanda 18 mənzil verilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri, müharibə əlilləri və veteranları ilə mütəmadi olaraq görüşmələri, onların qayğıları ilə maraqlanmaları, problemlərini həll etmələri Vətən uğrunda, xalq yolunda öz qanını və canını əsirgəməyən, bu yolda xidmətləri olan insanlara qarşı yüksək diqqətin təcəssümüdür. İşğal altında olan tarixi torpaqlarımız xalqımız əmindir ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə tezliklə düşmənlərdən təmizlənəcək və doğma yurdumuzun hər bir guşəsində Azərbaycan bayrağı dalğalanacaqdır.

### Prokurorluq hər zaman dövlət qayğısı ilə əhatə olunmuşdur

Məlum olduğu kimi, Heydər Əliyevin növbəti dəfə hakimiyyətə qayıdışından sonra onun təşəbbüsü əsasında həyata keçirilən islahatlar çərçivəsində görülən nəhəng işlər sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tamamilə yenidən qurularaq, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilməklə, səlahiyyətləri, vəzifələri və fəaliyyəti beynəlxalq standartlara uyğun formalaşdırılmış müasir dövlət təsisatına çevrildi. Ümummilli liderin prokurorluq işçilərinin rifahına xidmət edən "Azərbaycan Respublikası Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli Sərəncamı isə prokurorluq işçiləri tərəfindən sonsuz sevinc hissləri ilə qarşılanmaqla, onlarda böyük ruh yüksəkliyinin yaranmasına səbəb olmuşdur.

Dərin minnətdarlıq hissi ilə xüsusi vurğulanmalıdır ki, əsası müasir Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən qoyulan bütün hüquq-mühafizə orqanlarına, həmçinin prokurorluğa hərtərəfli diqqət və dövlət qayğısı göstərilməsi ənənəsi, cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdi-

rilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" bu qayğının bariz nümunəsi olmuşdur. Azərbaycan Prokurorluğunun tarixində inkişafın, təkmilləşmənin və hərtərəfli müasirləşdirmənin təməlini qoyan bu proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, fəaliyyətinin daha səmərəli təşkili, digər hüquq-mühafizə orqanları ilə əlaqələrin genişləndirilməsi, eləcə də, prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün hərtərəfli zəmin yaratdı ki, bu da prokurorluq işçilərində özünəgüvən hissini bir qədər də artırdı.

Ötən illər ərzində Azərbaycan Respublikası Hərbi Prokurorluğunun maddi-texniki bazasının gücləndirilməsi, o cümlədən ardıcıl olaraq, Respublika Hərbi Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun, Qazax, Zaqatala və Gəncə hərbi prokurorluqlarının ən müasir standartlara uyğun tikilməklə, bütün zəruri avadanlıqlarla təchiz olunmuş inzibati binalarla təmin olunması, əksər hərbi prokurorluqların inzibati binalarının əsaslı təmir edilməsi, əməkdaşların maddi və sosial təminatının daha da yaxşılaşdırılması hərtərəfli dövlət qayğısından irəli gəlir. Bütün bunlar isə hərbi prokurorluq əməkdaşlarını xidməti vəzifələrinə vicdanla və daha məsuliyyətlə yanaşmağa sövq edir.

Hərbi Prokurorluğa və onun işçilərinə dövlət səviyyəsində verilən yüksək dəyərin məntiqi nəticəsi olaraq, 2005-ci ildən başlayaraq, xüsusən də son dövrlərdə bu qurum fəaliyyətində ardıcıl uğurlar qazanmışdır. Hərbi Prokurorluğun əldə etdiyi nailiyyətlərdən söz açarkən xüsusi vurğulanmalıdır ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində 1992-2004-cü illərdə törədilmiş qəsdən adam öldürməyə cəhd, qəsdən adam öldürmə və digər ağır, xüsusilə ağır cinayət hadisələri ilə bağlı həmin dövrdə başlanılmış, uzun müddət istintaq aparılmasına baxmayaraq, səriştəsizlik ucbatından iş üzrə ibtidai araşdırmanın yekunlaşdırılması mümkün olmadığından təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin müəyyən edilməməsi əsası ilə icraatı dayandırılmış cinayət işlərinin 2005-ci ildən başlayaraq təcrübəli əməkdaşlar tərəfindən öyrənilməklə, bir neçəsi üzrə icraatın təzələnərək ibtidai istintaqın davam etdirilməsi, yekun qərarların qəbul olunması, bununla da ibtidai araşdırmanın qurtarması təmin edilmişdir. Yeri gəlmişkən, vurğulamaq lazımdır ki, qeyd olunan vaxtdan etibarən Silahlı Qüvvələrdə səbəbindən asılı olmayaraq baş vermiş istənilən ölüm faktı üzrə cinayət işi başlanılmış, iş üzrə hərtərəfli, tam, obyektiv və vaxtında ibtidai araşdırmanın aparılması, təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilmələri, eləcə də hər bir fakta və əmələ hüquqi qiymət verilməsi təmin edilmişdir. Eyni zamanda, hər bir cinayət işi üzrə ibtidai araşdırmanın aparılması zamanı cinayətin törədilməsinə imkan yaradan səbəb və şərait müəyyən edilməklə, müvafiq vəzifəli şəxsin ünvanına bununla əlaqədar zəruri tədbirlər görülməsi barədə təqdimat göndərilərək, həmin halların qarşısının alınması, eləcə də iş üzrə əməllərində cinayət tərkibi olmayan, lakin başqa hüquq pozuntusuna yol vermiş şəxslərin digər müvafiq hüquqi məsuliyyətə cəlb edilməsi təmin edilmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrdə aparılmış köklü islahatlar və görülmüş zəruri tədbirlər, o cümlədən Hərbi Prokurorluğun səmərəli fəaliyyəti nəticəsində ölkədə hərbi xidmət əleyhinə olan cinayətlərin və hərbi qulluqçular tərəfindən törədilən digər cinayətlərin sayı əhəmiyyətli dərəcədə azalmışdır. Ötən il Azərbaycan Respublikası Hərbi Prokurorluğu üzrə qeydə alınmış müxtəlif qəbildən olan cinayətlərin digər fərqli illərlə müqayisəli təhlili aparılarkən məlum olur ki, hərbi xidmət əleyhinə olan cinayətlər 1998-ci illə müqayisədə 7 dəfə, hərbi xidmətdən yayınma cinayətləri 1998-ci illə müqayisədə 33 dəfə, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri 1998-ci illə müqayisədə 29 dəfə, fərarilik cinayətləri 1998-ci illə müqayisədə 371 dəfə, müharibə vaxtı və ya döyüş şəraitində hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri 1998-ci illə müqayisədə 1000 dəfə, tabeçilik qaydaları əleyhinə olan cinayətlər 2007-ci illə müqayisədə 2 dəfə, hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə cinayətləri 2007-ci illə müqayisədə 2 dəfə, tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətləri 2013-cü illə müqayisədə 41,7 faiz, hakimiyyətdən sui-istifadə etmə cinayətləri 1998-ci illə müqayisədə 36 faiz, qulluğa səhlənkar yanaşma cinayətləri 1998-ci illə müqayisədə 51,4 faiz, qeyri hərbi cinayətlər 1998-ci illə müqayisədə 10,2 faiz, 1998-ci illə müqayisədə qəsdən adam öldürmə cinayətləri 5 dəfə, özünü öldürmə həddinə çatdırma cinayətləri isə 2 dəfə azalmışdır.

Dünyanın qlobal kataklizmlərlə, sarsıntılarla qarşılaşdığı, müxtəlif inqilabların, terror aktlarının tüğyan etdiyi bir dövrdə ölkəmiz nəinki sabitliyi, əmin-amanlığı qoruyub saxlayır, bütün sahələr üzrə irəliyə doğru inamlı addımlar ataraq, ardıcıl uğurlara nail olur. Dərinləşən islahatlar fonunda hətta dünyada ciddi maliyyə-iqtisadi böhran şəraitində belə inkişaf tempini davam etdirir, iqtisadiyyatını uğurla şaxələndirir, regional və qlobal təhlükəsizlik məsələlərində sabitləşdirici faktor kimi çıxış edir. Təsadüfi deyildir ki,

son 15 il ərzində iqtisadiyyat 3,2 dəfə, valyuta ehtiyatlarımız 24 dəfə, sənaye istehsalı 2,6 dəfə, qeyri-neft ixracı 4 dəfədən çox artmışdır. Qeyd olunan müddətdə ölkədə 1,9 milyon yeni iş yeri açılmış, maaşlar 7 dəfədən, pensiyalar isə 10 dəfədən çox artırılmış, işsizlik səviyyəsi 5 faizə, yoxsulluq isə 50 faizdən 5,4 faizə endirilmişdir. Bütün bunların nəticəsində insanların rifahı daha da yaxşılaşdırılmış və təbii olaraq əhalinin sayı da 1,7 milyon nəfərdən çox artmaqla on milyonu keçmişdir. Vurğulanmalıdır ki, ölkəmizdə gedən sürətli inkişaf beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə 35-ci yerə layiq görmüşdür. Eyni zamanda, inkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə isə üçüncü yerdə qərarlaşmışıq. Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında isə Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilmiş və ən çox islahat aparan ölkə elan olunmuşdur. Hesabata əsasən, Azərbaycan 2017-ci illə müqayisədə 32 pillə irəliləyib, 190 ölkə arasında 25-ci yerdə qərarlaşmaqla, dünyanın bir çox ölkələrini geridə qoyaraq Müstəqil Dövlətlər Birliyi ölkələri sırasında lider mövqeyə yüksəlmişdir.

Respublikamızda müşahidə olunan dinamik iqtisadi tərəqqi ilə paralel şəkildə demokratik-hüquqi islahatların, vətəndaş cəmiyyəti quruculuğu prosesinin dönmədən davam etdirilməsi, hər iki təmayülün ümumi strateji inkişaf kursunun prioritet xətti kimi nəzərdən keçirilməsi nəticəsində bu gün ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik və demokratiya əksər dövlətlərə nümunə göstərilir. Bunun nəticəsidir ki, Azərbaycan sülh, multikultural və əməkdaşlıq ölkəsi kimi tanınmaqla beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün daimi məkanlardan birinə çevrilmiş, vətənimizdə müxtəlif illərdə dörd dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, altı dəfə Bakı Beynəlxalq Humanitar Forumu, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Formula – 1" yarışları və digər tədbirlər yüksək səviyyədə baş tutmuşdur. Həmin tədbirlər sırasında 2018-ci ilin aprel ayında Bakıda keçirilmiş beynəlxalq sabitliyin, sülhün və təhlükəsizliyin bərqərar olmasında vacib rol oynayan, üzvlərinin sayına görə dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama hərəkatının xarici işlər nazirlərinin Aralıq Nazirlər konfransını xüsusi qeyd etmək lazımdır. 2019-2022-ci illər ərzində Azərbaycanın bu böyük, mötəbər təşkilata sədrlik edəcəyi, həmçinin ölkəmizdə zirvə görüşünün keçiriləcəyi bir daha həmin təşkilata üzv olan dövlətlərin ölkəmizə olan hörmət, inam və etibarının təzahürüdür.

Möhtərəm Prezidentimiz İlham Əliyevin zəngin idarəçilik təcrübəsinə əsaslanan çoxşaxəli fəaliyyəti, gərgin əməyi, əzmi, sarsılmaz qətiyyəti və möhkəm siyasi iradəsi sayəsində Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanaraq, dünyada ən qüdrətli dövlətlər sırasında özünəməxsus yerini müəyyən etməklə mövqelərini bərkitmiş və söz sahibinə çevrilmişdir. Dünya dövlətlərinin ölkəmizə böyük rəğbət bəsləməsi və dövlətimizi dəstəkləməsi əldə edilmiş nəticələr və qəbul olunmuş qərarlarla öz təsdiqini tapmışdır. Hər kəsə məlumdur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də əksər beynəlxalq təşkilatlar Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir. Qeyd olunmalıdır ki, cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə bir çox ən mötəbər beynəlxalq təşkilatlar münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmasını özündə əks etdirən çox önəmli qətnamələr qəbul etmişlər. Belə ki, BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar münaqişə ilə bağlı bizim haqlı mövqeyimizi dəstəkləyən qətnamələr qəbul etmişlər. Onu da qeyd etmək lazımdır ki, əvvəlki illərdə isə BMT Təhlükəsizlik Şurası və ATƏT ölkəmizin lehinə ədalətli qətnamələr qəbul etmişdir ki, bu da münaqişənin həlli üçün hüquqi baza yaratmışdır.

Göründüyü kimi, müdrik siyasət sayəsində, müxtəlif maneələrə, o cümlədən erməni lobbi təşkilatları tərəfindən əleyhimizə aparılan kampaniyalara baxmayaraq dövlətimiz sözügedən münaqişənin həlli məsələsində beynəlxalq təşkilatların dəstəyini qazana bilmiş, Ermənistanın işğalçı siyasəti ifşa edilmiş, Dağlıq Qarabağın Azərbaycanın tarixi ərazisi olması təsdiqini tapmış, qondarma "Dağlıq Qarabağ"ı heç bir dövlət tanımamış, orada keçirilən qondarma "referendum"u bizim qonşu ölkələrimiz və əksər beynəlxalq təşkilatlar pisləmişdir. Bununla belə, dünyada gedən proseslər, beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələrin icra mexanizminin olmaması, onların icra edilməməsi onu deməyə əsas verir ki, beynəlxalq hüquq işləmir. Buna görə də, son illər ərzində beynəlxalq davranış qaydaları dəyişmiş, beynəlxalq hüquq normaları arxa, güc amili isə ön plana keçmişdir. Bütün bunları nəzərə alan müdrik rəhbərimiz cənab İlham Əliyev münaqişənin həlli ilə bağlı hər iki istiqamətdə işini mükəmməl quraraq, həm beynəlxalq dəstək və hüquqi baza, həm də qüdrətli Silahlı Qüvvələr formalaşdırmışdır.

Sözsüz ki, istər diplomatik danışıqlar əsasında sülh, istərsə də hərb yolu ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və bu belə də olacaqdır. Odur ki, hər bir azərbaycanlı, o cümlədən Silahlı Qüvvələrimizin əsgəri, çavuşu, giziri,

zabiti və generalı bunu özünə təlqin etməklə, tarixi torpaqlarımızı düşməndən azad etmək üçün hər an Ali Baş Komandanın əmrinə hazırdır.

### Müstəqil Azərbaycan etibarlı əllərdədir

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri mükəmməl idarəçilik irsi yaratmaqla, gələcək nəsillərin bundan bəhrələnməsi üçün geniş imkanlar açması olmuşdur. Bu da ondan irəli gəlirdi ki, ümummilli lideri xalqımızın həyatının müəyyən dövrü deyil, əbədi taleyi düşündürürdü. Bu səbəbdəndir ki, 2003-cü ildə Azərbaycan xalqı ölkənin gələcək taleyi ilə bağlı onun tövsiyəsinin intizarında olarkən, ulu öndər Azərbaycanın gələcəyini düşünməklə verdiyi çox dəyərli məsləhəti ilə xalqı düz yola istiqamətləndirdi. Böyük şəxsiyyətə sonsuz inam bəsləyən xalq verilən dəyərli tövsiyədən bəhrələnərək düzgün seçim etməklə, Azərbaycan xalqının bitib-tükənməz sevgisini, yüksək etimadını qazanmış möhtərəm Prezidentimiz İlham Əliyevi özünə rəhbər seçdi. Dərin elmi bilikləri, iti zəkası, yüksək erudisiyası, uzaqgörən düşüncəsi, nümunəvi rəhbərlik qabiliyyəti, təvazökarlığı, sadəliyi və ən əsası Heydər Əliyev siyasətinə sədaqəti cənab Prezident İlham Əliyevə xalqın böyük rəğbətini qazandırdığından, o, 11 aprel 2018-ci il tarixdə keçirilmiş Prezident seçkilərində də mütləq səs çoxluğu ilə növbəti qətiyyətli qələbəsini əldə etdi. Sözsüz ki, bu qələbə ulu öndərə və cənab Prezidentə olan misilsiz millət sevgisindən irəli gələn zərurətdən doğurdu. Mustafa Kamal Atatürk demişdir: “Millət sevgisi qədər böyük mükafat ola bilməz.”.

Millətinə xidməti həyat amalına çevirmiş cənab İlham Əliyev xalq qarşısında verdiyi vədləri əməlləri ilə doğruldaraq hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirdi. Möhtərəm Prezidentin vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla yanaşması, onların ciddi problemləri ilə bağlı məsələləri nəzarətə götürməsi, bir çox hallarda şəxsən qərar qəbul etməklə üzləşdikləri bütün çətinlikləri aradan qaldırması dövlətin və rəhbərinin vətəndaşa verdiyi yüksək dəyərin göstəricisidir. Məlum olduğu kimi, 2015-ci ildə ölkədə baş vermiş iki devalvasiya xeyli vətəndaşın xarici valyuta ilə götürdüyü kreditlərin ödənilməsində çətinliklə üzləşməsinə səbəb oldu. Ötən dövr ərzində bu məsələ dəfələrlə cəmiyyətdə, müxtəlif dövlət orqanlarında müzakirə edilsə də, çıxış yolu üçün fərqli təkliflər irəli sürülsə də öz həllini tapa bilmədi. Devalvasiyalar baş verdiyi andan sözügedən məsələni diqqətində saxlayan cənab Prezident bu ilin fevral ayında özünün də qeyd etdiyi kimi, analoqu olmayan fərman verməklə problemin həllinə nail oldu. Bununla əlaqədar saysız-hesabsız misallar göstərmək olar. Bütün bunlar əminliklə onu deməyə əsas verir ki, müdrik liderimizin analoqu olmayan siyasəti alternativi istisna edir.

Təbii ki, ölkəmizin hərtərəfli inkişafında və əldə etdiyi ardıcıl uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Onun, daxili və xarici siyasətdə bütün dünyada təqdir olunan fəaliyyəti, ölkəmizdə təhsilin, səhiyyənin, elmin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafında xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və dünyada geniş təbliği istiqamətində gördüyü böyük işlər, sadalamaqla bitməyən mütərəqqi və xeyirxah əməlləri dövlətimizin qüdrətlənməsinə və millətimizin rifahına töhfələr verməkdə davam edir.

Mehriban xanımın dövlətimizin və digər dövlətlərin ali mükafatları ilə təltif olunması, bu nəcib insanın Vətənimiz və xalqımız qarşısındakı müstəsna xidmətlərini və beynəlxalq səviyyədə gördüyü mühüm əhəmiyyətli nəhəng işləri ehtiva etməklə, onlara verilən yüksək dəyərdən irəli gəlir. Mehriban xanımın zəngin elmi bilikləri, dərin düşüncəsi, mükəmməl idarəçilik qabiliyyəti, millətinə, dövlətinə, milli-mənəvi dəyərlərə sadiqliyi, övladlarına məhəbbəti, davranışı və səmimiyyəti, eləcə də bütün qadınlara örnək olan digər müsbət keyfiyyətləri ona həm ölkəmizdə, həm də ölkəmizdən kənarda dərin hörmət və məhəbbət qazandırmışdır.

Qürurumuzu artıran haldır ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə həyata keçirilmiş yuxarıda qeyd olunan, eləcə də sadalaya bilmədiyimiz digər islahatlar və görülən nəhəng işlər sayəsində bu gün Azərbaycanın adı artıq dünyanın demokratik və sürətlə inkişaf edən dövlətlərinin sırasında çəkilir. Ümummilli lider Heydər Əliyevin müdrik siyasətinin özünü hər zaman xalqın birinci xidmətçisi kimi təqdim edən möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və bu siyasətin xalq tərəfindən dəstəklənməsi Azərbaycanın daha da qüdrətlənəcəyindən xəbər verir.

Əminliklə deyə bilərik ki, şərəfli ömrünü Azərbaycana fəda etmiş dünya şöhrətli siyasətçi, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı dünyanın hər yerində daim dərin hörmətlə çəkiləcək, onun əziz və unudulmaz xatirəsi millətimiz tərəfindən əbədi olaraq xüsusi ehtiramla yad ediləcəkdir.

**Xanlar Vəliyev,**
Azərbaycan Respublikasının Hərbi prokuroru,
ədliyyə general-leytenantı
9 may 2019-cu il, “Xalq” qəzeti

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Vəkillər Kollegiyası arasında Anlaşma Memorandumu imzalanıb




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, xüsusilə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmandan irəli gələn tövsiyə və tapşırıqların icrası ölkəmizdə qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi prosesinə böyük töhfə vermişdir.

Həmin məqsədə nail olunması üçün vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, mövcud sahədə hüquqi maarifləndirmə tədbirlərinin genişləndirilməsi, peşəkar kadr potensialı ilə seçilən hüquq mühafizə orqanlarının, habelə insan hüquqlarının peşəkar müdafiəsi sahəsində ixtisaslaşmış təşkilatların qarşılıqlı səmərəli əməkdaşlıq şəraitində birgə fəaliyyət göstərməsi vacib şərtlərdəndir. Müasir dövrün çağırışlarına uyğun hüquqi islahatların davam etdirilməsi nəticə etibarı ilə hüquqi dövlət prinsiplərinin inkişaf etdirilməsi, əhalinin dövlət hakimiyyəti və hüquq mühafizə orqanlarına etimadının yüksəldilməsi, vətəndaşların qanuna riayət etmə ruhunda maarifləndirilməsinə hesablanmışdır.

Qeyd edilən zərurətdən irəli gələrək, Vəkillər Kollegiyanın digər dövlət qurumları ilə qarşılıqlı əməkdaşlığının qurulması çərçivəsində cari il iyunun 28-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında hər iki qurumun rəhbər vəzifəli şəxslərinin iştirakı ilə korrupsiya ilə mübarizə sahəsində qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

Tədbiri giriş sözü ilə açan Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev memorandumun əhəmiyyətinə toxunaraq, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik məhkəmə-hüquq sisteminin formalaşdırılması, qanunçuluq və hüquq qaydasının möhkəmlənməsinə istiqamətlənən islahatların ölkədə həyata keçirilən korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəkləndiyini bildirmiş, qeyd olunan sahədə dövlət orqanları, o cümlədən hüquq mühafizə orqanlarının qarşılıqlı olaraq insan hüquqlarının peşəkar müdafiəsi sahəsində ixtisaslaşmış təşkilatlarla, həmçinin vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığının genişlənməkdə olduğunu qeyd etmişdir.

Baş prokurorun müavini Vəkillər Kollegiyasının vəkillərin xidməti fəaliyyəti ilə əlaqədar onlara məlum olan korrupsiya hüquqpozmaları barədə məlumatlarının təxirəsalınmadan prokurorluq orqanlarına verilməsinə dair razılığın memoranduma daxil edilməsini cinayətkarlığın bu təhlükəli təzahürünə qarşı mübarizədə önəmli töhfə olacağını qeyd etmişdir.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək bildirmişdir ki, ölkəmizdə vəkillik sahəsində aparılan mütərəqqi islahatlar nəticəsində ölkədə vəkillərin sayı əhəmiyyətli dərədəcə artmış, hazırda Bakı və Azərbaycanın regionlarında 1500 nəfərdən çox vəkil xidməti fəaliyyət göstərir. Kollegiyanın öz işini müasir dövrün tələblərinə uyğun qurduğunu tədbir iştirakçılarının diqqətinə çatdıran Anar Bağırov dövlətin vəkilliyin inkişafına böyük diqqət ayırdığını bildirmişdir.

Belə ki, Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 22.02.2018-ci il tarixli Sərəncamında Vəkillər Kollegiyasına fəaliyyətində şəffaflığın artırılması tövsiyə edilmişdir.







Eyni zamanda Anar Bağırov, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanda Vəkillər Kollegiyasına verilmiş tövsiyələr çərçivəsində bu Memorandumun imzalanmasının, hər iki qurum arasında səmərəli əməkdaşlıq münasibətlərinin qurulmasının mühüm əhəmiyyət kəsb etdiyini xüsusi vurğulamışdır.

Qeyd olunmuşdur ki, əməkdaşlıq münasibətlərinin qurulmasının başlıca qayəsini vətəndaşlarımızın hüquq və azadlıqlarının səmərəli müdafiəsi təşkil edir ki, Memorandumun imzalanması son nəticədə məhz bu məqsədə xidmət edir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Ədalət mühakimə icraatında insan hüquqlarının təmin edilməsi məsələlərinə həsr edilmiş beynəlxalq seminar keçirilib




Mayın 15-17-də Beynəlxalq Prokurorlar Assosiasiyası ilə Azərbaycan Respublikası Prokurorluğunun birgə təşkilatçılığı ilə keçirilən "Ədalət mühakimə sistemində insan haqları ilə bağlı qarşıda duran məsələlər" mövzusunda beynəlxalq seminar keçirilib.

Tədbir çərçivəsində ekspertlər tərəfindən Avropa İnsan Hüquqları Konvensiyası kontekstində azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması hüquqları, informasiya sahəsində insan hüquq və azadlıqlarının təmin olunması barədə iştirakçılara geniş məlumat verilir. Eləcə də digər əlaqədar mövzularla bağlı ortaya çıxan problemlər və onların həlli yolları, Avropa İnsan Hüquqları Məhkəməsinin həmin məsələlərə yanaşması, prioriterləri və yeni istiqamətləri ətraflı müzakirə edilib.

Seminarda təqdimat və praktiki məsələlər, habelə iştirakçıları maraqlandıran digər mövzularla bağlı suallar beynəlxalq ekspertlər tərəfindən cavablandırılıb.

Tədbirin sonunda iştirakçılara müvafiq sertifikatlar təqdim edilib.

Seminar iştirakçıları tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını ifadə ediblər.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində kurslar təşkil edilib

## Stajorlar üçün hazırlıq kursları keçirilib






Azərbaycan Respublikası Prokurorluğu orqanlarına 2018-ci ildə qulluğa qəbul olunmuş və stajorluq keçən 88 nəfər işçi üçün aprelin 15-dən mayın 8-dək və mayın 13-dən iyunun 10-dək Baş Prokurorluğun Elm-Tədris Mərkəzində hazırlıq kursları təşkil edilmişdir.

Kursun proqramı cinayət, cinayət-prosessual, əməliyyat-axtarış fəaliyyəti, məhkəmə ekspertizası, kriminalistika, habelə digər bilik sahələri üzrə mövzuları əhatə edən 68 mövzudan (56 mühazirə, 12 praktiki




təlim mövzuları) ibarət olmuşdur. Təlimçi kimi Elm-Tədris Mərkəzinin işçiləri ilə yanaşı Baş Prokurorluğun, Hərbi Prokurorluğun, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və tabe prokurorluqların, habelə Ədliyyə və Səhiyyə nazirliklərinin tabe strukturlarının yüksək ixtisaslı və təcrübəli işçiləri cəlb edilmişlər. Təlimlər müasir texnika və texnologiyalardan geniş istifadə olunmaqla həyata keçirilmiş, məşğələlərin elektron mətni və mövzular üzrə yeni ədəbiyyat stajorlara təqdim edilmişdir. Ümumilikdə tədbirin keçirilməsinə müxtəlif formalarda prokurorluq və digər orqanların 140 nəfərdən artıq işçisi cəlb olunmuşdur.

Təlimlər uğurla başa çatdıqdan sonra dinləyicilərin əldə etdikləri peşə bilikləri tabe prokurorluqların 2018-ci il ərzində fəaliyyətinə dair prosessual sənədlərdən istifadə etməklə müsahibə aparılması yolu ilə qiymətləndirilmişdir. Dinləyicilərin mütləq əksəriyyəti yaxşı və əla nəticələr nümayiş etdirmişlər "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 5-ci maddəsinin və "Prokurorluq orqanlarında stajorluq və sınaq keçmə Qaydaları"nın 3-cü bəndinə müvafiq olaraq müsahibənin göstəriciləri stajorların şəxsi işlərinə əlavə edilməsi üçün Baş Prokurorluğun Kadrlar idarəsinə göndərilmişdir.

## Prokurorluq orqanlarında dövlət qulluğunun inzibati vəzifələrində çalışan bir qrup işçisi üçün ixtisasartırma kursu keçirilib

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində iyunun 12 və 13-də prokurorluq orqanlarında dövlət qulluğunun inzibati vəzifələrində çalışan 21 nəfər üçün ixtisasartırma kursu təşkil edilmişdir.

Kursun tematik planı Azərbaycan Respublikasının Konstitusiyasını, Mülki və Əmək Məcəllələri, "Normativ hüquqi aktlar haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Elektron imza və elektron sənəd haqqında" və dövlət rəmzlərinə dair qanunları, habelə Azərbaycan dilini, məntiqi təfəkkürün yoxlanılmasını, informasiya kommunikasiya texnologiyalarını özündə əks etdirən mövzular üzrə 12 məşğələdən ibarət olmuşdur. Kursa təlimçi kimi Elm-Tədris Mərkəzinin işçiləri və Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin müəllimi cəlb edilmişlər. Təlimlər müasir texnika və texnologiyalardan istifadə etməklə həyata keçirilmiş, əksər məşğələlərin elektron mətni dinləyicilərə təqdim edilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğunun Hüquqi təminat idarəsi tərəfindən seminarlar keçirilib

**“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına qarşı mübarizə” mövzusunda seminarlar keçirilib**

İyunun 11-də Beyləqan, 19-da Astara rayon prokurorluğunda “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına qarşı mübarizə” mövzusunda seminar keçirilmişdir.

Beyləqan rayon prokurorluğunda Ağcabədi, Ağdam, Beyləqan, Cəbrayıl, Füzuli, İmişli, Saatlı, Sabirabad rayon və Füzuli hərbi prokurorluqlarının, Astara rayon prokurorluğunda Astara, Biləsuvar, Yardımlı, Lənkəran, Lerik, Masallı, Neftçala, Salyan, Cəlilabad rayon, Lənkəran hərbi prokurorluqlarının müvafiq işçiləri iştirak etmişlər.

Baş Prokurorluğun Hüquqi təminat idarəsinin böyük prokuroru Mahir Tağıyev və prokuroru Vüsal Mehrəliyev tərəfindən “Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair” Konvensiyanın müddəaları izah edilmişdir. Konvensiyanın ratifikasiyasından irəli gələrək cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycanda qəbul edilən normativ hüquqi aktlar, milli fəaliyyət planları, görülən sistemli və ardıcıl tədbirlər barədə məlumat vermişlər.

Sonda suallar cavablandırılmışdır.



*Beyləqan rayon prokurorluğu*



*Astara rayon prokurorluğu*

## "Avropa Prokurorlarının Məşvərət Şurasının "Prokurorlarla bağlı Avropanın norma və prinsipləri haqqında" 17 dekabr 2014-cü il 9 saylı rəyi və ondan irəli gələn vəzifələr" mövzusunda seminar keçirilib

Mayın 21-i Kürdəmir, 23-ü Zaqatala rayon prokurorluğunda "Avropa Prokurorlarının Məşvərət Şurasının "Prokurorlarla bağlı Avropanın norma və prinsipləri haqqında" 17 dekabr 2014-cü il 9 saylı rəyi və ondan irəli gələn vəzifələr" mövzusunda seminar keçirilmişdir.



Kürdəmir rayon prokurorluğu

Seminarlarda Kürdəmir, Zərdab, Ağdaş, Hacıqabul, Yevlax, Ağsu, Göyçay, Ucar, Zaqatala, Balakən, Şəki, Oğuz, Qax, İsmayıllı rayon və Zaqatala hərbi prokurorluqlarının müvafiq işçiləri iştirak etmişlər.

Baş Prokurorluğun Hüquqi təminat idarəsinin böyük prokuroru Rəşad Qasımov, prokuroru Namiq Əliyev məruzələrlə çıxış etmişlər.

Avropa Şurası Nazirlər Komitəsinin, Avropa Prokurorları Məşvərətçi Şurasının funksiyaları, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının əsas müddəaları, insan hüquqlarının qorunması sahəsində beynəlxalq təcrübənin tətbiqi istiqamətində Azərbaycan dövləti və Prokurorluğu tərəfindən görülən işlər barədə məlumat vermişlər.



Zaqatala rayon prokurorluğu

Prokurorların cinayət mühakimə icraatı çərçivəsində vəzifələrinin yüksək səviyyədə yerinə yetirmələri, Avropa Şurasının demokratik prinsipləri və dəyərlərinə, təqsirsizlik prezumpsiyası, tərəflərin bərabərliyi prinsipinə, qərəzsiz və obyektiv olmalarına, etik davranışlarına riayət etmələri tövsiyə olunmuşdur.

Sonda suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun**
**Hüquqi təminat**
**idarəsi**

# Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən seminarlar keçirilib

**Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin təşkili ilə bağlı seminarlar keçirilib**

Aprelin 15-də Zaqatala rayon prokurorluğunda "Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin təşkili" mövzusunda seminar keçirilib.

Mühazirəçi qismində Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin böyük prokuroru Yaqut Əliyeva, dinləyicilər qismində Qəbələ, Balakən, Qax, Oğuz, Şəki və Zaqatala rayon prokurorluqlarının işçiləri iştirak ediblər.

***

Aprelin 22-də Sumqayıt şəhər prokurorluğunda "Prokurorluqda müraciətlərə baxılması işini tənzimləyən qanunvericiliyin və Baş Prokurorluq üzrə əmr və göstərişlərin təcrübədə düzgün tətbiqi" mövzusunda seminar keçirilib.



Mühazirəçi qismində Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin Vətəndaşların qəbulu şöbəsinin prokuroru Toğrul Əhmədov, dinləyicilər qismində Sumqayıt şəhər, Abşeron, Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran, Xızı, Şuşa, Qubadlı və Zəngilan rayon prokurorluqlarının işçiləri iştirak ediblər.

***

İyunun 10-da Ağsu rayon prokurorluğunda "Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin təşkili" mövzusunda seminar keçirilib.



Mühaziraçi qismində Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin böyük prokuroru Yaqut Əliyeva, dinləyicilər qismində Qobustan, Göyçay, Ağsu, Şamaxı, İsmayıllı və Ucar rayon prokurorluqlarının işçiləri iştirak ediblər.

***

Seminarlarda prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə danışılmış, prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında normativ xarakterli aktların tələbləri şərh edilmiş, qanunvericiliyin normaları təhlil edilmiş, vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin düzgün təşkili və həyata keçirilməsinə dair tövsiyələr verilmişdir.

Qanunvericiliyin tələbləri ilə yanaşı, Baş prokurorun və Baş prokurorun müavininin müvafiq rəsmi göstərişlərinin iqtisadi fəaliyyət sahəsində əsassız yoxlamaların və sahibkarların fəaliyyətinə müdaxilələrin qadağan edilməsi, mülki mühakimə icraatı qaydasında həll edilməli olan müraciətlərin müvafiq qanunvericik aktlarının və Baş Prokurorluq üzrə müvafiq əmrlərin tələbləri pozulmaqla icraata götürülərək əsassız yoxlamaların aparılmasının yolverilməzliyi və belə nöqsanlara yol vermiş hər bir prokurorluq əməkdaşının haqqında ciddi intizam tənbehi tədbirinin görüləcəyi barədə tələblərinin mahiyyəti bildirilmiş, bu tələblərə əməl edilməsinin zəruriliyi vurğulanmışdır.

Müraciətlərə baxılması və vətəndaşların qəbulu işində tətbiq edilən müasir informasiya kommunikasiya vasitələrinin əhəmiyyəti vurğulanmış, son illərdə prokurorluq orqanlarında bu sahədə görülən işlər barədə məlumat verilmişdir.

Tabe rayon (şəhər) prokurorluqlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin vəziyyəti ilə bağlı aparılan təhlilin nəticəsi üzrə bu sahədə müşahidə olunan müsbət dinamika ilə yanaşı, mövcud olan problemlər də qeyd edilmişdir.

Maraq doğuran məqamlar üzrə suallar cavablandırılmışdır.

## Arxiv işinin təşkili ilə bağlı seminar keçirilib

Mayın 3-də Ağstafa rayon prokurorluğunda "Arxiv işinin təşkili" mövzusunda seminar keçirilib.

Mühazirəçi qismində Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin böyük prokuroru (arxiv mudiri) Şahin Şükürov, dinləyicilər qismində Ağstafa, Tovuz, Qazax, Şəmkir, Gədəbəy, Daşkəsən, Göygöl, Kəlbəcər və Samux rayon prokurorluqlarının ekspert komissiyalarının sədrləri və dəftərxana müdirləri iştirak etmişlər.

Prokurorluq orqanlarında arxiv fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi və arxivlərin fəaliyyəti barədə məlumat verilmiş, "Azərbaycan Respulikası Prokurorlugu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"-ın, "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılması mügddətlərinə dair Siyahı"nın müvafiq müddəalarını şərh olunmaqla arxiv işinin təkmilləşdirilməsinə dair tövsiyələr verilmişdir. Rayon prokurorluqlarının ekspert komissiyaları tərəfindən tərtib edilən sənədlərin məhv edilməsinə dair aktlarda daha cox rastlanan nöqsanlar təhlil edilib izahlar verilmiş, prokurorluq üzrə hüquqi aktların tələblərinin öyrənilməsinin və məhv edilməli olan sənədlərin vaxtında ayrılmasının zəruriliyi vurğulanmışdır.

Tədbirin sonunda suallar cavablandırılmışdır.

## Məxfi kargüzarlıq işinin təşkili ilə bağlı seminar keçirilib

İyunun 14-də Salyan rayon prokurorluğunda «Məxfi kargüzarlıq işinin təşkili» mövzusunda seminar keçirilib.

Mühazirəçi qismində Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin böyük prokuroru (məxfiçilik üzrə) Seyfulla Aslanov, dinləyicilər qismində Salyan, Astara, Neftçala, Masallı, Cəbrayıl, Cəlilabad, Lənkəran, Yardımlı, Biləsuvar və Lerik rayon prokurorluqlarının məsul işçiləri və dəftərxana müdirləri iştirak etmişlər.

Seminarda prokurorluq orqanlarında məxfiçilik və məxfilik rejiminin təmin olunması, bu sahədə icraya nəzarət və məxfi kargüzarlıq işinin təşkili sahəsində ardıcıl həyata keçirilən tədbirlər barədə məlumat verilərək Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"nın tələbləri şərh edilmiş, dövlət sirrinin qorunması və məxfiçilik rejiminə əməl olunmasının vacibliyi vurğulanmışdır. Həmin Qaydalara Azərbaycan Respublikası Prezidentinin 14.07.2016-cı, 25.12.2018-ci, 01.02.2019-cu və 01.03.2019-cu il tarixli Fərmanları ilə edilmiş dəyişikliklərin mahiyyəti izah olunmuşdur.

Prokurorluq orqanlarında bu sahədə mövcud olan normativ bazanın təkmilləşdirilməsi istiqamətində son zamanlar görülmüş işlər barədə məlumat verilmişdir. Məxfi sənədlərin göndərilməsi haqqında məktubların, müvafiq təqdimat və ya başqa sənədlərin hazırlanması zamanı həmin məxfi sənədlərə qanunvericiliklə müəyyən edilmiş zəruri rekvizitlərin (hazırlanan sənədin nüsxələrinin sayı, sənədin kim tərəfindən hazırlanması, onun məxfilik qrifi, kompüterin yaddaşından silinməsi haqqında qeyd və s.) əlavə edilməsinin zəruriliyi bildirilmişdir.

Məxfi kargüzarlıq işinin təşkilinin prinsipləri və əsasları, bu sahədə mövcud olan prosedur və qaydalar barədə məlumat verilmiş, məxfi sənədlərlə işin xüsusiyyətləri qeyd edilmişdir.

Sonda suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları tərəfindən seminarlar, tədbirlər təşkil olunub

## Culfa rayon prokurorluğunda etik davranış qaydaları, cinayət mühakimə icraatında prokurorluğun rolu, beynəlxalq standartlar barədə seminar keçirilib

Aprelin 8-də Prokurorluğun Hüquqi təminat və informasiya şöbəsinin təşkilatçılığı ilə Şərur rayon prokurorluğunda "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi"nin tələblərindən irəli gələn vəzifələrin və Beynəlxalq Prokurorlar Assosiasiyasının prokurorlar üçün müəyyən etdiyi peşəkar məsuliyyət standartları, prokurorların əsas vəzifələri və hüquqları və Cinayət mühakimə icraatı sistemində prokurorluğun rolu haqqında Avropa Şurası Nazirlər Komitəsinin 6 oktyabr 2000-ci il tarixli 19 saylı Tövsiyələrinin nəzərə alınması" mövzusunda seminar keçirilib.

Qeyd olunub ki, hər bir prokurorluq işçisi "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunu, digər normativ hüquqi aktlarla və Azərbaycan Respublikası Baş Prokurorluğunun 08.02.2008-ci il tarixli geniş Kollegiya iclasında təsdiq edilmiş Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi ilə müəyyənləşdirilən davranış qaydalarına riayət etməli, prokurorluq işçiləri fəaliyyəti dövründə prokurorluq işçilərinin andına sadiq olmalı, xidməti işini və işdən kənar davranışını həmin anda və bu Kodeksə uyğun qurmalıdır. Kodeks prokurorluq orqanları işçilərinin riayət etməli olduqları davranışı, etik normaları, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında, prokurorluq orqanlarında korrupsiyanın və prokurorluq işçilərinin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınmasında onların üzərinə düşən vəzifələri, cəmiyyətdə prokurorluq orqanları işçilərindən gözlənilən davranışın məzmun və dairəsini müəyyən edir.

Prokurorluq orqanlarının üzərinə qanunvericiliklə qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsi prokurorluq işçilərinin yuksək əxlaqi və peşə keyfiyyətlərindən, ləyaqətindən, cəmiyyətdə hörmətindən, asudə vaxtda davranış mədəniyyətindən birbaşa asılıdır. Hər bir prokurorluq işçisi təmsil etdiyi orqanın nüfuzunu yüksəltməli, vətəndaşların ədalət mühakiməsinə və hüquq mühafizə orqanlarına olan inamını artırmalı, bu vəzifənin məsuliyyətli və şərəfli bir iş olduğunu, ədalət mühakiməsinin həyata keçirilməsində onun rolunu nəzərə alaraq, öz xidməti fəaliyyətində üzərinə düşən vəzifənin əhəmiyyətini dərk etməli, qanunlara, insan və vətəndaş hüquq və azadlıqlarına hörmətlə yanaşmalı, bu hüquq və azadlıqları təsbit edən milli və beynəlxalq standartlara ardıcıl və müntəzəm riayət etməli, cəmiyyətdə qəbul edilmiş ümumi əxlaq normaları və davranış qaydalarını gözləməli, prokurorluq işçisi adını uca tutmalı, şərəf və ləyaqətini qorumalıdır.

Prokurorluq işçisi öz xidməti fəaliyyətini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarını, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanı, Beynəlxalq Prokurorlar Assosiasiyasının prokurorlar üçün müəyyən etdiyi peşə məsuliyyəti, əsas hüquq və vəzifə standartlarını, Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmrlərinin tələblərini rəhbər tutmalı, Prokurorluq işçiləri üçün etika və davranış üzrə Avropa rəhbər prinsiplərini və Cinayət mühakimə sistemində prokurorluğun rolu haqqında Avropa Şurası Nazirlər Komitəsinin 6 oktyabr 2000-ci il tarixli 19 saylı Tövsiyələrini nəzərə almalı, həmçinin cəmiyyətdə qəbul edilmiş etik qaydalara dönmədən əməl etməli, şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə prokurorluq işçisi öz vəzifə borcunu layiqincə yerinə yetirməlidir.

Prokurorluq işçisi xidməti fəaliyyətində yüksək peşəkarlığı, insani keyfiyyətləri və işdən kənar davranış mədəniyyəti ilə prokurorluq orqanlarının nüfuzunu daim artırmalı, bütün hallarda elə fəaliyyət

göstərməlidir ki, hər bir şəxs üçün nümunə kimi qəbul edilmiş olsun. Etik davranış qaydalarının onun tərəfindən pozulmasının nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur. Prokurorluq işçisi öz peşə fəaliyyətində şəxsi maraqlarını cəmiyyətin və peşəsinin mənafelərindən üstün tutmamalı, öz fikirlərini ifadə etmək azadlığına, qanunvericiliklə müəyyən edilmiş qaydada ictimai birliklərdə birləşmək, milli və beynəlxalq təşkilatların fəaliyyətində iştirak etmək hüququna malikdirlər. Eyni zamanda prokurorluq işçiləri hər hansı siyasi partiyanın və ya təşkilatın üzvü olmamalı, siyasi aksiyalarda iştirak etməməli, siyasi partiyalara maddi və ya digər hər hansı şəkildə dəstək verməməli, qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla təşviqatla məşğul olmamalı, habelə ideoloji təsirə məruz qalmasına dəlalət edən hərəkətlərdən çəkinməlidir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, ayrı-ayrı fiziki və hüquqi şəxslərin, ictimai birliklərin maraqları dairəsində fəaliyyət göstərməməli, vəzifə səlahiyyətlərindən və qulluq mövqeyindən sui-istifadə etməməlidir.

Prokurorluq işçisi xidməti fəaliyyətində qanunun aliliyini rəhbər tutmaqla yalnız faktlara əsaslanmalı, qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi prinsiplərinə riayət etməli, vətəndaşların hüquq və azadlıqlarına, hüquqi şəxslərin mənafelərinə əməl və hörmət etməli, insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməli, nəzərə almalıdır ki, milli qanunvericiliklə və beynəlxalq konvensiyalarla təsbit edilən insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədidir.

Sonra seminarda qarşıya çıxan suallar cavablandırılıb və Azrbaycan Respublikası Prokuororluğu iççilərinin etik davranış Kodeksinin tələblərinə dönmədən əməl edilməsi qeyd olunub.

## "Uşaqlara və valideynlərə kömək göstərməkdən qərəzli boyun qaçırmaya görə məsuliyyətin əsasları" mövzusunda maarifləndirici tədbir keçirilib

Aprelin 8-də Culfa rayon prokurorluğu işçilərinin iştirakı ilə Culfa şəhər 2 nömrəli tam orta məktəbində məktəbin yuxarı sinif şagirdləri və müəllim kollektivi ilə onların hüquqi maarifləndirilməsi məqsədilə tədbir keçirilib.



Tədbirdə rayon prokurorluğunun işçisi Afət Kərimli çıxış edərək bildirib ki, ailə təkcə hər bir insanın deyil, eləcə də cəmiyyətin inkişafına, onun əxlaqi sağlamlığına təsir göstərir və insanların sosial aktivliyini artıran faktorlardan biridir. Ona görə də cəmiyyətimiz möhkəm və sağlam ailənin yaranmasında maraqlıdır. Möhkəm ailə-möhkəm cəmiyyət deməkdir. İnsan xarakterinin əsası, onun əməyə, mənəvi və mədəni irsə münasibəti ilk növbədə ailədə yaranır. Böyüməkdə olan nəsli tərbiyələndirmək, onun fiziki və mənəvi qüvvələrini inkişaf etdirmək ailənin ən mühüm vəzifəsidir. Dövlət və cəmiyyət uşaqların tərbiyəsində ailəyə hərtərəfli kömək edir, uşaq bağçaları, körpələr evləri, internat məktəbləri və digər uşaq tərbiyə ocaqları şəbəkəsi genişləndirilir. Aztəminatlı ailələrə müavinətlər verilir. Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunduğu kimi, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideyenlərin həm də

borcudur. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 29.4-cü maddəsində ər-arvadın üzərinə ailədə öz münasibətlərini qarşılıqlı yardım və hörmət hissi əsasında qurmaq, ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərmək, övladlarının inkişafı üçün əlverişli şərait yaratmaq və onların sağlamlığına qeydinə qalmaq vəzifəsi qoyulub. Afət Kərimli sonra uşaqlara və valideynlərə kömək göstərməkdən qərəzli boyun qaçırmaya görə məsuliyyətin əsasları barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Daha sonra rayon prokurorunun digər işçisi Elvin Hüseynov "Gənclər sabahın qurucularıdır" mövzusunda çıxış edərək bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Dövlət gənclər siyasəti müvafiq hüquqi sənədlərdə öz əksini taparaq hökumət qurumları tərəfindən həyata keçirilir. Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin "Gənclər paytaxtı" seçilməsi bir daha sübut etdi ki, muxtar respublikamız Qoca Şərqlə müasir gəncliyin vəhdətini təşkil edən məkandır.

Sonda tədbir iştirakçılarını maraqlandıran məsələlərə aydınlıq gətirilib verilən suallar cavablandırılıb.

## Naxçıvan şəhər prokurorluğunda "Prokurorluğun normativ hüquqi aktları" informasiya sistemindən istifadə qaydaları ilə bağlı tədbir keçirilib

Aprelin 15-də Prokurorluğun Hüquqi təminat və informasiya şöbəsnin təşkilatçılığı ilə Naxçıvan şəhər və Babək rayon prokurorluqları işçilərinin iştirakı ilə Naxçıvan şəhər prokurorluğunda Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanan və xüsusi proqram təminatı ilə idarə olunan "Prokurorluğun normativ hüquqi aktları" informasiya sistemindən istifadə qaydaları ilə bağlı tədbir keçirilib.

Qeyd olununb ki, baza 2001-dən indiyədək qəbul edilmiş, dəyişdirilmiş və ya ləğv edilmiş müxtəlif növ (əmr, sərəncam, göstəriş, qayda, əsasnamə, təlimat, reqlament və digər növlü) hüquqi normativ aktın, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi plenum qərarının mətnindən ibarətdir. Aktların mətninin dəqiqliyini təmin etmək üçün hər bir aktın kağız formatlı mətni əsasında onun elektron formatı hazırlanıb, sonrakı müddətdə bu akta edilən dəyişikliklər mətnə "haşiyə" formasında əlavə edilib, bu yolla hasil edilən məlumatlar ilkin və ilkin aktı dəyişən aktların əlaqələri izlənməklə yenidən yoxlanıb, nəhayət sənədlərin üzərində korrektə işi aparılıb.

Proqram təminatı Elm-Tədris Mərkəzinin "İnformasiya texnologiyaları və tədrisin texniki vasitələri sektoru"nun mütəxəssisləri tərəfindən hazırlanıb. Proqram bazanın yüksək istehlak göstəricilərini (axtarış, təhlil və s.) təmin etməklə yanaşı bazanın internet şəbəkəsi üzərindən operativ qaydada yenilənməsi imkanı yarıdır.

Sistem informasiya təhlükəsizliyini təmin edir. İnformasiya sistemindən yalnəz prokurorluq işçiləri üçün nəzərdə tutulub. İstehlakçıların sayı xüsusi "açar"la (rəqəmsal formatda) məhdudlaşdırılır. Məlumat bazasına buraxılış əldə etmək üçün hər bir istehlakçıya administrator təfindən fərdi "açar" (parol) verilir. Parol proqram ilk dəfə aktivləşdirdikdə təqdim edilir. Bazada aparılan yenilənmələr barədə məlumat hər bir istehlakçıya internet üzərindən avtomatik qaydada çatdırılır. İstehlakçı yenilənmələrin diskə yüklənməsi barədə sorğuya razılıq verdiyi halda bu, yenə də avtomatik şəkildə baş verir. Diskdəki məlumatları fərdi kompüterlərə yükləmək və avtonom qaydada istifadə etmək də mümkündür.

"Azərbaycan Respublikası Baş Prokurorluğunun normativ hüquqi aktları" məlumat bazası Elm-Tədris Mərkəzi tərəfindən idarə olunur, ona görə də bazadan istifadə ilə bağlı ortaya çıxan suallarla bağlı

Mərkəzin internet səhifəsi (www.etmprok.az) və ya elektron poçt (support@etmprok.az, stcpros@yahoo.com) ünvanları vasitəsi ilə müraciət etmək olar.

Qeyd olundu ki, sistem prokurorluq işçiləri tərəfindən prokurorluğun normativ aktlarından, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi plenum qərarınından istifadəsini və prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsinin aparılmasını daha da yaxşılaşdıracaqdır.

Sonda suallar cavablandırıldı və sistemə həmçinin Azərbaycan Respublikasının cinayət işlərinə dair hüquqi yardım sahəsində ikitərəfli beynəlxalq müqavilələrin də əlavə edilməsi fikri səsləndirildi.

## Şərur rayon prokurorluğunda “İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti” mövzusunda seminar keçirilib

İyunun 20-də Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin təşkilatçılığı ilə “İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti” mövzusunda Şərur rayon prokurorluğunda Şərur, Kəngərli və Sədərək rayon prokurorluqlarının məsul işçilərinin iştirakı ilə seminar keçirilib.

Qeyd olunub ki, ölkəmizdə hüquq sisteminin təkmilləşdirilməsi prosesi son dövrlər daha da intensiv xarakter alaraq bu istiqamətdə ciddi işlər görülməklə mühüm tədbirlər həyata keçirilmiş, vacib əhəmiyyətli dövlət sənədləri qəbul edilmişdir ki, onların da içərisində 29.12.2015-ci il tarixli Qanunla təsdiq edilərək 2016-cı ilin martın 1-dən qüvvəyə minmiş İnzibati Xətalar Məcəlləsi xüsusi yer tutur. İnzibati xətalar haqqında qanunvericiliyin mütəmadi olaraq yenilənməsi zərurəti, onun tənzimlədiyi ictimai münasibətlərin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə daha sıx əlaqəli olmasından irəli gəlir.

İnzibati Xətalar Məcəlləsində şəxslərin hüquq və azadlıqlarının, onların qanuni mənafelərinin qorunması inzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələri içərisində ön yerdə göstərilib. Məcəllədə qeyd olunan hər bir prinsipin məzmununu açıqlayan xüsusi maddələr nəzərdə tutulub. Yeni Məcəllə qanunçuluğun təmin olunmasında prokuror nəzarətinə xüsusi önəm verərək prokuror nəzarətini qanunçuluq prinsipinin təminatı kimi müəyyən edib. Bu Məcəllədə inzibati qanunvericiliyin icrasına prokuror nəzarətinin həyata keçirilməsinə xüsusi əhəmiyyət verərək inzibati icraatda prokurorun səlahiyyətlərini gücləndirmiş, prokuror nəzarətinin predmetinə aid olan məsələləri daha da genişləndirməklə bu nəzarətin səmərəliliyinin və effektivliyinin artırılması üçün qanunda yeni üsul və vasitələr nəzərdə tutub və prokuror nəzarətinin həyata keçirilməsi qaydalarına 25 maddə və müddəalar həsr edilərək inzibati icraatla bağlı prokurorluq orqanlarının üzərinə bir sıra vəzifələr qoyulmaqla prokurorun inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında ölkə Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirməsi təsbit edilib.

Məcəllənin 54.2-ci maddəsinə əsasən prokuror istənilən inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar qəbul etmək hüququna malikdir. Həmçinin qanunda müəyyən olunan bir sıra maddələr üzrə isə inzibati icraat yalnız prokuror tərəfindən başlanıla bilər və faktiki olaraq həmin maddələr üzrə inzibati icraatın tətbiqi məsuliyyəti bütövlükdə prokurorun üzərinə düşür. İnzibati icraatı yalnız prokuror tərəfindən başlanıla bilən maddələr əsasən dövlət idarəetmə sistemində çalışan müvafiq vəzifəli şəxslərin fəaliyyəti ilə bağlı olduğundan qanunverici hesab edir ki, bu sahələrdə inzibati xətaların qarşısının alınması üçün prokurorluğun təşəbbüskarlığına ehtiyac vardır və buna görə də həmin maddələr üzrə inzibati icraatın başlanmasını prokurorun müstəsna səlahiyyətinə aid edib.

Qanunun tələbinə görə, prokurorun müstəsna səlahiyyətinə aid edilən maddələr, həmçinin İnzibati Xətalar Məcəlləsinin istənilən digər maddələri üzrə prokuror tərəfindən inzibati icraatın başlanması hüququnun həyata keçirilməsi üçün Məcəllənin 99.1-ci maddəsində göstərilən səbəblərdən biri və 99.2-ci maddəsində göstərilən kifayət qədər əsaslar olmalıdır. Məcəllənin 54.2, 54.4, 54.6, 99.4.2, 102.2, və 103-cü maddələrinə müvafiq olaraq prokuror inzibati xəta haqqında iş üzrə icraata başlamaq

səlahiyyəti olan vəzifəli şəxsdir, yaxud, başqa sözlə desək, inzibati xəta haqqında iş üzrə icraata başlamaq hüququnun subyektidir.

İnzibati Xətalar Məcəlləsinin 54.4-cü maddəsinə müvafiq olaraq prokuror bu Məcəllənin 99.1.2 və 99.1.3-cü maddələrində nəzərdə tutulan məlumatlara (dövlət orqanlarından (qurumlarından) və ya bələdiyyələrdən, fiziki və ya hüquqi şəxslər tərəfindən təqdim edilən, yaxud kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlara) baxaraq, on beş gün müddətində inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar və ya inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında əsaslandırılmış qərardad qəbul edir.

Sonda Baş Prokurorluq tərəfindən hazırlanan "İnzibati xətalar haqqında qanunvericiliyin tətbiqi və icrasına prokuror nəzarətinin həyata keçirilməsinə dair Metodiki vəsait"in öyrənilməsi tövsiyə olunaraq iştirakçıların sualları cavablandırılıb.

## Tələbələr Muxtar Respublika Prokurorluğunda olublar

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının I və III kurs tələbələrinin iştirakı ilə tədbir keçirilib.



Aprelin 24-də Naxçıvan Dövlət Universitetin bu ixtisas üzrə 1 və 2-ci kurs tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev açaraq Ali Məclis Sədrinin hamiliklə bağlı imzaladığı sərəncamların əhəmiyyətindən, eləcə də 2019-cu il 3 aprel tarixli Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görüləcək işlərdən bəhs edib.



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Təşkilat-analitik şöbəsinin rəisi

Pərviz Zülfüqarov çıxış edərək bildirib ki, gənclərin dövrümüzlə uzlaşan yeni biliklərinin, onlara məxsus innovativ ideyaların istehsalatda geniş tətbiqi qabaqcıl ölkələrin həm iqtisadi, həm də siyasi maraqları ilə üst-üstə düşür. Qeyd olunub ki, bununla bağlı 2019-cu il aprelin 15-də keçirilən müşavirədə innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin (startapların) həyata keçirilməsi, hami təşkilatlar tərəfindən layihələri dəyərləndirəcək ekspert qrupların yaradılması, startapların qəbulu və təqdimatlarının keçirilməsi kimi qarşıya mühüm vəzifələr qoyulub. Sərəncamın icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda da ekspert qrupu yaradılıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat şöbəsinin rəisi Faiq Səfərov və Naxçıvan Muxtar Respublikası prokurorunun Beynəlxalq əlaqələr üzrə köməkçisi Emil Abdullayev çıxış edərək prokurorluq orqanlarının fəaliyyət istiqamətləri, bu istiqamətlər üzrə həyata keçirilə biləcək startap layihələrinin önəmindən, cəmiyyətə faydasından söhbət açıblar.

Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müdiri, hüquq üzrə fəlsəfə doktoru Qəhrəman Behbudov çıxışında belə tədbirlərin əhəmiyyətini vurğulayıb.

Sonra tələbələr istintaq hərəkətlərinin aparılmasından və startap layihələrindən bəhs edən slayda baxıblar, onların “İdeyadan başlanğıca” devizi altında irəli sürdükləri layihələr dinlənilib. Həmçinin tələbələr Naxçıvan Muxtar Respublikası Prokurorluğunun İmtahan-informasiya sistemi ilə tanış olublar, kriminalistik avtomaşının iş prinsipini öyrəniblər.

## Tələbələr prokurorluq orqanlarının iş prinsipləri ilə tanış olublar



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr iyunun 3-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar.

Onlar əvvəlcə buradakı kitabxana ilə tanış olub, prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları haqqında məlumatlar alıblar. Sonra tələbələrə prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi izah olunub, cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri, o cümlədən cinayətişinin başlanması, təqsirləndirilən şəxs qismində cəlbetmə, ittihamı elanetmə qaydaları, dindirmə və üzləşdirmə məsələləri, ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında danışılıb, mövzu ilə bağlı slaydlar nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublika prokuroru Səbuhi Şahverdiyev tələbələrlə görüşdə ölkəmizdə aparılan məhkəmə-hüquq islahatlarının əhəmiyyəti, prokurorluq orqanlarında çalışmaq istəyən işçilərin peşəkar mütəxəssis, öz işinin öhdəsindən vicdanla gələ bilən yüksəkixtisaslı kadrlar kimi yetişdirilməsinin vacibliyini vurğulayıb.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamı peşəkar mütəxəssis, yüksəkixtisaslı kadrların hazırlanmasında əhəmiyyətli addımlardan biridir və bu istiqamətdə görülən işlər öz müsbət nəticəsini göstərəcəkdir.

Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin müəllimi Pərviz Qəribov Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını daha dərindən öyrənmələri üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

## Gənclər hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunur



Babək rayon prokurorluğunun təşkilatçılığı ilə Babək qəsəbə 1 nömrəli tam orta məktəbdə “Gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi günün tələbidir” mövzusunda tədbir keçirilib. Əvvəlcə məktəbin direktoru Əli Hacıyev tədbirin əhəmiyyətindən bəhs edib.

Daha sonra rayon prokurorunun köməkçisi Elməddin Bağırov bildirib ki, dövlətimiz gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb. Muxtar respublikamızda da gənclərin hərbi-vətənpərvərlik ruhunda böyüməsi diqqətdə saxlanılır, ümumtəhsil məktəblərində çağırışaqədərki hazırlıq fənni tədris olunur, məktəblərdə hərbi kabinələr fəaliyyət göstərir, gənclərin hərbi idman oyunlarında iştirakı diqqət mərkəzində saxlanılır. Gənclər də bu şəraitdən istifadə etməli, özlərini gələcəyin hərbi qulluqçusu,Vətənin müdafiəçisi kimi hazırlamalıdırlar.

Qeyd olunub ki, orduya çağırılan gənclərin orta məktəbdə oxuduğu dövrdə müəyyən hərbi biliklərə yiyələnməsi sonrakı dövrdə onların peşəkar hərbçi kimi yetişməsində də vacib rol oynayır. Babək rayonundan olan məzunların da Heydər Əliyev adına Hərbi Liseyə, eləcə də digər hərbitəyinatlı təhsil ocaqlarına maraq göstərmələri şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmalarını göstərir.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Azərbaycanın və Rusiya Federasiyasının Baş prokurorluqları arasında əməkdaşlıq genişlənir




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Baş Prokurorluq bir sıra ölkələrin prokurorluq və digər cinayət təqibi orqanları, eləcə də beynəlxalq təşkilatlarla işgüzar əlaqələr və dostluq münasibətlərinin qurulması sahəsində səmərəli fəaliyyətini davam etdirir.

Ölkələrimizin prokurorluq orqanları arasında ənənəvi tərəfdaşlıq münasibətlərinin və hüquqi əlaqələrin möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Rusiyalı həmkarı Yuri Çaykanın dəvətilə iyunun 24-də rəhbərlik etdiyi nümayəndə heyəti ilə Rusiyanın paytaxtı Moskva şəhərinə rəsmi səfər etmişdir.

Səfər çərçivəsində Rusiyanın Baş prokuroru Yuri Çayka ilə keçirilmiş görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi xüsusilə qeyd olunmuşdur.

Dövlətlərimiz və xalqlarımız arasında zəngin tarixə malik və ildən-ilə daha da dərinləşən münasibətlərin, o cümlədən hüquqi sahədə əlaqələrin getdikcə inkişaf etdiyini qeyd edən Baş prokuror Zakir Qaralov Azərbaycan Prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan və rəhbərliyi ilə ardıcıl olaraq bütün sahələrdə olduğu kimi sosial-iqtisadi sahədə və məhkəmə-hüquq sistemində aparılan islahatlar, o cümlədən səmərəli dövlət idarəetməsi, əhalinin həyat səviyyəsinin və sosial rifahının yüksəldilməsi üzrə tədbirlər və əldə olunmuş nailiyyətlərdən geniş danışmışdır.

Baş prokuror ötən illər ərzində prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, gənc hüquqşünaslardan ibarət kadr korpusunun formalaşdırılması istiqamətində aparılan mütərəqqi işlər, korrupsiya ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi üçün digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqələr barədə həmkarına məlumat vermişdir.

Görüş zamanı Azərbaycan və Rusiya Baş Prokurorluqları arasında tərəf dövlətlərin qanunvericilikləri və tətbiq edilən beynəlxalq müqavilələr rəhbər tutularaq "Əməkdaşlıq haqqında" Saziş imzalanmışdır.

Sonra Baş prokuror Zakir Qaralov möhkəm dostluğa, mehriban qonşuluğa, etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan Azərbaycan – Rusiya əlaqələrinin bir çox sahələrdə olduğu kimi özünü hüquq-mühafizə sahəsində də büruzə verdiyini vurğulamış, Azərbaycan və Rusiya Baş Prokurorluqları arasında izmalanmış Sazişin əlaqələrin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm sənəd olacağına və yeni perspektivlər üçün əlverişli zəmin yaradacağına əminlik ifadə etmişdir.

Rusiyanın Azərbaycan ilə hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi önəm verdiyini deyən Yuri Çayka imzalanmış sənədin iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini bildirərək münasibətlərin daha da dərinləşdirilməsi üçün böyük perspektivlərin olduğunu qeyd etmişdir.

Görüşdə cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən terrorçuluq, korrupsiya, iqtisadiyyat və yüksək






texnologiyalar sahəsində cinayətlərlə mübarizə sahəsində əməkdaşlıq haqqında danışılıb, iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, hüquqi yardım, təlim səfərləri, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüşün yekununda Baş prokuror Zakir Qaralov Rusiya Federasiyasının Baş prokuroru Yuri Çaykaya Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)” Azərbaycan Respublikasının yubiley medalını təqdim etmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Prokurorluğun nümayəndə heyəti beynəlxalq konfransda ölkəmizi uğurla təmsil edib



Aprelin 11-13-də Fələstin Dövlətinin paytaxtı Ramallah şəhərində Türk İşbirliyi və Əlaqələndirmə Agentliyi (TİKA), Türkiyə və Fələstin prokurorluqları tərəfindən "İstintaq və insan hüquqları tələbləri çərçivəsində rəqəmsal sübutlar" mövzusuna həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir.

22 ölkə təmsilçisinin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikasınının Prokurorluğunu Baş prokurorun birinci müavini Rüstəm Usubovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Tədbirdə çıxış edən Rüstəm Usubov rəqəmsal texnologiyalarla törədilən cinayətlərin artan dinamikasına diqqət çəkərək problemin aktuallığını vurğulamış, konfransın insan hüquqları və əsas azadlıqların qorunması, qanunun aliliyinin təmin edilməsi sahəsində müvafiq orqanlar arasında əməkdaşlıq və əlaqələrin möhkəmləndirilməsi üçün yaxşı platforma olduğunu qey etmişdir.

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün  və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı hüququnun kobud şəkildə pozulduğunu və işğalın bu gün də davam etdiyini vurğulayan Rüstəm Usubov işğal edilmiş ərazilərdə baş verən cinayətlərin təkcə Azərbaycan üçün deyil, eləcə də beynəlxalq aləmdə təhlükəsizliyə ciddi təhdid olduğunu bildirmişdir.

Baş prokurorun birinci müavini nəzərə çatdırmışdır ki, Azərbaycan Respublikasında dövlət başçısı cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə həyata keçirilən düşünülmüş və hərtərəfli əsaslandırılmış dövlət siyasəti, mütərəqqi və sosial mahiyyətli islahatlarla müşayiət olunan dövlət idarəçiliyi ölkənin davamlı və dayanıqlı tərəqqisini təmin etmiş, ictimai münasibətlərin, hüquq və qanunvericilik sisteminin inkişafını və beynəlxalq standartlar səviyyəsində təkmilləşdirilməsini və müasirləşdirilməsini şərtləndirmişdir.

İnsan haqlarının təmin edilməsinə, bu sahədə qanunvericilik bazasının beynəlxalq təcrübə nəzərə alınmaqla daha da genişləndirilməsinə və möhkəmləndirilməsinə xüsusi önəm verilən respublikamızda hüquqi proseslər zamanı araşdırmaların aparılması, sübütların toplanılması, onların ibtidai istintaq mərhələsində, cinayət prosesinin digər mərhələlərində istifadəsi və qiymətləndirilməsi haqqında söhbət açan Rüstəm Usubov Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində sübutetmə institutunda yeniliklər, sübutlar və sübutetmənin anlayışları haqqında tədbir iştirakçılarına məlumat vermişdir.

Daha sonra natiq kibercinayətkarlıq probleminə də toxunaraq onun müxtəlif növləri və bu qəbildən olan cinayətlərə qarşı mübarizə sahəsində Azərbaycanda görülən işlər haqqında məlumat vermişdir.

Tədbir çərçivəsində Azərbaycan Respublikasının nümayəndə heyəti Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Cirit və Baş prokuroru Mehmet Akarca ilə, Fələstinin Baş prokuroru Əkrəm Əl-Xatib və digərləri ilə ikitərəfli görüşlər keçirərək geniş fikir mübadiləsi aparmışdır.

Nümayəndə heyətlərinin rəhbərlərini qəbul edən Fələstin Dövlətinin Prezidenti cənab Mahmud Abbas konfransın işinə uğurlar arzulayaraq cinayətkarlığa qarşı mübarizədə əməkdaşlığın dərinləşdirilməsinin və birgə səylər göstərilməsinin əhəmiyyətini vurğulamışdır.

**Baş Prokurorluq**

# Hakim və prokurorlardan ibarət Azərbaycanın nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edib

İyunun 24-dən 26-dək Budva şəhərində Monteneqro Ali Məhkəməsinin təşkilatçılığı ilə "Beynəlxalq terrorizm və qanunsuz miqrasiya" mövzusunda beynəlxalq regional konfrans keçirilmişdir.

Tədbirdə ölkəmizi Ali Məhkəmənin hakimi, hərbi kollegiyanın sədri Əziz Seyidov, Baş Prokurorluğun idarə rəisi Elşən Abbasov və Beynəlxalq əlaqələr idarəsinin prokuroru Kamran Həsənov təmsil etmişdir.

Azərbaycan nümayəndə heyəti konfransın işində fəal iştirak edərək Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, ölkəmizin beynəlxalq terrorçuluq və mütəşəkkil cinayətkarlığın bütün təzahürləri ilə mübarizəyə verdiyi töhfələr və ölkəmizdə formalaşan səmərəli hüquq mühafizə sistemi haqqında ətraflı məlumat vermişdir.

Tədbirdə ümumbəşəri bəla olan terrorçuluqla mübarizədə informasiya mübadiləsi və beynəlxalq hüquqi yardımın təmin edilməsinin əhəmiyyəti, qeyri-qanuni miqrasiya və terrorçuluğun maliyyələşdirilməsinin hüquqi və etik aspektləri müzakirə olunmuş, bu sahədə beynəlxalq təcrübəyə dair geniş fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluq**

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq uğurla davam edir

## İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı üzrə 20-ci monitorinq görüşü və Şəbəkənin Rəhbər Qrupunun 24-cü görüşündə iştirak olunub

Martın 19-22-də Fransa Respublikasının paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı üzrə 20-ci monitorinq görüşü və Şəbəkənin Rəhbər Qrupunun 24-cü görüşü keçirilmişdir.

Görüşlərdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin Azərbaycan Respublikası üzrə milli koordinatoru – Azərbaycan Respublikasının Baş prokurorunun müavini, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Səbuhi Alıyev və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərov iştirak etmişdir.

Martın 19-21-də keçirilmiş Təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının 20-ci monitorinq görüşü zamanı ölkəmiz üzrə 2016-cı ilin sentyabr ayında İstanbul Fəaliyyət Planının IV Monitorinq Raundu çərçivəsində qəbul edilmiş hesabatda nəzərdə tutulmuş tövsiyələrin icra vəziyyəti ilə bağlı Tərəqqi Hesabatı müzakirə edilərək qəbul edilmişdir. Qeyd edilməlidir ki, IV Monitorinq Raund hesabatı üzrə ölkəmizə cəmi 31 tövsiyə ünvanlanmışdır ki, müzakirələr zamanı onların 21-nin uğurla icra edilməsi müəyyən edilmişdir.

Bununla yanaşı, 20-ci monitorinq görüşü zamanı Özbəkistan və Monqolustan üzrə IV Monitorinq Raundu hesabatları, Qazaxıstan, Tacikistan, Gürcüstan, Qırğızıstan və Ukrayna üzrə Tərəqqi Hesabatları müzakirə edilərək qəbul edilmiş, Azərbaycan nümayəndə heyətinin üzvü Tacikistan Respublikasının IV Monitorinq Raundu üzrə Tərəqqi Hesabatı çərçivəsində müzakirələrdə iştirak edərək qeyd edilən ölkənin korrupsiya cinayətləri ilə bağlı cinayət təqibi, prokurorluq və məhkəmə hakimiyyəti orqanlarında şəffaflığın təmin edilməsi istiqamətlərində korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdiyi tədbirləri dəyərləndirmişdir.

Martın 22-də keçirilmiş Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin Rəhbər Qrupunun 24-cü görüşü zamanı İstanbul Fəaliyyət Planı çərçivəsində hazırlanan V Monitorinq Raundunu əhatə edəcək 2020-2024-cü illər üzrə yeni İş Planının layihəsi təqdim edilmiş, həmçinin yeni dəyərləndirmə metodologiyası və Şəbəkənin maliyyə sabitliyinin təmin edilməsi məqsədilə maliyyə töhfələrinin təqdim edilmə vəziyyəti, eləcə də Şəbəkənin 2018-ci il üzrə illik hesabatı, Şəbəkənin Katibliyi tərəfindən hazırlanmış və Şəbəkəyə üzv ölkələri əhatə edən tədqiqatlar təqdim edilmişdir.

## Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin 47-ci iclasında iştirak olunub

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan və 170-dən çox dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli qarşılıqlı əməkdaşlığını davam etdirir.



Aprelin 4-5-də Norveç Krallığının Oslo şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin 47-ci iclası keçirilmişdir. Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü və təşkilatın vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Tədbir zamanı Assosiasiyanın İcraiyyə Komitəsinə yeni üzvlərin qəbulu həyata keçirilmiş, dünya prokurorlarının fəaliyyətlərini təkmilləşdirmək məqsədi daşıyan bir sıra təşkilati məsələlər, həmçinin qurumun fəaliyyətinin təşkili üçün zəruri olan bir sıra hesabat və sənədlər, o cümlədən qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti ilə əlaqələri tənzimləyən normativ sənədin qəbulu, Assosiasiyanın Hərbi Prokurorlar Şəbəkəsi ilə Beynəlxalq Hərbi Hüquq Cəmiyyəti arasında Anlaşma Memorandumunun imzalanmasına dair müzakirələr keçirilmişdir. Bundan əlavə, təşkilatın prezidentliyinə Cənubi Koreya Respublikasının Busan vilayətinin baş prokuroru Çeol-Kyu Hvanqın namizədliyinin irəli sürülməsi barədə qərar qəbul olunmuşdur.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev ölkəmizdə Prezident cənab İlham Əliyevin siyasi iradəsinə söykənərək həyata keçirilən cinayət qanunvericiliyinin dekriminallaşdırılması və liberallaşdırılması, məhkəmə-hüquq sistemində şəffaflığın təmin edilməsinə yönəlmiş genişmiqyaslı islahatlar, həmçinin qətiyyətli korrupsiyaya qarşı mübarizə tədbirləri barədə iştirakçılara ətraflı məlumat vermişdir.

Qeyd olunmalıdır ki, iclasda çıxış edən qurumun İcraiyyə Komitəsi və Katibliyinin rəhbərl şəxsləri Azərbaycanın Assosiasiyanın işinə verdiyi önəmli töhfələri və onun fəaliyyətində göstərdiyi təşəbbüskarlıq və mühüm dəstəyi xüsusi vurğulamaqla, ölkəmizlə əməkdaşlıqdan məmnunluqlarını ifadə etmişlər.

Tədbir çərçivəsində ölkəmizin nümayəndə heyəti ilə bir sıra ölkələrin təmsilçiləri arasında ikitərəfli görüşlər keçirilmiş, qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

İclasda İcraiyyə Komitəsinin növbəti 48-ci iclasının və Assosiasiyanın 24-cü İllik Konfransının 2019-cu ilin sentyabr ayında Argentinanın Buenos-Ayres şəhərində keçirilməsi qərara alınmışdır.

## “Hakimlər və prokurorların fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması və korrupsiyaya qarşı mübarizənin təmin edilməsi” mövzusunda beynəlxalq konfransda iştirak olunub

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar çərçivəsində ölkəmizdə beynəlxalq standartlar səviyyəsində mütərəqqi antikorrupsiya qanunvericiliyi formalaşdırılmaqla yanaşı, dövlətimizin bu sahədə beynəlxalq əlaqələri daim inkişaf etdirilir.



Səmərəli əməkdaşlıq əlaqələrinin davamı olaraq aprelin 17-də Rusiya Federasiyasının Moskva şəhərində “Hakimlər və prokurorların fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması və korrupsiyaya qarşı mübarizənin təmin edilməsi” mövzusunda beynəlxalq konfrans keçirilmişdir.




Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Baş İdarəsi və Korrupsiyaya qarşı Mübarizə aparan Dövlətlər Qrupu (GRECO), Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Rusiya Federasiyasının Baş Prokurorluğu, Xarici İşlər Nazirliyi və Moskva Beynəlxalq Əlaqələr Dövlət İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) Vitse-prezidenti qismində Assosiasiyanı təmsil edən Azərbaycan Respublikası Baş prokurorunun müavini-Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.

Rusiya Federasiyası Baş prokurorunun birinci müavini Aleksandr Busmanın, Avropa Şurasının İnsan Haqları və Qanunun Aliliyi Baş İdarəsinin Baş direktoru Xristos Yukomolosun, Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə aparan Dövlətlər Qrupunun (GRECO) prezidenti Marin Mrçelanın və digər ali vəzifəli nümayəndələrin iştirak etdiyi tədbirin yüksək səviyyəli seqmentində çıxış edən Kamran Əliyev Rusiya Federasiyası Baş Prokurorluğunun təmsil etdiyi Beynəlxalq Prokurorlar Assosiasiyasının işinə verdiyi töhfələrin, eləcə də Assosiasiyanın rəsmi saytının Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən aparılan rus dili versiyasının hazırda Rusiya Federasiyasının Prokurorluğu tərəfindən davam etdirilməsinin qurum tərəfindən yüksək qiymətləndirildiyini vurğulamışdır.

Bununla yanaşı, Kamran Əliyev ölkəmizdə də aparılan sistemli korrupsiyaya qarşı mübarizə siyasəti, Prezident cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilməkdə olan geniş məhkəmə-hüquq islahatları barədə iştirakçılara məlumat verərək bu siyasətin mühüm hissəsini beynəlxalq tərəfdaşlarla əməkdaşlığın təşkil etdiyini vurğulamış, qeyd edilənlərə bariz nümunə kimi təmsil etdiyi Beynəlxalq Prokurorlar Assosiasiyası ilə Azərbaycan Respublikası Prokurorluq orqanları arasında yüksələn xətt üzrə inkişaf edən səmərəli tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu göstərmişdir.

Kamran Əliyev çıxışında həmçinin təmsil etdiyi beynəlxalq qurumun maraqlar toqquşmasının qarşısının alınması və korrupsiyaya qarşı mübarizənin təmin edilməsi istiqamətində fəaliyyətinin təşkili ilə bağlı ümumi məsələlərə də toxunmuş, iştirakçılara rəhbərlik etdiyi Assosiyasiyanın "Korrupsiyaya qarşı mübarizə üzrə Prokurorlar Şəbəkəsi"nin (NACP) fəaliyyəti barədə geniş məlumat vermişdir.

Tədbir çərçivəsində ölkəmizin nümayəndə heyəti ilə Rusiya Federasiyası Baş prokurorunun birinci müavini Aleksandr Busman, Yunanıstan Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Kseni Dimitriou-Vasilipolu və digər ölkələrin, habelə bir sıra beynəlxalq təşkilatların nümayəndələri arasında ikitərəfli görüşlər keçirilməklə qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

Sonda tədbirin proqramına uyğun olaraq edilmiş məruzələr müzakirə edilmiş, hakimlər və prokurorların fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması və korrupsiyaya qarşı mübarizənin təmin edilməsi istiqamətində səmərəli fikir mübadiləsi aparılmışdır.

Tədbir müddətində Kamran Əliyev həmçinin, Moskva Beynəlxalq Əlaqələr Dövlət İnstitutunda təhsil alan azərbaycanlı tələbələrlə də görüşərək onların təhsili ilə maraqlanmış, tələbələri maraqlandıran sualları cavablandırmışdır.

## "Cəmiyyətin qlobal rəqəmsallaşması dövründə prokurorların cinayətkarlığa qarşı beynəlxalq əməkdaşlığı" mövzusunda regional konfransda iştirak olunub



Azərbaycan Respublikasının prokurorluq orqanları xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə əməkdaşlığını uğurla davam etdirir.

İyunun 3-dən 6-dək Minsk şəhərində Belarus Respublikası Baş Prokurorluğu və BPA-nın birgə təşkilatçılığı ilə Şərqi Avropa və Mərkəzi Asiya regionu ölkələrinin prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq müha-



fizə orqanlarının rəhbər şəxsləri, beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələrinin qatıldığı "Cəmiyyətin qlobal rəqəmsallaşması dövründə prokurorların cinayətkarlığa qarşı beynəlxalq əməkdaşlığı" mövzusunda regional konfrans keçirilmişdir.

Belarusun Baş prokuroru Aleksandr Konyukun dəvəti ilə tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Beynəlxalq Prokurorlar Assosiasiyanın vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi, Baş İdarənin rəis müavini Əli Nağıyev və



Bakı şəhər prokuroru İlqar Abbasovdan ibarət nümayəndə heyəti təmsil etmişdir.

Müasir dövrdə milli təhlükəsizliyə əsas təhdidlərdən birini təşkil edən terrorçuluğun təhlükəli təzahür formalarından olan kiber-terrorçuluqla mübarizə məsələlərinin müzakirəsinə həsr olunmuş Plenar iclasa həmsədrlik edən Kamran Əliyev Azərbaycanın cinayətkarlığın bu forması ilə mübarizə təcrübəsinə dair təqdimatla çıxış edərək ölkəmizin həmin sahədə formalaşdırdığı qanunvericilik və institusional baza, təhlükəsizlik və hüquq-mühafizə orqanlarının fəaliyyəti barədə iştirakçılara geniş məlumat vermişdir. O, ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq həyata keçirilən cinayət qanunvericiliyinin dekriminallaşdırılması və liberallaşdırılması, məhkəmə-hüquq sistemində

şəffaflığın təmin edilməsinə yönəlmiş genişmiqyaslı islahatlar, həmçinin korrupsiyaya qarşı qətiyyətli mübarizə tədbirləri barədə iştirakçıları məlumatlandırmışdır.

Azərbaycan nümayəndə heyəti Belarusun Baş prokuroru Aleksandr Konyuk tərəfindən qəbul edilmiş, korrupsiyaya qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

BPA-nın rəsmiləri, Çin, Estoniya, Polşa, Rusiya Federasiyası və digər ölkələrin nümayəndə heyətləri ilə keçirilən görüşlərdə ikitərəfli əməkdaşlığın inkişafına dair müzakirələr aparılmış, iştirakçılara Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini əks etdirən kitab və bukletlər təqdim edilmişdir.

Tədbirdə Azərbaycanın Belarus Respublikasındakı Fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov iştirak etmişdir.

Azərbaycan nümayəndə heyətinin üzvləri səfər çərçivəsində ölkəmizin Belarusdakı səfirliyi tərəfindən 28 May – Respublika Günü və Azərbaycan diplomatik xidmət orqanlarının yaranmasının 100 illiyi münasibətilə təşkil olunmuş rəsmi ziyafətdə iştirak etmişlər.

## Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) İcraçı direktoru ilə görüşdə iştirak olunub



Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilati üzvü və çoxsaylı prokurorluq əməkdaşlarının fərdi üzvü olduğu, dünya prokurorlarını eyni qurumda birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir.

Azərbaycan Prokurorluğu ilə qurulmuş sıx əməkdaşlıq məsələlərinin gələcək inkişaf perspektivlərinin müzakirəsi məqsədi ilə Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraçı direktoru xanım Yanne Holst mayın 21-də Baş prokuror Zakir Qaralovun dəvəti ilə ölkəmizə səfər etmişdir.

Səfər zamanı Yanne Holst Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Assosiyasiyaya fərdi üzv qəbul edilmiş gənc prokurorluq əməkdaşları ilə görüşmüşdür.

Tədbirdə Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin

rəisi, Beynəlxalq Prokurorlar Assosiyasiyasının vitse-prezidenti Kamran Əliyev BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan və 100-dən çox dövləti özündə birləşdirən Assosiasiya ilə Azərbaycan Respublikasının prokurorluq orqanları arasında səmərəli əməkdaşlığın dinamik inkişaf etdiyini qeyd etmiş, ölkəmizin qurumun fəaliyyətinə verdiyi töhfələri və göstərdiyi dəstəyi xüsusi vurğulamışdır.

Assosiyasiyanın yeni üzvləri ilə görüşdə çıxış edən Yanne Holst təmsil etdiyi qurumun fəaliyyət istiqamətləri və iş prinsipləri barəsində məlumat vermiş, gənc əməkdaşlara öz xidməti fəaliyyətləri zamanı təşkilatın imkanlarından faydalanmağın yollarını izah etmiş, onları maraqlandıran sualları cavablandırmışdır.

Sonda Assosiasiyaya qəbul edilmiş yeni üzvlərə qurumun üzvlük vəsiqələri təqdim edilmişdir.

## “Korrupsiya qarşı mübarizə – yeni perspektivlər” mövzusunda beynəlxalq simpoziumda iştirak olunub

Mayın 22-24-də Çin Xalq Respublikasının xüsusi statuslu inzibati ərazisi olan Honq-Konqda Honq-Konqun Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Komissiyası (ICAC) və Beynəlxalq Anti-Korrupsiya Qurumları Assosiasiyasının (IAACA) birgə təşkilatçılığı ilə “Korrupsiya qarşı mübarizə – yeni perspektivlər” mövzusunda beynəlxalq simpozium keçirilmişdir.

50-dən artıq ölkənin 500-dən artıq nümayəndəsinin qatıldığı sayca 7-ci olan bu simpoziumda Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya idarəsinin rəisi Səbuhi Alıyev və Baş İdarənin Əməliyyat təminatı şöbəsinin rəisi Fuad Rəsulovdan ibarət nümayəndə heyəti iştirak etmişdir.

Tədbir müddətində korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslər və yanaşmalar, effektiv qabaqlayıcı tədbirlər, şəffaflıq mühitinin formalaşdırılması və bu sahədə ictimai maarifləndirmə, hüquqpozmaların qarşısının alınması yolları, eləcə də cinayət yolu ilə əldə edilmiş əmlakların bərpası istiqamətində ən yaxşı təcrübələr müzakirə edilmişdir.

Tədbir çərçivəsində ölkəmizin nümayəndə heyəti ilə Honq-Konqun Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Komissiyasının (ICAC) rəhbərinin başçılıq etdiyi qurumun nümayəndə heyəti arasında ikitərəfli görüş keçirilmişdir. Görüş zamanı qarşı tərəfə ölkəmizdə korrupsiyaya qarşı mübarizə fəaliyyətinin hüquqi və institusional əsasları, reallaşdırılan sistemli tədbirlər, həmçinin Azərbaycan Respublikasının Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanına uyğun olaraq həyata keçirilən məhkəmə-hüquq sistemində şəffaflığın təmin edilməsinə yönəlmiş geniş miqyaslı islahatlar barədə iştirakçılara ətraflı məlumat verilmiş, həmçinin qurumlar arasında qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Nümayəndə heyətimizin üzvləri, həmçinin mayın 24-25-də Honq-Konqun Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Komissiyası (ICAC) tərəfindən təşkil edilmiş korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı və cinayət-hüquqi, eləcə də maarifləndirmə tədbirləri istiqamətlərini əhatə edən təlimlərdə iştirak etmişlər.

## BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının İcrasının Təftişi Qrupunun 10-cu sessiyasında iştirak olunub

Mayın 27-29-da BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının İcrasının Təftişi Qrupunun 10-cu sessiyası, mayın 29-30-da Aktivlərin bərpası üzrə hökumətlərarası işçi qrupunun 13-cü görüşü və mayın 31-də beynəlxalq əməkdaşlıq üzrə hökumətlərarası ekspert görüşü keçirilmişdir.

Tədbirlərdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Pirayə Səmədzadə-Əliyeva iştirak etmişdir.

150-dən artıq dövlətin ekspertlərinin və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi konfransın əsas mövzusu Konvensiyanın Aktivlərin qaytarılması üzrə tədbirlərə dair V fəslinin üzv dövlətlərdə icra vəziyyəti, bu sahədə yaxşı təcrübələr, texniki yardım, bu istiqamətdə görüləcək növbəti tədbirlərin müəyyənləşdirilməsi, qarşılıqlı hüquqi yardım və əmlakın bərpası üzrə beynəlxalq əməkdaşlığın gücləndirilməsi məsələlərini əhatə etmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun nümayəndələri beynəlxalq elmi-praktiki konfranslarda iştirak ediblər

## "Hüquq-mühafizə fəaliyyətində elm və təhsil potensialının yüksəldilməsi: müasir meyllər və perspektivlər" beynəlxalq elmi-praktiki konfransda iştirak olunub



Mayın 16 və 17-də Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində "Hüquq-mühafizə fəaliyyətində elm və təhsil potensialının yüksəldilməsi: müasir meyllər və perspektivlər" beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.

Tədbir Özbəkistan Respublikası Baş Prokurorluğunun Akademiyasının yaradılmasının il dönümünə həsr edilmiş və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) ilə birgə təşkil edilmişdir. Məqsədi – tədris prosesinə innovativ yanaşmaların tətbiqinin əhəmiyyətinin və nəticələrin müzakirəsi üçün, habelə təcrübə mübadiləsi və hüquq mühafizə sahəsində kadr hazırlığı sisteminin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması üçün platformanın yaradılması olmuşdur.




Konfransa yerli dövlət orqanların nümayəndələri ilə yanaşı, BMT-nin, ATƏT-in, diplomatik korpusların və sair beynəlxalq təşkilatların, habelə müxtəlif dövlətlərin məhkəmə və hüquq-mühafizə orqanlarının və hüquq təhsil müəssisələrinin nümayəndələri dəvət edilmislər. Azərbaycandan Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi Talıb Cəfərov iştirak etmişdir.

Konfransın ilk günü plenar iclas formatında Özbəkistan Respublikasının Baş Prokurorluğunda keçirilmişdir. Özbəkistan Respublikasının Baş prokurorunun müavini Erkin Yuldaşev tədbiri açıq elan edərək iştirakçıları salamlamışdır. Natiqlərlə yanaşı Talıb Cəfərov təbrik nitqi ilə çıxış edərək Akademiyanın rəisinə xatirə suveniri və Elm-Tədris Mərkəzi barədə kitabı təqdim etmişdir. Plenar iclas zamanı Akademiyanın fəaliyyəti haqqında məlumat verilərək, video çarx göstərilmiş, sonra isə konfransın qonaqları Akademiyanın yeni inzibati binasının açılışında iştirak etmişlər.

İkinci gün tematik bölmələr üzrə paralel sessiyalar formatında "Paytaxt" biznes mərkəzində keçirilmiş, bu sessiyalar zamanı konfrans iştirakçıları təcrübə mübadiləsi apararaq tədris prosesində tətbiq etdikləri texnologiyalar barədə məlumat vermişlər. Talıb Cəfərov sessiya çərçivəsində "Prokurorluq və istintaq işçilərinin peşə hazırlığının artırılmasında texnoloji effektivlik" mövzusunda çıxış edərək, Elm-Tədris Mərkəzində tətbiq edilən texnologiyalar, informasiya sistemləri barədə təqdimatlar keçirmişdir.

Paralel sessiyalar başa çatdıqdan sonra səslənilmiş fikirlər ətrafında konfrans iştirakçıları tərəfindən müzakirələr aparılmış, tədbirin ümumi nəticələri qiymətləndirilmiş və hüquq mühafizə sahəsində kadr hazırlığı sisteminin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlanmışdır. Konfransın gedişatı yerli dövlət telekanallarında yayımlanmış və tədbir barədə kütləvi informasiya vasitələrində məlumat verilmişdir.

**"MDB iştirakçı dövlətlərinin valideynlərindən biri ilə xaricdə səyahət etmək hüququnu tənzimləyən qanunvericiliyi, qeyri-qanuni yolla çıxdıqları halda, yetkinlik yaşına çatmayanların qaytarılması mexanizmləri və uşağın hər iki valideynlə ünsiyyət hüququnun təmin edilməsi ilə bağlı qanunvericilik" mövzusunda beynəlxalq elmi-praktiki konfransda iştirak olunub**




Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan ölkələrin Baş Prokurorların Əlaqələndirmə Şurasının Proqramının 1.3-cü bəndinin icrası ilə əlaqədar Özbəkistan Respublikasının Daşkənd şəhərində iyunun 28-də "MDB iştirakçı dövlətlərinin valideynlərindən biri ilə xaricdə səyahət etmək hüququnu tənzimləyən qanunvericiliyi, qeyri-qanuni yolla çıxdıqları halda, yetkinlik yaşına çatmayanların qaytarılması mexanizmləri və uşağın hər iki valideynlə ilə ünsiyyət hüququnun təmin edilməsi ilə bağlı qanunvericilik" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.

Özbəkistan Respublikasının Baş prokurorunun müavini Erkin Yuldaşev tədbiri giriş nitqi ilə açaraq iştirakçıları salamlamışdır. Sonra Özbəkistan Respublikasının Baş Prokurorluğunun Akademiyasının rəisi Yevgeniy Kolenko natiqlərə çıxış sözü vermişdir.

Tədbirdə Rusiya Federasiyasının, Mərkəzi Asiya ölkələrinin – Özbəkistan, Tacikistan, Qazaxıstan, Qırğızıstan, Belarus Respublikasının prokurorluq və digər hüquq-mühafizə orqanların nümayəndələri iştirak etmişlər. Azərbaycandan Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, Mütəşəkkil cinayətkarlıqla mübarizənin problemləri kafedrasının prokuroru Anar Tağıyev iştirak etmişdir.



Anar Tağıyev çıxışında Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Miqrasiya Məcəlləsinin müvafiq normaları, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, praktikada əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkələrarası övladlığa götürmə prosesi barədə, Heydər Əliyev Beynəlxalq Aeroportunda vətəndaşların istifadəsinə verilmiş Elektron ədliyyə köşkü barədə məlumatlar vermişdir.

Mövzunun aktuallığı nəzərə alınaraq bu sahədə təcrübə mübadiləsinin davam etdirilməsi qərara alınmışdır.




**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinə və "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydalarını müəyyən edir.

**Maddə 1. Azərbaycan Respublikasının Dövlət Gerbi**

**1.1.** Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan Respublikasının dövlət rəmzidir.

**1.2.** Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə müəyyən edilir.

**Maddə 2. Azərbaycan Respublikasının Dövlət Gerbinə hörmət**

**2.1.** Azərbaycan Respublikası Konstitusiyasının 75-ci maddəsinə əsasən, hər bir vətəndaş Azərbaycan Respublikasının Dövlət Gerbinə hörmət etməlidir. Azərbaycan Respublikasının Dövlət Gerbinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**2.2.** Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları ilə yanaşı əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də bu Qanunun 2.1-ci maddəsində göstərilən vəzifəni daşıyırlar.

**Maddə 3. Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında qanunvericilik**

Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və bu Qanuna uyğun qəbul olunmuş digər normativ hüquqi aktlardan ibarətdir.

**Maddə 4. Azərbaycan Respublikasının Dövlət Gerbi ilə bağlı dövlətin vəzifələri**

**4.0.** Azərbaycan Respublikasının Dövlət Gerbi ilə bağlı dövlətin vəzifələri aşağıdakılardır:

**4.0.1.** Azərbaycan Respublikasının Dövlət Gerbinin mahiyyətini və əhəmiyyətini əhali arasında geniş təbliğ etmək və onları bu barədə maarifləndirmək;

**4.0.2.** gəncləri və təhsilalanları Azərbaycan Respublikasının Dövlət Gerbinə hörmət ruhunda tərbiyələndirmək;

**4.0.3.** Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının Dövlət Gerbi barədə təhqiredici hərəkətlərin qarşısının alınması üçün beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun tədbirlər görmək;

**4.0.4.** bu Qanuna riayət olunmasına nəzarəti təmin etmək.

**Maddə 5. Azərbaycan Respublikasının Dövlət Gerbinə müəlliflik hüququ**

**5.1.** "Müəllif hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, dövlət rəmzləri müəlliflik hüququnun obyekti deyildir.

**5.2.** Azərbaycan dövləti Azərbaycan Respublikasının Dövlət Gerbini qeyri-qanuni istifadədən və ona zərər vuran digər hərəkətlərdən qoruyur.

**Maddə 6. Azərbaycan Respublikasının Dövlət Gerbinin qabarıq təsvirinin vurulduğu yerlər**

**6.1.** Azərbaycan Respublikasının Dövlət Gerbinin qabarıq təsviri aşağıdakı yerlərə vurulur:

**6.1.1.** Azərbaycan Respublikasının Prezident sarayına, dövlət iqamətgahlarının binalarına, Azərbaycan Respublikası Prezidentinin xidməti otağına;

**6.1.2.** Azərbaycan Respublikası Milli Məclisinin binasına və iclas salonuna, Azərbaycan Respublikası Milli Məclisinin Sədrinin xidməti otağına;

**6.1.3.** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binasına və iclas salonuna, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin xidməti otağına;

**6.1.4.** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) binalarına;

**6.1.5.** Azərbaycan Respublikasının bütün məhkəmələrinin binalarına və məhkəmə iclaslarının salonlarına, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin və Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin xidməti otağına;

**6.1.6.** Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının binalarına.

**6.2.** Azərbaycan Respublikasının Dövlət Gerbinin qabarıq təsvirinin istehsalı və vurulması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 7. Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən istifadə**

**7.1.** Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən hüquqi aktların və dövlətin adından verilən sənədlərin blanklarında, Azərbaycan Respublikasının kağız və metal pul nişanlarında, qiymətli kağızlarında, Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsində və pasportunda, dövlət orqanlarının (dövlətin adından hakimiyyət səlahiyyətlərini həyata keçirən qurumların) sənəd blanklarında və möhürlərində, dövlət orqanlarının binalarının lövhələrində, dövlət təltiflərinin təsvirində, Azərbaycan Respublikası Milli Məclisinin və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi nəşrlərində və Azərbaycan Respublikasının sərhəd nişanlarında istifadə olunur.

**7.2.** Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən istifadənin digər hallarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**7.3.** Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri olan möhürlərin və sənəd blanklarının hazırlanması, istifadə olunması, saxlanılması və məhv edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**7.4.** Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirinin dövlət orqanlarının binalarının lövhələrində və sərhəd nişanlarında istifadə olunması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**7.5.** Azərbaycan Respublikasının Dövlət Gerbinə ehtiram bəsləyən hər bir şəxs Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən bu Qanunun tələblərinə uyğun istifadə edə bilər.

**7.6.** Azərbaycan Respublikasının bütün təhsil müəssisələrində yeni dərs ilinin birinci dərsi Azərbaycan Respublikasının digər dövlət rəmzləri ilə yanaşı Azərbaycan Respublikasının Dövlət Gerbinin öyrənilməsinə həsr edilir.

**Maddə 8. Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadəyə dair məhdudiyyətlər**

**8.1.** Azərbaycan Respublikasının Dövlət Gerbi oturulan və ayaq basılan yerlərdə təsvir edilə bilməz.

**8.2.** Azərbaycan Respublikasının Dövlət Gerbinin təhrifinə yol verilmir.

**Maddə 9. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 10. Yekun müddəa**

Bu Qanun qüvvəyə mindiyi gündən "Azərbaycan Respublikasının Dövlət gerbi haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 4, maddə 117; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 463; 2005, № 2, maddə 61; 2006, № 3, maddə 225; 2010, № 4, maddə 276; 2013, № 5, maddə 463) 1-ci maddəsi ləğv edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 fevral 2019-cu il
№ 1511-VQ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinə və "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi, oxunması, dinlənilməsi və Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydalarını müəyyən edir.

**Maddə 1. Azərbaycan Respublikasının Dövlət Himni**

**1.1.** Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasının Dövlət Himni Azərbaycan Respublikasının dövlət rəmzidir.

**1.2.** Azərbaycan Respublikasının Dövlət Himninin musiqisi və mətni "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə müəyyən edilir.

**Maddə 2. Azərbaycan Respublikasının Dövlət Himninə hörmət**

**2.1.** Azərbaycan Respublikası Konstitusiyasının 75-ci maddəsinə əsasən, hər bir vətəndaş Azərbaycan Respublikasının Dövlət Himninə hörmət etməlidir. Azərbaycan Respublikasının Dövlət Himninə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**2.2.** Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları ilə yanaşı əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də bu Qanunun 2.1-ci maddəsində göstərilən vəzifəni daşıyırlar.

**Maddə 3. Azərbaycan Respublikasının Dövlət Himni haqqında qanunvericilik**

Azərbaycan Respublikasının Dövlət Himni haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və bu Qanuna uyğun qəbul edilmiş digər normativ hüquqi aktlardan ibarətdir.

**Maddə 4. Azərbaycan Respublikasının Dövlət Himni ilə bağlı dövlətin vəzifələri**

**4.0.** Azərbaycan Respublikasının Dövlət Himni ilə bağlı dövlətin vəzifələri aşağıdakılardır:

**4.0.1.** Azərbaycan Respublikasının Dövlət Himninin mahiyyətini və əhəmiyyətini əhali arasında geniş təbliğ etmək və onları bu barədə maarifləndirmək;

**4.0.2.** gəncləri və təhsilalanları Azərbaycan Respublikasının Dövlət Himninə hörmət ruhunda tərbiyələndirmək;

**4.0.3.** Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının Dövlət Himninə qarşı hörmətsizliyin nümayiş etdirilməsinin qarşısının alınması üçün beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun tədbirlər görmək;

**4.0.4.** bu Qanuna riayət olunmasına nəzarəti təmin etmək.

**Maddə 5. Azərbaycan Respublikasının Dövlət Himninə müəlliflik hüququ**

**5.1.** "Müəllif hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, dövlət rəmzləri müəlliflik hüququnun obyekti deyildir.

**5.2.** Azərbaycan dövləti Azərbaycan Respublikasının Dövlət Himnini qeyri-qanuni istifadədən və ona zərər vuran digər hərəkətlərdən qoruyur.

**Maddə 6. Azərbaycan Respublikasının Dövlət Himninin mütləq ifa edildiyi hallar və həmin hallarda ifa edilməsinə, oxunmasına və dinlənilməsinə dair tələblər**

**6.1.** Azərbaycan Respublikasının Dövlət Himni aşağıdakı hallarda mütləq ifa edilir:

**6.1.1.** Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin andiçmə mərasimində (and içdikdən sonra);

**6.1.2.** Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin iclaslarına gəldiyi zaman;

**6.1.3.** Azərbaycan Respublikası Milli Məclisinin növbəti və növbədənkənar sessiyalarının başlanması və qurtarması zamanı;

**6.1.4.** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti və növbədənkənar sessiyalarının başlanması və qurtarması zamanı;

**6.1.5.** Azərbaycan Respublikasının bayramlarına həsr olunmuş təntənəli yığıncaqların və iclasların açılışı və bağlanışı zamanı;

**6.1.6.** Azərbaycan dövləti və xalqı üçün mühüm tarixi hadisələr olduqda;

**6.1.7.** Azərbaycanın görkəmli dövlət, siyasi, ictimai, elm, ədəbiyyat, incəsənət xadimlərinin və Azərbaycanın Milli Qəhrəmanlarının abidələrinin və ya xatirə lövhələrinin açılışı zamanı;

**6.1.8.** dövlət orqanları (qurumları), yerli özünüidarə orqanları, siyasi partiyalar və ya qeyri-hökumət təşkilatları tərəfindən keçirilən mərasimlər və digər təntənəli tədbirlər zamanı (Azərbaycan Respublikasının Dövlət Bayrağı qaldırılarkən və ya asılarkən);

**6.1.9.** Azərbaycan Respublikasına rəsmi görüşə gələn xarici ölkələrin dövlət və hökumət başçılarının qarşılanması və yola salınması zamanı (müvafiq ölkənin Dövlət Himni ifa edildikdən sonra).

**6.2.** Azərbaycan Respublikasının Dövlət Himni musiqisinə (partiturasına) uyğun orkestr, xor və ya orkestr-xor tərəfindən, yaxud başqa vokal üsulla və ya alətlər vasitəsilə, həmçinin səsyazma vasitəsindən istifadə etməklə bütün hallarda tam ifa edilir.

**6.3.** Azərbaycan Respublikasının Dövlət Himni ifa edildikdə Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikasının Dövlət Himnini ayaq üstə, farağat vəziyyətdə sona qədər dinləməli və ya mətninə uyğun olaraq oxumalıdırlar.

**6.4.** Azərbaycan Respublikasının Dövlət Himni ifa edildikdə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Dövlət Himnini ayaq üstə, farağat vəziyyətdə sona qədər dinləməlidirlər.

**Maddə 7. Azərbaycan Respublikasının Dövlət Himnindən istifadənin digər halları və qaydaları**

**7.1.** Azərbaycan Respublikasının Dövlət Himninin hərbi qulluqçular tərəfindən ifa edilməsi, ifa edilən zaman əsgəri salam verilməsi, dinlənilməsi və oxunması qaydaları bu Qanunun tələbləri əsas götürülməklə Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi" ilə, xüsusi rütbəli şəxslərə münasibətdə isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) tərəfindən müəyyən edilir.

**7.2.** Dəfn mərasiminin təşkili və keçirilməsi zamanı hərbi ehtiramın göstərilməsi nəzərdə tutulmuş şəxslərin dəfn mərasimində Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi qaydası bu Qanunun tələbləri əsas götürülməklə Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi" ilə tənzimlənir.

**7.3.** Xarici dövlətin ərazisində Azərbaycan Respublikasının keçirdiyi təntənəli tədbirlər zamanı Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi qaydası bu Qanunun tələbləri əsas götürülməklə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**7.4.** İdman yarışları zamanı Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi qaydası bu Qanunun tələbləri əsas götürülməklə həmin yarışları təşkil edən idman təşkilatı tərəfindən müəyyən edilir.

**7.5.** Azərbaycan Respublikasının Dövlət Himni hər səhər Azərbaycan Respublikasının televiziya və radio yayımlarının əvvəlində bu Qanunun 6.2-ci maddəsində müəyyən edilmiş qaydada ifa edilir.

**7.6.** Azərbaycan Respublikasının Dövlət Himninin mətni və musiqisi (partiturası) Əlifba kitabının birinci səhifəsində dərc edilir.

**7.7.** Azərbaycan Respublikasının bütün təhsil müəssisələrində yeni dərs ilinin birinci dərsi Azərbaycan Respublikasının digər dövlət rəmzləri ilə yanaşı Azərbaycan Respublikasının Dövlət Himninin öyrənilməsinə həsr edilir.

**Maddə 8. Azərbaycan Respublikasının Dövlət Himnindən istifadəyə dair məhdudiyyətlər**

**8.1.** Azərbaycan Respublikasının Dövlət Himni başqa dildə oxuna bilməz.

**8.2.** Azərbaycan Respublikasının Dövlət Himninin təhrifinə yol verilmir.

**Maddə 9. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 10. Yekun müddəa**

Bu Qanun qüvvəyə mindiyi gündən "Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 11, maddə 328; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 380; 2004, № 4, maddə 199; 2017, № 5, maddə 687) 1-ci maddəsi ləğv edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 fevral 2019-cu il
№ 1512-VQ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

# "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı, 17-ci, 18-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7 (I kitab), maddə 1425, № 11, maddələr 2204, 2205) 8.2.3-cü maddəsində "etməlidir." sözü "etməli;" sözü ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.2.4-cü maddə əlavə edilsin:

**"8.2.4.** müddətli həqiqi hərbi xidmətə çağırılan Azərbaycan Respublikasının vətəndaşlarının məcburi dövlət daktiloskopik qeydiyyatını aparmalıdır.".

**Maddə 2.** "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 641; 2014, № 4, maddə 347, № 7, maddə 767; 2016, № 6, maddə 987; 2018, № 10, maddə 1979, № 11, maddə 2226) 12.1.2-ci və 36.3-cü maddələrində "daktiloskopik" sözü "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda məcburi dövlət daktiloskopik və məcburi dövlət genom" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422, № 10, maddələr 1971, 1978, № 11, maddə 2225) aşağıdakı məzmunda 11.6-cı maddə əlavə edilsin:

**"11.6.** Məhkumlar "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda məcburi dövlət daktiloskopik və məcburi dövlət genom qeydiyyatından keçirilirlər.".

**Maddə 4.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963; № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1317-VQD nömrəli, 2 noyabr tarixli 1326-VQD nömrəli, 30 noyabr tarixli 1357-VQD, 1371-VQD, 1377-VQD nömrəli, 7 dekabr tarixli 1382-VQD, 1384-VQD nömrəli, 18 dekabr tarixli 1395-VQD, 1398-VQD nömrəli və 28 dekabr tarixli 1406-VQD, 1427-VQD, 1432-VQD nömrəli qanunları) 156.2-ci maddəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"İnzibati qaydada həbs edilmiş şəxslər məcburi dövlət daktiloskopik qeydiyyatından keçirilirlər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 mart 2019-cu il
№ 1520-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12, (I kitab), maddə 2472) aşağıdakı məzmunda 233-4-cü maddə əlavə edilsin:

**“Maddə 233-4. Telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili**

**233-4.1.** Telekommunikasiya operatorunun və ya provayderinin telekommunikasiya şəbəkəsinə müvafiq qurğu vasitəsilə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkil edilməsi əhəmiyyətli zərər vurulmasına səbəb olduqda –

cinayət nəticəsində vurulmuş ziyanın iki mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**233-4.2.** Eyni əməllər:

**233-4.2.1.** təkrar törədildikdə;

**233-4.2.2.** xeyli miqdarda ziyan vurmaqla törədildikdə;

**233-4.2.3.** qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə –

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə və ya iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**233-4.3.** Bu Məcəllənin 233-4.1-ci və 233-4.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

**233-4.3.1.** külli miqdarda ziyan vurmaqla törədildikdə;

**233-4.3.2.** vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən dörd mislinədək miqdarda cərimə və ya üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya dörd ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Qeyd:**

**1.** Bu Məcəllənin 233-4.1-ci maddəsində “müvafiq qurğu” dedikdə, mobil nömrə sim-kartları quraşdırılan və internet vasitəsilə qəbul edilən beynəlxalq telefon trafikinin ümumistifadəli telekommunikasiya şəbəkəsinə dolayı yolla istiqamətləndirilməsini təmin edən qurğu başa düşülür.

**2.** Bu Məcəllənin 233-4.1-ci maddəsində “əhəmiyyətli zərər” dedikdə, dövlət təhlükəsizliyinə təhdid yaradan zərərin vurulması, yaxud fiziki və ya hüquqi şəxslərə on min manatdan yuxarı, lakin əlli min manatdan artıq olmayan məbləğdə ziyan vurulması başa düşülür.

**3.** Bu Məcəllənin 233-4.2.2-ci maddəsində “xeyli miqdar” dedikdə, əlli min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ, 233-4.3.1-ci maddəsində “külli miqdar” dedikdə yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 mart 2019-cu il
№ 1537-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD, 1384-VQD nömrəli, 18 dekabr tarixli 1395-VQD, 1398-VQD nömrəli, 28 dekabr tarixli 1406-VQD, 1427-VQD, 1432-VQD nömrəli, 2019-cu il 1 fevral tarixli 1476-VQD nömrəli, 19 fevral tarixli 1516-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci maddəyə "363," rəqəmlərindən sonra "363-1, 363-2," rəqəmləri əlavə edilsin.

**2.** 360-cı maddənin dispozisiyasında "Abonentə" sözü "Abunəçiyə" sözü ilə əvəz edilsin.

**3.** Aşağıdakı məzmunda 363-1-ci və 363-2-ci maddələr əlavə edilsin:

**"Maddə 363-1. Telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili**

**363-1.1.** Telekommunikasiya operatorunun və ya provayderinin telekommunikasiya şəbəkəsinə müvafiq qurğu vasitəsilə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkil edilməsinə görə -

inzibati xətanın törədilməsində istifadə olunan avadanlıqlar və vasitələr müsadirə edilməklə fiziki şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə, vəzifəli şəxslər dörd min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

**363-1.2.** Bu Məcəllənin 363-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

inzibati xətanın törədilməsində istifadə olunan avadanlıqlar və vasitələr müsadirə edilməklə fiziki şəxslər üç min beş yüz manatdan dörd min manatadək məbləğdə, vəzifəli şəxslər altı min manatdan yeddi min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:**

**1.** Bu Məcəllənin 363-1-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

**2.** Bu Məcəllənin 363-1 və 363-2-ci maddələrində "müvafiq qurğu" dedikdə, mobil nömrə sim-kartları quraşdırılan və internet vasitəsilə qəbul edilən beynəlxalq telefon trafikinin ümumistifadəli telekommunikasiya şəbəkəsinə dolayı yolla istiqamətləndirilməsini təmin edən qurğu başa düşülür.

**Maddə 363-2. Qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin qarşısının alınması üçün tədbirlərin görülməməsi**

Telekommunikasiya şəbəkəsinə müvafiq qurğu vasitəsilə qoşulmaqla təşkil edilən qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin texniki vasitələrdən, avadanlıqlardan və ya proqram təminatından istifadə etməklə qarşısının alınması üçün telekommunikasiya operatoru və ya provayderi tərəfindən tədbirlərin görülməməsinə görə -

vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on min manatadək məbləğdə cərimə edilir.".

**4.** 368-ci maddə üzrə:

**4.1.** adında "Abonentin" sözü "Abunəçinin" sözü ilə əvəz edilsin;

**4.2.** dispozisiyasında "abonentin" sözü "abunəçinin" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 mart 2019-cu il
№ 1538-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının aşağıdakı məcəllələrini "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1418-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 66-cı maddənin on ikinci abzasına, 67-2-ci maddənin adına və 1-ci hissəsinə, 70-ci maddənin "Qeyd"inə "ümumi təhsil" sözlərindən sonra "və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə)" sözləri əlavə edilsin;

**1.2.** 124-cü maddənin 6-cı hissəsində "məktəblərində, peşə liseylərində" sözləri "təhsili müəssisələrində" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1413-VQD nömrəli Qanunu) 102.6.2-ci maddəsindən "texniki-peşə məktəblərinin şagirdləri," sözləri çıxarılsın.

**Maddə 3.** Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422, № 10, maddələr 1971, 1978, № 11, maddə 2225) aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 8.2.5-ci maddədə, XII fəslin və 100-cü maddənin adında, 100.1, 100.2, 100.3-cü maddələrdə, 100.4-cü maddənin birinci cümləsində, 100.5-ci və 100.6-cı maddələrdə, 119.3-cü maddənin birinci cümləsində və 130.2-ci maddədə "ilk peşə-ixtisas" sözləri "peşə" sözü ilə əvəz edilsin;

**3.2.** 100.7-ci maddədə "İlk peşə-ixtisas" sözləri "Peşə" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 mart 2019-cu il
№ 1551-VQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Mediasiya haqqında

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 12-ci bəndlərinə uyğun olaraq, mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləyir, mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu müəyyən edir.

***1-ci fəsil. Ümumi müddəalar***

**Maddə 1. Əsas anlayışlar**

**1.0.** Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.0.1.** mediasiya – mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı bu Qanunla müəyyən olunan proses;

**1.0.2.** tərəflər – hüquqi və fiziki şəxslər (o cümlədən, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər), habelə mediasiya prosesinin tətbiqinə razılıq vermiş inzibati orqanlar;

**1.0.3.** mediator – peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflərin cəlb etdiyi və ya mediasiya təşkilatı tərəfindən təyin olunmuş, bu Qanunun tələblərinə cavab verən fiziki şəxs;

**1.0.4.** mediasiya təşkilatı – bu Qanunun 11.1-ci maddəsində müəyyən edilmiş hüquqi şəxs;

**1.0.5.** mediasiya iştirakçıları – mediator və tərəflər;

**1.0.6.** mediasiyada iştirak edən digər şəxslər – mediasiya prosesində iştirak edən vəkillər, nümayəndələr, tərcüməçilər, ekspert və mütəxəssislər, mediasiya təşkilatının əməkdaşları, habelə tərəflərin razılığı ilə mediasiya prosesində iştirak edən digər şəxslər;

**1.0.7.** barışıq sazişi – tərəflər arasında mediasiya prosesi nəticəsində əldə edilən yazılı razılaşma;

**1.0.8.** mediasiya prosesinin tətbiqi barədə müqavilə – mübahisənin (mövcud və ya gələcəkdə yarana biləcək) mediasiya prosesi vasitəsilə həlli üçün tərəflər arasında bağlanan yazılı razılaşma;

**1.0.9.** mediasiyaya dair qeyd-şərt – tərəflərin hər hansı mübahisə ilə bağlı məhkəməyə və ya arbitraja (münsiflər məhkəməsinə) müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakını tələb edən müqavilə, müqavilə şərti, yaxud hər hansı digər sənəddə olan şərt;

**1.0.10.** mediasiya xidmətlərinin göstərilməsinə dair müqavilə – mediator və ya mediasiya təşkilatı ilə tərəflər arasında mediasiya xidmətlərinin göstərilməsi üçün imzalanan yazılı müqavilə;

**1.0.11.** mübahisə – tərəflər arasında yaranmış (və ya yarana biləcək) bu Qanunun 3.1-ci maddəsində nəzərdə tutulmuş mübahisə.

**Maddə 2. Mediasiya haqqında qanunvericilik**

**2.1.** Mediasiya haqqında qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**2.2.** Ələt azad iqtisadi zonasında mediasiya sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**Maddə 3. Mediasiyanın tətbiq dairəsi**

**3.1.** Mediasiya aşağıdakılar üzrə tətbiq edilir:

**3.1.1.** mülki işlər və iqtisadi mübahisələr (xarici elementli mübahisələr də daxil olmaqla);

**3.1.2.** ailə münasibətlərindən irəli gələn mübahisələr;

**3.1.3.** əmək münasibətlərindən irəli gələn mübahisələr;

**3.1.4.** inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr.

**3.2.** İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə bu Qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur.

**3.3.** Bu Qanunun 3.1-ci maddəsində nəzərdə tutulan mübahisələr mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunduqda belə mübahisələr üzrə mediasiya keçirilə bilməz. Həmin hallar aşkar edildikdə mediator (mediasiya təşkilatı), tərəflər və ya onlardan biri həmin mübahisələr üzrə mediasiya prosesindən imtina edirlər.

**3.4.** Mediasiya prosesinin nəticəsində barışıq sazişi bağlanmadığı hallarda məhkəmədən əvvəl mediasiya prosesi ilə bağlı xərclərin öz üzərinə düşən hissəsini ödəmiş tərəfin və ya bu Qanunun 36.2-ci maddəsinə uyğun olaraq mediasiya xərclərini ödəmiş tərəfin məhkəməyə müraciət edərkən dövlət rüsumundan azad olunması məsələsi “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. Məhkəməyə müraciət etdikdən sonra tərəflər arasında mediasiya prosesinin nəticəsində barışıq sazişi imzalanarsa, ödənilmiş dövlət rüsumu Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq geri qaytarılır.

**3.5.** Məhkəmələrin inzibati binalarında onların yerləşdikləri ərazilərə yaxın yerlərdə fəaliyyət göstərən mediatorlar və mediasiya təşkilatları barədə məlumat lövhələri yerləşdirilməlidir. Mediasiya Şurası mediasiya reyestrində dəyişikliklər baş verdikcə həmin məlumat lövhələrindəki informasiyanın müvafiq məhkəmələr tərəfindən daim yenilənməsinin həyata keçirilməsini təmin etməlidir.

**Maddə 4. Mediasiyanın məqsəd və prinsipləri**

**4.1.** Mediasiya tərəflər arasında münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə mübahisənin həllini təmin etmək məqsədini daşıyır.

**4.2.** Mediasiya aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

**4.2.1.** könüllülük;

**4.2.2.** tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı;

**4.2.3.** mediatorların qərəzsizliyi və müstəqilliyi;

**4.2.4.** mediasiya prosesinə müdaxilənin yolverilməzliyi;

**4.2.5.** konfidensiallıq.

**Maddə 5. Könüllülük**

**5.1.** Mediasiya könüllü (bu Qanunun 28-ci və 29-cu maddələri nəzərə alınmaqla) xarakter daşıyır və tərəflər mediatorun seçilməsində sərbəstdirlər.

**5.2.** Mediasiya tərəflərin qarşılıqlı razılığı ilə bağlanan "mediasiya prosesinin tətbiqi barədə müqavilə" əsasında (bu Qanunun 21.1-ci maddəsi nəzərə alınmaqla) həyata keçirilir.

**5.3.** Mediasiya zamanı tərəflər öz mülahizələrinə əsasən maddi və prosessual hüquqlarından istifadə edirlər, habelə tələblərinin həcmini artırmaq və ya azaltmaq, bu Qanunun 28-ci və 29-cu maddələrinin tələbləri nəzərə alınmaqla mediasiyanın istənilən mərhələsində mediasiyadan imtina etmək hüquqlarına malikdirlər.

**Maddə 6. Tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı**

**6.1.** Tərəflər mediasiya zamanı bütün məsələlərdə, o cümlədən mediatorun seçilməsində bərabər hüquqlardan istifadə edirlər və bərabər vəzifələr daşıyırlar.

**6.2.** Tərəflər mediasiyanın məqsədləri naminə əməkdaşlıq etməli və qarşılıqlı şəkildə fəaliyyət göstərməlidirlər.

**6.3.** Mediasiya mübahisənin həllində tərəflərin əməkdaşlığına, habelə ünsiyyət və danışıqlara əsaslanır.

**Maddə 7. Mediatorların müstəqilliyi, qərəzsizliyi və mediasiya prosesinə müdaxilənin yolverilməzliyi**

**7.1.** Mediasiya zamanı mediator müstəqil və qərəzsiz olmalıdır. Mediator mediasiya prosesini həyata keçirən zaman tərəflərdən, dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən asılı olmamalıdır və mediasiya zamanı adıçəkilən orqanların və şəxslərin mediatorun fəaliyyətinə müdaxiləsinə yol verilmir.

**7.2.** Mediator mediasiya zamanı hər iki tərəfə bərabər yanaşmalı, tərəflərin mediasiya zamanı bərabər iştirakını təmin etməli və hər iki tərəfə proses zamanı tələblərini təqdim etmək üçün bərabər imkanlar yaratmalıdır. Mediatorun qərəzsizliyinə mane olan hallar olduqda mediator mediasiya

**Maddə 8. Konfidensiallıq**

**8.1.** Tərəflər arasında ayrı şərt müəyyən edilməyibsə, mediasiya qapalı keçirilir.

**8.2.** Tərəflər arasında ayrı şərt müəyyən edilməyibsə, həmçinin barışıq sazişinin təsdiqi və icrası məqsədilə tələb olunan hallar istisna olmaqla, mediasiya zamanı əldə olunan bütün məlumatların (o cümlədən, tərəflərdən birinin mediasiyanın həyata keçirilməsi barədə təşəbbüsü, mediasiyaya və mübahisənin mümkün həll variantına razılıq verməsi, tərəflərdən birinin və ya mediatorun mübahisənin mümkün həllinə dair rəy və ya təklifləri, mediasiya zamanı tərəflərdən birinin verdiyi bəyanatları və ya etdiyi etirafları, mediasiyanın həyata keçirilməsi məqsədi ilə tərtib olunmuş sənədlər və s.) konfidensiallığı mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər tərəfindən qorunur.

**8.3.** Mediasiya iştirakçılarının və mediasiyada iştirak edən digər şəxslərin onlara mediasiya zamanı məlum olan məlumatları məhkəmə və arbitraj (münsiflər məhkəməsi) proseslərində, başqa mediasiya zamanı və ya hər hansı digər hallarda açıqlamaq və ya onlara istinad etmək hüququ yoxdur (həmin məlumatı verən tərəfin yazılı razılığı olduğu hallar istisna olmaqla) və belə məlumatlarla bağlı həmin şəxslər şahid qismində iştirak edə bilməzlər.

**8.4.** Bu Qanunun 8.2-ci, 8.3-cü və 8.5-ci maddələri mediasiya zamanı ağır və xüsusilə ağır cinayət hadisələri haqqında əldə olunan məlumatların verilməsi, habelə cinayət mühakimə icraatı zamanı mediasiyaya aid məlumatların açıqlanması vəzifəsinin məhkəmə qərarı ilə müəyyən edilməsi hallarına şamil olunmur.

**8.5.** Mediatorun və mediasiya təşkilatının müvafiq fəaliyyətini həyata keçirmək hüququ dayandırıldıqdan və ya Mediasiya Şurasının üzvlüyündən çıxarılmasından sonra da mediasiya zamanı əldə olunmuş məlumatların konfidensiallığının qorunması təmin olunmalıdır.

**8.6.** Mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər tərəfindən bu Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş konfidensiallıqla bağlı qaydaların pozulması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 9. Tərəflərin hüquq və vəzifələri**

**9.1.** Tərəflərin aşağıdakı hüquqları vardır:

**9.1.1.** bu Qanunun 5-ci və 6.1-ci maddələrində nəzərdə tutulan hüquqlar;

**9.1.2.** mediasiya təşkilatını və ya mediatoru seçmək və onlardan imtina etmək;

**9.1.3.** mediasiyanın aparılmasında şəxsən və ya etibarnamə əsasında təmsilçi vasitəsilə iştirak etmək;

**9.1.4.** mediasiya prosesi və onun mümkün nəticələri barədə məlumat almaq;

**9.1.5.** bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

**9.2.** Tərəflər qarşılıqlı razılaşma əsasında bu Qanuna uyğun olaraq, mediasiya prosesinin tətbiqinin, onun həyata keçirilməsinin və başa çatdırılmasının bütün şərtlərini sərbəst şəkildə müəyyən edə bilərlər.

**9.3.** Tərəflərin aşağıdakı vəzifələri vardır:

**9.3.1.** barışıq sazişinin icrasını təmin etmək;

**9.3.2.** mediasiya prosesinin konfidensiallığını qorumaq;

**9.3.3.** bu Qanunla müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.

***2-ci fəsil. Mediatorun fəaliyyəti***

**Maddə 10. Mediatora dair tələblər**

**10.1.** Mediator olmaq istəyən fiziki şəxs aşağıdakı tələblərə cavab verməlidir:

**10.1.1.** ali təhsilə malik olmalıdır;

**10.1.2.** 25 yaşı tamam olmalıdır;

**10.1.3.** ən azı 3 illik iş stajına malik olmalıdır;

**10.1.4.** mediatorların ilkin hazırlığı üzrə təlimi bitirərək bu Qanunun 14.2-ci maddəsində nəzərdə tutulmuş sertifikatı əldə etməlidir;

**10.1.5.** bu Qanunun 17.5-ci maddəsində nəzərdə tutulmuş hallarda müvafiq müddətin keçməsi gözlənilməlidir.

**10.2.** Aşağıdakı fiziki şəxslər mediator ola bilməzlər:

**10.2.1.** məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş şəxslər;

**10.2.2.** barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər;

**10.2.3.** məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər.

**10.3.** Bu Qanunun 10.2-ci maddəsində göstərilən hallar olmadıqda, bu Qanunun 10.1-ci maddəsində göstərilən tələblərə cavab verən fiziki şəxs Mediasiya Şurasının üzvlüyünə qəbul edildiyi andan mediator fəaliyyəti ilə məşğul olmaq hüququ əldə edir.

**10.4.** Mediator qanunla qadağan olunmayan istənilən digər fəaliyyətlə məşğul ola bilər.

**Maddə 11. Mediasiya təşkilatı**

**11.1.** Mediasiya təşkilatı mediasiyanın inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədilə, mediasiya xidmətlərinin marketinqini, əmək müqaviləsi və ya müvafiq mülki-hüquqi müqavilə bağladığı mediatorların xidmətləri üçün haqqın və digər xərclərin ödənilməsinə dair qaydanı müəyyən edən, mediasiya zamanı danışıqların aparılması üçün şərait yaradan, bu Qanunla və ya tərəflərin razılığı ilə müəyyən edildiyi hallarda mediasiya prosesini aparmaq üçün mediatorları təyin edən, habelə mediatorların effektiv fəaliyyətinə yönələn digər tədbirlər həyata keçirən hüquqi şəxsdir.

**11.2.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınmış hüquqi şəxs mediasiya təşkilatı ola bilər.

**11.3.** Hüquqi şəxs Mediasiya Şurasının üzvlüyünə qəbul edildiyi andan mediasiya təşkilatı kimi fəaliyyət göstərmək hüququ əldə edir. Mediasiya Şurasının üzvlüyünə qəbul edilməsi üçün hüquqi şəxs aşağıdakı tələblərə cavab verməlidir:

**11.3.1.** ən azı iki mediatorla (onlardan əz azı biri ali hüquq təhsilli olmalıdır) əmək müqaviləsi olmalıdır;

**11.3.2.** mediator tərəfindən göstərilən mediasiya xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi üçün təsdiq olunmuş qaydaya malik olmalıdır;

**11.3.3.** istifadəsində ən azı iki otaqdan ibarət ofisi olmalıdır;

**11.3.4.** bu Qanunun 11.8-ci maddəsində nəzərdə tutulmuş hallar olduğu halda, müvafiq müddətin keçməsi gözlənilməlidir.

**11.4.** Mediasiya təşkilatının mediasiya fəaliyyətini həyata keçirmək hüququ aşağıdakı hallarda dayandırılır:

**11.4.1.** mediasiya təşkilatı tərəfindən ərizə təqdim edildikdə (o cümlədən mediasiya təşkilatının hüquqi şəxs kimi fəaliyyəti dayandırıldığı halda);

**11.4.2.** bu Qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasına dair Mediasiya Şurasının qərarını yerinə yetirmədikdə (pozuntunun aradan qaldırılması üçün zəruri olan müddət nəzərə alınmaqla 1 aydan 6 ayadək müddətə).

**11.5.** Mediasiya təşkilatı Mediasiya Şurasının üzvlüyündən aşağıdakı hallarda çıxarılır:

**11.5.1.** mediasiya təşkilatı tərəfindən müvafiq ərizə təqdim edildikdə;

**11.5.2.** mediasiya təşkilatı ləğv edildikdə;

**11.5.3.** hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayılması ilə bağlı məhkəmənin müvafiq qərarı olduqda;

**11.5.4.** Mediasiya Şurasının üzvlüyünə daxil olmaq məqsədilə təqdim etdiyi sənədlərdə və məlumatlarda sonradan düzgün olmayan məlumatlar aşkar edildikdə;

**11.5.5.** mediasiya fəaliyyətini həyata keçirmək hüququnun dayandırıldığı müddətin bitməsinə ən azı 1 iş günü qalmış bu Qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasının nəticəsi barədə Mediasiya Şurasına yazılı məlumat vermədikdə;

**11.5.6.** üzvlük haqqını altı aydan artıq müddətdə üzrsüz səbəbdən ödəmədikdə.

**11.6.** Mediasiya təşkilatının mediasiya fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və ya Mediasiya Şurasının üzvlüyündən çıxarılması Mediasiya Şurasının qərarı (bu Qanunun 11.5.5-ci və 11.5.6-cı maddələrinə əsasən çıxarılması isə yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı) ilə həyata keçirilir və belə qərarlar qüvvəyə mindiyi tarixdən həmin mediasiya təşkilatı barəsində mediasiya reyestrində müvafiq qeydlər aparılır.

**11.7.** Mediasiya təşkilatının mediasiya fəaliyyətini həyata keçirmək hüququnun dayandırılmasına əsas olmuş bu Qanunun 11.4.2-ci maddəsində göstərilmiş hallar aradan qalxdıqda mediasiya təşkilatının bu Qanunun 11.5.5-ci maddəsində müəyyən edilmiş müddət ərzində etdiyi yazılı müraciət əsasında Mediasiya Şurası tərəfindən onun fəaliyyətinin bərpa olunması haqqında 5 gün müddətində qərar qəbul olunur.

**11.8.** Mediasiya Şurasının üzvlüyündən bu Qanunun 11.5.4-cü və 11.5.6-cı maddələrinə əsasən çıxarılmış hüquqi şəxs və ya həmin hüquqi şəxsin təsisçisinin təsis etdiyi digər hüquqi şəxs bu qərar qüvvəyə mindiyi tarixdən 1 il keçdikdən sonra Mediasiya Şurasının üzvlüyünə qəbul olunmaq üçün bu Qanunla müəyyən edilmiş qaydada Mediasiya Şurasına müraciət edə bilər.

**Maddə 12. Mediatorun hüquq və vəzifələri**

**12.1.** Mediatorun aşağıdakı hüquqları vardır:

**12.1.1.** öz istəyi əsasında fərdi qaydada və ya mediasiya təşkilatı vasitəsilə mediasiya fəaliyyətini həyata keçirmək;

**12.1.2.** tərəflərlə razılaşdırılmış xidmət haqqı almaq;

**12.1.3.** mediasiya prosesində hər iki tərəflə birgə və ya ayrı-ayrılıqda görüşlər keçirmək, əməkdaşlıq etmək, onlara şifahi və yazılı tövsiyələr vermək;

**12.1.4.** konfidensiallıq prinsipini gözləməklə ictimaiyyəti öz fəaliyyəti haqqında məlumatlandırmaq;

**12.1.5.** nümayəndə ilə təmsil olunan tərəflə nümayəndəni məlumatlandırmaqla birbaşa əlaqə saxlamaq;

**12.1.6.** bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

**12.2.** Mediatorun aşağıdakı vəzifələri vardır:

**12.2.1.** bu Qanunla müəyyən olunan mediasiya prinsiplərinə riayət etmək;

**12.2.2.** iki ildə bir dəfədən az olmayaraq təşkil olunan ixtisasartırma kurslarında iştirak edərək müvafiq sertifikat almaq;

**12.2.3.** mediasiya zamanı tərəflərin razılığı çərçivəsində hərəkət etmək;

**12.2.4.** mediasiya başlanana qədər tərəflərə mediasiyanın məqsədlərini, onların hüquq və vəzifələrini izah etmək;

**12.2.5.** mediasiya bitdikdən sonra tərəflərin ona verdiyi sənədləri geri qaytarmaq;

**12.2.6.** bu Qanunun 20.1.5-ci maddəsində nəzərdə tutulmuş qaydalara əməl etmək;

**12.2.7.** Mediasiya Şurası tərəfindən bu Qanuna uyğun olaraq qəbul olunan qərarları icra etmək;

**12.2.8.** bu Qanunla müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.

**12.3.** Mediator tərəflərə hüquqi və ya digər xidmət göstərə və ya mediasiya predmeti olan mübahisə üzrə məhkəmə və ya arbitraj (münsiflər məhkəməsi) prosesində tərəflərdən hər hansı birini təmsil edə və arbitr (münsif) qismində çıxış e

**Maddə 13. Mediatora etiraz**

**13.1.** Mediasiya zamanı tərəflər qarşılıqlı razılıq əsasında mediatoru başqa mediator ilə əvəz etmək hüququna malikdirlər.

**13.2.** Mediator bu Qanunla müəyyən olunan mediasiya prinsipləri əsasında mediasiyanı həyata keçirə bilmədikdə dərhal özü-özünə etiraz etməlidir.

**13.3.** Mediator mediasiyanın davam etdirilməsinin mübahisənin həllinə gətirməyəcəyi qənaətinə gələrsə, mediasiyanı aparmaqdan imtina edə və ya tərəflərin yazılı razılığı ilə mediasiyanın prosesinə xitam verə bilər.

**Maddə 14. Mediatorların ilkin hazırlığı və ixtisasının artırılması**

**14.1.** Mediator olmaq istəyən şəxslərin ilkin hazırlığı, həmçinin mediatorların ixtisasının artırılması mediasiya təlimi qurumunda həyata keçirilir.

**14.2.** Mediatorların ilkin hazırlığı üzrə təlimi bitirmiş şəxslərə, həmçinin ixtisasartırma kursunu bitirmiş mediatorlara mediasiya təlimi qurumu tərəfindən müvafiq sertifikat verilir.

**14.3.** Mediasiya təlimi qurumunda təlim mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasına uyğun olaraq həyata keçirilir.

**14.4.** Mediasiya təlimi qurumuna bu Qanunun 11.2-ci və 11.4–11.8-ci maddələrin tələbləri şamil olunur. Bu Qanunun 14.5-ci maddəsinin tələblərinə cavab verdiyi halda mediasiya təlimi qurumu qismində mediasiya təşkilatı da çıxış edə bilər.

**14.5.** Hüquqi şəxs Mediasiya Şurasının üzvlüyünə qəbul edildiyi andan mediasiya təlimi sahəsində fəaliyyət göstərmək hüququ əldə edir. Mediasiya Şurasının üzvlüyünə mediasiya təlimi qurumu qismində qəbul edilməsi üçün hüquqi şəxs aşağıdakı tələblərə cavab verməlidir:

**14.5.1.** aşağıdakı göstərilən şəxslər kateqoriyasından ən azı ikisi ilə əmək müqaviləsi və ya müvafiq mülki-hüquqi müqaviləsi olmalıdır:

**14.5.1.1.** son 2 il ərzində ən azı 10 mediasiya işi aparmış ən azı 1 mediatorla;

**14.5.1.2.** son 6 ildə mediasiya üzrə (o cümlədən, mübahisələrin alternativ həlli fənninin tərkib hissəsi olaraq) azı 2 il pedaqoji staja malik və ya son 3 il ərzində beynəlxalq layihələr çərçivəsində ən azı 2 mediasiya təlimi aparmış 1 təlimçi ilə;

**14.5.1.3.** beynəlxalq mediasiya qurumlarının mediasiya sahəsində təşkil etdiyi mediasiya təlimçilərinin təlimindən keçməsi barədə müvafiq sertifikatı olan ən azı 1 təlimçi ilə;

**14.5.2.** ilkin hazırlıq və ixtisasartırma mediasiya dərsləri üzrə təfsilatlı proqrama malik olmalıdır;

**14.5.3.** bu Qanunun 11.8-ci maddəsində nəzərdə tutulmuş hallar olduğu halda, müvafiq müddətin keçməsi gözlənilməlidir.

**14.6.** Xarici ölkələrdə bu Qanunun 14.5.1.1–14.5.1.3-cü maddələrinə uyğun olaraq əldə edilmiş iş təcrübəsinin və ya sertifikatların tanınması məsələsi mediasiya reyestrinin aparılması qaydası ilə tənzimlənir.

**Maddə 15. Mediasiya reyestri**

**15.1.** Mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının siyahısının müəyyən edilməsi məqsədi ilə Mediasiya Şurası tərəfindən mediasiya reyestri aparılır.

**15.2.** Mediasiya təşkilatları, mediatorlar və mediasiya təlimi qurumları mediasiya reyestrində onlar barədə olan məlumatlarda baş vermiş dəyişikliklər barədə 30 gün müddətində Mediasiya Şurasına məlumat verməlidirlər.

**15.3.** Mediasiya təşkilatları, mediatorlar və mediasiya təlimi qurumları haqqında məlumatların mediasiya reyestrinə daxil edilməsi, həmin məlumatlarda dəyişikliklər edilməsi, həmçinin bu Qanunun 14.6-cı maddəsində nəzərdə tutulmuş məsələləri özündə əks etdirən mediasiya reyestrinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**15.4.** Mediasiya reyestri açıqdır və Mediasiya Şurasının rəsmi internet səhifəsində yerləşdirilir və məlumatlar daim yenilənir.

**Maddə 16. Mediatorun intizam məsuliyyəti**

**16.1.** Mediator bu Qanunun 12.2-ci və 12.3-cü maddələrində nəzərdə tutulan vəzifələrin pozulmasına görə intizam məsuliyyəti daşıyır. Mediatorun intizam məsuliyyətinə cəlb edilməsi barədə məlumat mediasiya reyestrinə daxil edilir və daxil edildiyi gündən 6 ay ərzində reyestrdə saxlanılır.

**16.2.** Yol verilmiş pozuntunun ağırlıq dərəcəsindən asılı olaraq mediatora qarşı aşağıdakı intizam məsuliyyəti tədbirləri tətbiq edilir:

**16.2.1.** xəbərdarlıq;

**16.2.2.** töhmət;

**16.2.3.** 1 aydan 6 ayadək müddətə mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması.

**16.3.** Mediatora qarşı intizam tədbirləri Mediasiya Şurasının qərarı ilə tətbiq edilir. Mediatora qarşı intizam tədbirləri pozuntunun baş verdiyi tarixdən 1 il müddətində tətbiq edilir. İntizam icraatının həyata keçirilməsi qaydası Mediasiya Şurası tərəfindən müəyyən olunur.

**16.4.** Mediator tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həll olunmamasına və ya barışıq sazişinin icra edilməməsinə görə məsuliyyət daşımır.

**16.5.** İntizam məsuliyyəti mediatoru bu Qanunla müəyyən olunan vəzifələri pozması nəticəsində vurduğu zərərə görə mülki, inzibati və cinayət məsuliyyətindən, həmçinin işlədiyi mediasiya təşkilatı tərəfindən tətbiq edilən intizam məsuliyyətindən azad etmir.

**Maddə 17. Mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və ya mediatorun Mediasiya Şurasının üzvlüyündən çıxarılması**

**17.1.** Mediator fəaliyyətini həyata keçirmək hüququ aşağıdakı hallarda dayandırılır:

**17.1.1.** öz arzusu ilə müvafiq ərizə təqdim etdikdə;

**17.1.2.** bu Qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasına dair Mediasiya Şurasının qərarını yerinə yetirmədikdə (pozuntunun aradan qaldırılması üçün zəruri olan müddət nəzərə alınmaqla 1 aydan 6 ayadək müddətə);

**17.1.3.** bu Qanunun 16.2.3-cü maddəsində nəzərdə tutulmuş halda.

**17.2.** Mediator Mediasiya Şurasının üzvlüyündən aşağıdakı hallarda çıxarılır:

**17.2.1.** öz arzusu ilə müvafiq ərizə təqdim etdikdə;

**17.2.2.** barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin

tətbiqinə dair qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

**17.2.3.** qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunması məhkəmə tərəfindən müəyyən edildikdə;

**17.2.4.** vəfat etdikdə;

**17.2.5.** məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;

**17.2.6.** bu Qanunun 12.2.2-ci maddəsinə uyğun olaraq ixtisasartırma kursunu müvafiq qaydada keçmədikdə;

**17.2.7.** bir il ərzində bu Qanunun 16.2-ci maddəsində nəzərdə tutulan intizam məsuliyyəti tədbirləri azı 3 dəfə tətbiq edildikdə;

**17.2.8.** Mediasiya Şurasının üzvlüyünə daxil olmaq məqsədi ilə təqdim etdiyi sənədlərdə və məlumatlarda sonradan düzgün olmayan məlumatlar aşkar edildikdə;

**17.2.9.** mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırıldığı müddətin bitməsinə ən azı 1 iş günü qalmış bu Qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasının nəticəsi barədə Mediasiya Şurasına yazılı məlumat vermədikdə;

**17.2.10.** üzvlük haqqını altı aydan artıq müddətdə üzrsüz səbəbdən ödəmədikdə.

**17.3.** Mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və ya Mediasiya Şurasının üzvlüyündən çıxarılma Mediasiya Şurasının qərarı (bu Qanunun 17.2.7-ci, 17.2.9-cu və 17.2.10-cu maddələrinə əsasən çıxarılma isə yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı) ilə həyata keçirilir və belə qərarlar qüvvəyə mindiyi tarixdən həmin mediator barəsində mediasiya reyestrində müvafiq qeydlər aparılır.

**17.4.** Mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılmasına əsas olmuş bu Qanunun 17.1.2-ci maddəsində göstərilmiş hallar aradan qalxdıqda mediatorun bu Qanunun 17.2.9-cu maddəsində müəyyən edilmiş müddət ərzində etdiyi yazılı müraciət əsasında, həmçinin bu Qanunun 16.2.3-cü maddəsində nəzərdə tutulmuş müddət bitdikdə Mediasiya Şurası tərəfindən mediatorun fəaliyyətinin bərpa olunması haqqında 5 gün müddətində qərar qəbul olunur.

**17.5.** Mediasiya Şurasının üzvlüyündən bu Qanunun 17.2.2-ci, 17.2.7-ci, 17.2.8-ci və 17.2.10-cu maddələrinə əsasən çıxarılmış fiziki şəxs bu qərar qüvvəyə mindiyi tarixdən 1 il keçdikdən sonra (bu Qanunun 17.2.2-ci maddəsində nəzərdə tutulmuş halda isə həmçinin məhkumluğun ödənilməsi və ya götürülməsi şərti ilə) Mediasiya Şurasının üzvlüyünə qəbul olunmaq üçün bu Qanunla müəyyən edilmiş qaydada Mediasiya Şurasına müraciət edə bilər.

### *3-cü fəsil. Mediasiya Şurasının fəaliyyəti*

**Maddə 18. Mediasiya Şurası**

**18.1.** Mediasiya Şurası bu Qanunun 20.1-ci maddəsində nəzərdə tutulmuş funksiyaların həyata keçirilməsi məqsədilə, mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının məcburi üzvlüyü əsasında yaradılan, fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən qeyri-kommersiya hüquqi şəxsdir.

**18.2.** Mediasiya Şurası bu Qanuna, digər normativ hüquqi aktlara və nizamnaməsinə uyğun olaraq təşkil olunur və fəaliyyət göstərir.

**Maddə 19. Mediasiya Şurasının əmlakı**

**19.1.** Mediasiya Şurasının mülkiyyətində (istifadəsində) qanunla qadağan olunmayan növlərdə əmlak ola bilər.

**19.2.** Mediasiya Şurasının əmlakı üzvlük haqlarından, qrantlardan, ianələrdən və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşır.

**19.3.** Mediasiya Şurasının üzvləri üçün üzvlük haqqının məbləği, bu məbləğin ödənilməsi müddəti və qaydaları Şuranın nizamnaməsi ilə müəyyən olunur.

**Maddə 20. Mediasiya Şurasının funksiyaları**

**20.1.** Mediasiya Şurası aşağıdakı funksiyaları həyata keçirir:

**20.1.1.** mediasiya sahəsində tənzimləməni və nəzarəti həyata keçirir;

**20.1.2.** mediasiyanın inkişafı ilə bağlı tədbirlər görür, bu sahədə dövlət proqramlarının və normativ hüquqi aktların layihələrinin hazırlanmasını təşkil edir və ya hazırlanmasında iştirak edir;

**20.1.3.** mediator fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin ilkin hazırlığı üzrə təlimin və mediatorların ixtisasartırma kurslarının mediasiya təlimi qurumları tərəfindən keçirilməsi ilə bağlı tədbirlər görür;

**20.1.4.** mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının reyestrini aparır;

**20.1.5.** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasına, mediasiya reyestrinin aparılması qaydasına, mediatorların peşəkar etik davranış qaydasına, mediasiya prosesinin həyata keçirilməsi qaydasına dair təkliflər hazırlayır;

**20.1.6.** mediasiya prosesi ilə bağlı sənədlərin, o cümlədən protokol və arayışların formalarını hazırlayır və təsdiq edir;

**20.1.7.** mediasiya təşkilatlarından, mediatorlardan və mediasiya təlimi qurumlarından statistik məlumatları toplayır və təhlil edir;

**20.1.8.** üç ildə bir dəfədən az olmayaraq mediasiya sisteminin səmərəliliyini təhlil edir, bundan irəli gələrək müvafiq təkliflər verir və digər tədbirlər görür;

**20.1.9.** mediasiya sahəsində konfranslar və təşviqat tədbirlərinin keçirilməsini təşkil edir;

**20.1.10.** mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının fəaliyyəti ilə əlaqədar daxil olan müraciətlərə baxır;

**20.1.11.** mediasiya təşkilatı, mediator və mediasiya təlimi qurumu tərəfindən bu Qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasına dair qərar qəbul edir;

**20.1.12.** mediatorların intizam məsuliyyətinə cəlb olunması barədə qərar qəbul edir;

**20.1.13.** mediatorların, mediasiya təşkilatlarının və mediasiya təlimi qurumlarının müvafiq fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və Mediasiya Şurasının üzvlüyündən çıxarılması barədə qərarlar qəbul edir, bu Qanunun 11.6-cı və 17.3-cü maddələrində nəzərdə tutulmuş hallarda isə məhkəmə qarşısında müvafiq məsələ qaldırır;

**20.1.14.** intizam icraatının həyata keçirilməsi qaydasını müəyyən edir;

**20.1.15.** mediasiya fəaliyyəti haqqında informasiya və statistik xarakterli hesabatı rübdə bir dəfə ictimaiyyətə açıqlayır;

**20.1.16.** bu Qanunla və nizamnaməsi ilə müəyyən olunmuş digər funksiyaları həyata keçirir.

**20.2.** Mediasiya təşkilatı, mediator və mediasiya təlimi qurumu Mediasiya Şurasının qərarlarından, digər hərəkət və hərəkətsizliyindən məhkəməyə şikayət verə bilərlər.

### *4-cü fəsil. Mediasiya prosesi*

**Maddə 21. Mediasiya prosesinin tətbiqi üçün əsaslar**

**21.1.** Mediasiya prosesi tərəflər arasında bağlanan "mediasiya prosesinin tətbiqi barədə müqavilə" əsasında və ya bu Qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq ilkin mediasiya sessiyasında iştirak etməklə həyata keçirilir.

**21.2.** "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" tərəflər arasında yaranmış mübahisənin məhkəməyə verilməsinə qədər və ya məhkəmədə işə baxılan zaman tətbiq edilə bilər.

**21.3.** "Mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin bağlanması təşəbbüsü ilə tərəflər və ya onlardan biri çıxış edə bilər. Məhkəmələr də tərəflərə aralarında yaranmış mübahisənin mediasiya yolu ilə həllinə dair təkliflər verirlər. Bu Qanunun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallarda isə müvafiq orqanlar (qurumlar) tərəflərə bu Qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq ilkin mediasiya sessiyasında iştirak etmək vəzifələrini izah edirlər.

**21.4.** Bu Qanunla müəyyən edilmiş qaydada "mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin bağlanması məhkəmədə tərəflər arasında baxılan mülki, inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə icraatın dayandırılmasına səbəb olur.

**21.5.** Mediasiya prosesi bu Qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş təklifin göndərildiyi andan, belə təklif olmadıqda isə bu Qanunun 28-ci və 29-cu maddələrinə nəzərdə tutulmuş hallarda tərəflərin ilkin mediasiya sessiyasında iştirak etdiyi, digər hallarda isə bu Qanunun 22-ci maddəsində nəzərdə tutulmuş "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlandığı andan başlanmış sayılır.

**21.6.** Tərəflərdən biri mediasiya prosesinin tətbiqi barədə yazılı formada digər tərəfə bu Qanunun 22-ci (22.1.1-ci, 22.1.4-cü, 22.1.7-ci və 22.1.8-ci maddələr istisna olmaqla) maddəsində nəzərdə tutulan məlumatları, həmçinin tərəflərin qarşılıqlı razılaşdığı mediator (mediatorlar) və ya mediasiya təşkilatı varsa, bu barədə məlumatı, olmadıqda isə bu barədə təklifləri əks etdirən təklifi göndərir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, bu maddənin birinci cümləsində qeyd edilən təklif tərəfə mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

**21.7.** Bu Qanunun 21.8-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, bu Qanunun 21.6-cı maddəsinə uyğun olaraq göndərilmiş təklifə 10 gün ərzində cavab verilmədikdə mediasiya prosesinə bu Qanunun 32.1.4-cü maddəsinə əsasən, həmin təklif 10 gün ərzində hər hansı formada rədd edildikdə isə mediasiya prosesinə bu Qanunun 32.1.3-cü maddəsinə əsasən avtomatik xitam verilir.

**21.8.** Tərəflər arasında mediasiyaya dair qeyd-şərtdə mediatorun (mediasiya təşkilatının) adı müəyyən edildiyi halda və bu Qanunun 21.6-cı maddəsinə uyğun olaraq göndərilmiş təklifə 10 gün ərzində cavab verilmədikdə və ya təklif rədd edildikdə, təklifi göndərən tərəf mediasiyaya dair qeyd-şərtdə nəzərdə tutulmuş mediatora (mediasiya təşkilatına) müraciət edir. Həmin mediatorun (mediasiya təşkilatının) bu Qanunun 22-ci (22.1.1-ci maddə istisna olmaqla) maddəsində nəzərdə tutulan məlumatları və mediasiya sessiyasının keçirilmə tarixi, vaxtı və yerini əks etdirən mediasiya sessiyası barədə bildirişi tərəflərə təqdim etməsindən sonra tərəflər və ya onlardan biri mediasiya sessiyasında iştirak etmədikdə və ya iştirak etməkdən yazılı şəkildə imtina etdikdə, yaxud "mediasiya prosesinin tətbiqi barədə müqavilə"ni imzalamağa razı olmadıqda, mediator sessiyada iştirak edən və etməyən tərəfləri qeyd etməklə "Mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı arayışı həmin şəxslərə təqdim edir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, bu maddənin ikinci cümləsində qeyd edilən bildiriş tərəflərə mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

**21.9.** Aşağıdakı tələblərin birinə əməl edilmədən məhkəməyə müraciət edildikdə müraciət məhkəmə tərəfindən baxılmamış saxlanılır:

**21.9.1.** bu Qanunun 28-ci və 29-cu maddələrində nəzərdə tutulmuş hallarda tərəf bu Qanunun 29.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq arayışı və ya protokolu məhkəməyə etdiyi müraciətinə əlavə etmədikdə;

**21.9.2.** tərəflər arasında "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlandığı halda bu Qanunun 32.2-ci maddəsində nəzərdə tutulmuş protokol məhkəməyə edilmiş müraciətə əlavə edilmədikdə;

**21.9.3.** tərəflər arasında mediasiyaya dair qeyd-şərt olduğu halda bu Qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş təklifin göndərilməsi ilə əlaqədar başlamış mediasiya prosesinə bu Qanunun 21.7-ci maddəsində müəyyən edilmiş qaydada xitam verilmədikdə;

**21.9.4.** bu Qanunun 21.8-ci maddəsində nəzərdə tutulmuş hallarda tərəf həmin maddədə nəzərdə tutulmuş arayışı məhkəməyə etdiyi müraciətə əlavə etmədikdə.

**21.10.** Tərəfin mediasiyaya dair qeyd-şərtə və ya "mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin şərtlərinə zidd olaraq mediasiyada üzrsüz səbəbdən iştirak etməməsi qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 22. Mediasiya prosesinin tətbiqi barədə müqavilə**

**22.1.** "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" yazılı şəkildə bağlanır və həmin müqavilədə aşağıdakılar göstərilir:

**22.1.1.** müqavilənin tarixi, vaxtı və tərtib olunduğu yer;

**22.1.2.** tərəflərin adları və rekvizitləri;

**22.1.3.** mübahisənin predmeti;

**22.1.4.** tərəflərin seçdiyi mediator (mediatorlar) və ya mediasiya təşkilatı haqqında məlumatlar;

**22.1.5.** mediasiya prosesi ilə əlaqədar xərclərin ödənilməsi şərtləri və qaydası;

**22.1.6.** əgər tərəflər arasında digər razılaşma yoxdursa, mediasiyanın keçirilməsinin məxfiliyi haqqında tərəflərin öhdəlikləri və həmin öhdəliyə əməl etməməyə görə məsuliyyət;

**22.1.7.** mediasiya prosesinin keçirilmə müddəti;

**22.1.8.** mediasiya prosesinin keçirilmə qaydası;

**22.1.9.** Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, bu Qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq başqa şərtlər.

**22.2.** Tərəflərin qarşılıqlı razılaşması ilə "mediasiya prosesinin tətbiqi barədə müqavilə"yə əlavə və dəyişikliklər edilə bilər.

**22.3.** "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" təmsilçi vasitəsilə bağlanıla, ona əlavə və dəyişikliklər edilə bilər. Təmsilçiyə verilən etibarnamədə bu Qanunun

22.1-ci və 22.2-ci maddələrində göstərilən səlahiyyətlər xüsusi olaraq göstərilməlidir.

**Maddə 23. Mediatorun və ya mediasiya təşkilatının seçilməsi, mediasiyanın keçirilmə yeri və vaxtı**

**23.1.** Mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflər qarşılıqlı razılaşma əsasında bir və ya bir neçə mediator seçir. Tərəflər mediatorun seçilməsi üçün mediasiya təşkilatına da müraciət edə bilərlər.

**23.2.** Tərəflər mediatorun seçilməsi üçün mediasiya təşkilatına müraciət etdikdə mediasiya təşkilatı tərəflərə bir və ya bir neçə mediatorun namizədliyini təklif edir və ya tərəflər arasında bağlanmış "mediasiya prosesinin tətbiqi barədə müqavilə"də nəzərdə tutulduğu, həmçinin tərəflərin qarşılıqlı razılaşmasına əsasən və ya bu Qanunun 28.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş hallarda mediatoru (mediatorları) bilavasitə təyin edir.

**23.3.** Mediator və ya mediasiya təşkilatı "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlandığı ana qədər tərəflərə mediasiyanın məqsədlərini, onların hüquq və vəzifələrini ödənişsiz izah etməlidir.

**23.4.** Mediator və ya mediasiya təşkilatı ilə tərəflər arasında münasibətlər mediasiya xidmətlərinin göstərilməsinə dair müqavilə ilə tənzimlənir. Mediasiya xidmətlərinin göstərilməsinə dair bağlanan müqavilədə mediatorun və ya mediasiya təşkilatının, tərəflərin hüquq və vəzifələri, məsuliyyəti, konfidensiallıq, mediasiya xərcləri, bu Qanuna və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq digər şərtlər müəyyən olunur.

**23.5.** Mediator tərəflərin qarşılıqlı razılığı ilə mediasiya prosesinin keçirilmə yerini və vaxtını müəyyənləşdirir.

**Maddə 24. Mediasiya prosesinin həyata keçirilməsi qaydaları**

**24.1.** Mediasiya prosesi bu Qanuna, mediasiya prosesinin həyata keçirilməsi qaydasına və bu qaydaya uyğun olaraq hazırlanmış mediasiya təşkilatının daxili qaydasına (olduğu halda), mediatorların peşəkar etik davranış qaydasına uyğun olaraq həyata keçirilir.

**24.2.** Mediasiya prosesində mediator bütün tərəflərlə birlikdə və ya ayrı-ayrılıqda görüşlər keçirə, əməkdaşlıq edə, şifahi və yazılı tövsiyələr verə bilər. Bu zaman mediator tərəflərdən birini üstün mövqeyə qoyan və ya hüquq və vəzifələrini məhdudlaşdıran hərəkətlərə yol verməməlidir.

**24.3.** Bu Qanunun 28-ci və 29-cu maddələri nəzərə alınmaqla, tərəflər mediasiya prosesinin istənilən anında mediasiyadan imtina edə bilərlər.

**24.4.** Tərəflər mediasiya prosesində bilavasitə və ya nümayəndələri vasitəsilə iştirak edə bilərlər. Tərəflər mediasiya prosesində vəkillərin, tərcüməçilərin, müvafiq sahədə ekspert və mütəxəssislərin köməyindən istifadə edə bilərlər. Tərəflərin razılaşması ilə mediasiya prosesində digər şəxslər də iştirak edə bilər.

**24.5.** Mediasiya prosesində tərəflər öz mövqelərinə və mübahisənin həlli şərtlərinə dair təkliflərini yazılı və ya şifahi şəkildə bildirirlər. Mediasiya prosesində tərəflər mübahisənin həlli şərtlərinə dair razılığa gəlirlər.

**24.6.** Mediasiya prosesinin hər hansı mərhələsində mediator mübahisənin həlli məqsədilə tərəflər üçün öhdəlik nəzərdə tutmayan şifahi və ya yazılı təklifi irəli sürə bilər. Barışıq təklifi tərəflərin razılığı ilə verilir.

**24.7.** Bu Qanunun 21.5-ci maddəsinə uyğun olaraq, mediasiya prosesinin ümumi müddəti 30 gündən artıq olmayaraq davam edə bilər. Mübahisənin mürəkkəbliyi nəzərə alınaraq tərəflərin razılaşması ilə mediasiya prosesinin müddəti daha 30 gün müddətinə qədər uzadıla bilər. Mediasiya prosesinin keçirilməsinin konkret müddəti ümumi müddət nəzərə alınmaqla "mediasiya prosesinin tətbiqi barədə müqavilə" ilə müəyyən olunur.

**Maddə 25. Mülki işlər və iqtisadi mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

**25.1.** Tərəflərin qarşılıqlı razılaşması ilə həlli mümkün olan istənilən mülki işlər və iqtisadi mübahisələr (xarici elementli mübahisələr də daxil olmaqla) mediasiya vasitəsilə həll oluna bilər.

**25.2.** İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 26. Ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

**26.1.** Ailə münasibətlərindən irəli gələn aşağıdakı mübahisələr bu Qanuna uyğun olaraq mediasiya vasitəsilə həll oluna bilər:

**26.1.1.** nikahın davam etdirilməsi şərtləri;

**26.1.2.** valideynlik hüquq və vəzifələrinin həyata keçirilməsi qaydası;

**26.1.3.** uşağın yaşayış yerinin müəyyən edilməsi;

**26.1.4.** uşağın və əmək qabiliyyəti olmayan digər ailə üzvlərinin saxlanılması qaydası;

**26.1.5.** ailə münasibətlərindən irəli gələn digər mübahisələr.

**26.2.** Nikah müqaviləsinə mediasiyaya dair şərtlər daxil edilə bilər.

**26.3.** Uşağın maraqlarına toxunan ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediator müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyini alır.

**26.4.** Əgər ailə münasibətlərindən irəli gələn mübahisələr zamanı uşağın normal böyüməsinə və inkişafına təhlükə yaradan, yaxud onun maraqlarına zərər vura bilən hallar mövcuddursa və ya belə halların yaranma ehtimalı olarsa, mediator bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməyə borcludur və mediator göstərilən işlər üzrə mediasiya prosesinin həyata keçirilməsindən imtina edə bilər.

**26.5.** Tərəflər uşağın böyüməsinə, inkişafına və digər maraqlarına toxunan barışıq sazişini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etməyə borcludurlar.

**26.6.** Ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 27. Əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

**27.1.** Əmək münasibətlərindən irəli gələn aşağıdakı mübahisələr bu Qanuna uyğun olaraq, mediasiya vasitəsilə həll oluna bilər:

**27.1.1.** fərdi əmək mübahisələri;

**27.1.2.** kollektiv əmək mübahisələri.

**27.2.** Əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə

bağlı təlim qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 28. İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin mediasiya sessiyasında iştirak**

**28.1.** İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl tərəflər ilkin mediasiya sessiyasında iştirak etməlidirlər.

**28.2.** Bu Qanunun 28.1-ci maddəsində qeyd edilən mübahisələr üzrə ilkin mediasiya sessiyasını tərəflərin qarşılıqlı razılaşdırdığı mediator və ya mediator təşkilatı aparır.

**28.3.** Tərəfin bu Qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş mediasiya prosesinin tətbiqi barədə təklifi digər tərəfə təqdim edildikdən sonra 10 iş günü ərzində qəbul edilmədikdə və ya tərəflər bu Qanunun 28.2-ci maddəsinə əsasən mediator və ya mediasiya təşkilatı barədə razılığa gəlmədikdə, ilkin mediasiya sessiyası tərəflərdən hər hansı birinin ilkin müraciət etdiyi, mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə (bu Qanunun 28.4-cü maddəsi nəzərə alınmaqla) həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatı tərəfindən aparılır. Bu halda tərəflər mediator barədə razılığa gəlmədikdə, mediatoru mediasiya təşkilatı təyin edir.

**28.4.** Məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı mövcud olmadıqda və ya həmin mediasiya təşkilatında işə baxılması mümkün olmadıqda, tərəflərdən hər hansı birinin müraciəti əsasında mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilkin mediasiya sessiyasının aparılması üçün mediator müəyyən edə bilər.

**Maddə 29. İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin və sonrakı mediasiya sessiyaları**

**29.1.** Mediator ilkin mediasiya sessiyasında iştirak etmək üçün müraciət edən tərəflərə mediasiya prosesinin mahiyyətini, üstünlüklərini və qaydalarını izah edir, tərəflərlə birgə və ayrılıqda görüşlər keçirir. Həmin gün və ya tərəflərin müraciəti ilə mediatorun təyin etdiyi başqa gün tərəflər sonrakı mediasiya sessiyalarında iştirak etmək istəyib-istəmədiklərinə dair qərar verməlidirlər.

**29.2.** Tərəflər və ya onlardan biri onlara mediatorun (mediasiya təşkilatının) və ya digər tərəfin bu Qanunun 22-ci (22.1.1-ci maddə istisna olmaqla) maddəsində nəzərdə tutulan məlumatları və ilkin mediasiya sessiyasının keçirilmə tarixi, vaxtı və yerini əks etdirən ilkin mediasiya sessiyası barədə bildirişi təqdim etməsindən sonra tərəflər və ya onlardan biri ilkin mediasiya sessiyasında iştirak etmədikdə və ya iştirak etməkdən yazılı şəkildə imtina etdikdə, mediator sessiyada iştirak edən və etməyən tərəfləri qeyd etməklə "İlkin mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı arayışı həmin şəxslərə təqdim edir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, bu maddənin birinci cümləsində qeyd edilən bildiriş tərəflərə ilkin mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

**29.3.** Tərəflərdən biri və ya hər ikisi mediasiya prosesini davam etdirməyə razılıq vermədikdə, habelə bu Qanunun 3.3-cü və 26.4-cü maddələrinə əsasən mediator mediasiya prosesinin həyata keçirilməsindən imtina etdikdə, mediator mediasiya prosesinə xitam verir və "İlkin mediasiya sessiyasından sonra prosesin davam etdirilə bilməməsi" ilə bağlı arayışı tərəflərə təqdim edir.

**29.4.** Tərəfin ilkin mediasiya sessiyasında üzrsüz səbəbdən iştirak etməməsi qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**29.5.** Tərəflər mediasiya prosesini davam etdirməyə qərar verdikdə isə tərəflər arasında "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanılır və bu Qanunun 24-cü maddəsinə uyğun olaraq mediasiya prosesi həyata keçirilir.

**29.6.** Tərəflər mediasiya prosesinin yekununda barışıq sazişi bağlamadıqda, habelə bu Qanunun 3.3-cü və 26.4-cü maddələrinə əsasən mediator mediasiya prosesinin həyata keçirilməsindən imtina etdikdə, mediator mediasiya prosesinə xitam verir və bu barədə müvafiq protokolu tərəflərə təqdim edir.

**29.7.** Bu Qanunun 29.2-ci, 29.3-cü və 29.6-cı maddələrində göstərilən arayışı və ya protokolu əldə etdikdən sonra tərəf məhkəməyə və ya arbitraja (münsiflər məhkəməsinə) müraciət edə bilər. Müraciətə müvafiq arayış və ya protokol əlavə edilməlidir.

**Maddə 30. İnzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, inzibati orqanlar tərəfindən inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi, yaxud inzibati orqanın digər hərəkət və ya hərəkətsizliyindən irəli gələn mübahisələr (həmin Qanunun 4.3-cü maddəsində nəzərdə tutulmuş mübahisələr (o cümlədən "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati ərazi vahidləri arasında ərazi məsələləri ilə bağlı mübahisələr) istisna olmaqla) bu Qanuna uyğun olaraq, mediasiya vasitəsilə həll oluna bilər.

**Maddə 31. Məhkəmə mediasiyası**

**31.1.** Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq öz təşəbbüsü və tərəflərin razılığı ilə, yaxud tərəflərdən birinin müraciəti və digər tərəfin razılığı ilə onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Belə halda məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.

**31.2.** Tərəflər qarşılıqlı razılıq əsasında mübahisəyə baxacaq mediasiya təşkilatı və ya mediator barədə razılığa gələ bilərlər. Belə razılıq olmadıqda, mübahisəyə həmin məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə (bu maddənin üçüncü cümləsi nəzərə alınmaqla) həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatında baxılır. Məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı mövcud olmadıqda və ya həmin mediasiya təşkilatında işə baxılması mümkün olmadıqda, tərəflərdən hər hansı birinin müraciəti əsasında mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə mediasiyanın aparılması üçün mediator müəyyən edə bilər.

**31.3.** Mediasiya prosesində iştirak edən, lakin müsbət nəticə əldə etməyən tərəflər və ya onlardan biri mediasiya prosesinin nəticələri barədə protokolu təqdim etməklə növbəti dəfə məhkəməyə müraciət etdikdə dayandırılmış icraat təzələnir və işə məhkəmə tərəfindən baxılır.

**31.4.** Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə isə barışıq sazişi və ya bu barədə mediator tərəfindən tərtib olunmuş protokol məhkəməyə təqdim olunur. Məhkəmə bununla bağlı tərəflərin iştirakı ilə keçirilmiş iclasda onların razılığı ilə iş üzrə icraata xitam verir.

**31.5.** Hakimin fəaliyyətinin qiymətləndirilməsi zamanı mediasiyaya yönəldilən (bu Qanunun 28.1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) işlərin sayı və bu Qanuna uyğun olaraq barışıq sazişinin əldə edilməsi əsasında icraata xitam verilən məhkəmə işlərinin sayı nəzərə alınır.

**Maddə 32. Mediasiya prosesinə xitam verilməsi**

**32.1.** Mediasiya prosesinə aşağıdakı hallarda xitam verilir:

**32.1.1.** tərəflər arasında barışıq sazişi bağlandıqda;

**32.1.2.** mübahisənin tərəflərin qarşılıqlı razılaşması ilə həllinin mümkünsüzlüyü mediator tərəfindən müəyyən edildikdə;

**32.1.3.** tərəflər və ya onlardan biri mediasiya prosesindən imtina etdikdə;

**32.1.4.** tərəflərin mediasiya prosesinin müddətinin uzadılmasına dair müraciətləri olmamışsa, bu Qanunun 24.7-ci maddəsinə uyğun olaraq mediasiya prosesinin müddəti bitdikdə;

**32.1.5.** tərəf olan fiziki şəxs öldükdə, hüquqi şəxs ləğv edildikdə və ya fəaliyyəti dayandırıldıqda;

**32.1.6.** tərəflərdən biri məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;

**32.1.7.** tərəflərdən birinin fəaliyyət qabiliyyətli olmaması və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmə tərəfindən müəyyən edildikdə;

**32.1.8.** mediator və ya mediasiya təşkilatı Mediasiya Şurasının üzvlüyündən çıxarıldıqda, həmçinin mediator və ya mediasiya təşkilatı mediasiya prosesindən imtina etdikdə (bu Qanunun 28.1-ci maddəsində nəzərdə tutulmuş mübahisələr üzrə isə yalnız sonrakı mediasiya sessiyasında imtina etdikdə);

**32.1.9.** bu Qanunun 21.8-ci, 29.2-ci və 29.3-cü maddələrində göstərilən arayış tərtib olunduqda.

**32.2.** Bu Qanunun 32.1.2–32.1.8-ci maddələrində nəzərdə tutulan halların mediatora məlum olduğu tarixdən 3 gün müddətində mediasiya prosesinə xitam verilməsi haqqında mediator tərəfindən protokol tərtib olunur və imzalanır. Mediasiya prosesinə xitam verilməsi haqqında protokol mediator tərəfindən tərtib olunaraq imzalandığı tarixdən 1 gün müddətində tərəflərə (nümayəndələrinə) təqdim edilməlidir. Protokola mediasiyaya dair konfidensial məlumatların daxil edilməsinə yol verilmir. Protokolun forması Mediasiya Şurası tərəfindən müəyyən olunur.

**32.3.** Protokolun nüsxələri tərəflərin və təqdim ediləcəyi orqanların (qurumların) sayına uyğun olaraq tərtib olunur. Protokolun müvafiq orqana (quruma) təqdim edilməli olan nüsxəsini tərəflərdən biri həmin nüsxənin ona təqdim edildiyi tarixdən 1 iş günü müddətində müvafiq orqana (quruma) təqdim edir.

**32.4.** Mediasiya prosesinə aşağıdakı gündən xitam verilir:

**32.4.1.** barışıq sazişinin imzalandığı gündən;

**32.4.2.** bu Qanunun 32.1.9-cu maddəsində nəzərdə tutulan arayışın, 29.6-cı və ya 32.2-ci maddələrində nəzərdə tutulan protokolun tərəflərə təqdim edildiyi gündən.

**32.5.** Mediasiya prosesi bu Qanunun 21-ci maddəsinə uyğun olara

**Maddə 33. Barışıq sazişi**

**33.1.** Barışıq sazişi tərəflər arasında yazılı formada bağlanır. Barışıq sazişində aşağıdakı məlumatlar göstərilir:

**33.1.1.** müqavilənin tarixi və tərtib olunduğu yer;

**33.1.2.** tərəflər haqqında məlumat;

**33.1.3.** mübahisənin predmeti;

**33.1.4.** mediator (mediatorlar) və mediasiya prosesi mediasiya təşkilatı vasitəsilə həyata keçirildikdə mediasiya təşkilatı haqqında məlumatlar;

**33.1.5.** mübahisənin həlli istiqamətində tərəflərin qəbul etdiyi şərtlər, həmin şərtlərin yerinə yetirilməsinin üsul və müddətləri;

**33.1.6.** barışıq sazişinin şərtlərinin icra edilməməsinin və ya düzgün icra edilməməsinin nəticələri;

**33.1.7.** Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, bu Qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq başqa şərtlər.

**33.2.** Barışıq sazişi tərəflər və mediator (mediatorlar) tərəfindən imzalanır. Barışıq sazişinin nüsxələri tərəflərin və təqdim ediləcəyi orqanların (qurumların) sayına uyğun olaraq tərtib olunur.

**33.3.** Barışıq sazişi qüvvədə olan qanunvericiliyə və bu Qanunun 3.3-cü maddəsinin birinci cümləsinin müddəalarına zidd olmamalıdır.

**33.4.** Barışıq sazişi imzalandığı gündə tərəflərə təqdim edilməlidir. Barışıq sazişinin müvafiq orqana (quruma) təqdim edilməli olan nüsxəsini tərəflərdən biri həmin nüsxənin ona təqdim edildiyi tarixdən 1 iş günü müddətində müvafiq orqana (quruma) təqdim edir.

**Maddə 34. Barışıq sazişinin icrası**

**34.1.** Barışıq sazişi, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə barışıq sazişi imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır.

**34.2.** Barışıq sazişinin könüllü icrasından boyun qaçırma Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq barışıq sazişində müəyyən olunan məsuliyyətə səbəb olur.

**34.3.** Əgər barışıq sazişinin könüllü icrasından imtina olunsa, tərəf (o cümlədən məhkəmə baxışında olan işlər üzrə tərəf) barışıq sazişinin məcburi icrası üçün məhkəməyə və ya notariusa müraciət edə bilər.

**34.4.** Barışıq sazişi məcburi icra edilməsi üçün məhkəmə və ya notarius tərəfindən müvafiq qaydada təsdiq olunur (bu Qanunun 34.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla).

**34.5.** Barışıq sazişi bu Qanunun 33.3-cü maddəsinə zidd olduqda, onun təsdiq edilməsindən imtina olunur.

**Maddə 35. İddia müddətlərinin axımının dayandırılması**

**35.1.** Mediasiya prosesinin tətbiqi tərəflər arasında mübahisə üzrə qanunla nəzərdə tutulan iddia müddətinin axımının dayandırılmasına səbəb olur.

**35.2.** Mediasiya prosesi nəticəsində tərəflər arasında barışıq sazişi imzalanmazsa, mübahisə üzrə iddia müddətinin axımı bu Qanunun 32.4.2-ci maddəsində nəzərdə tutulan tarixdən bərpa olunmuş hesab olunur.

**Maddə 36. Mediasiya xərcləri**

**36.1.** Mediasiya prosesinə dair xərclərə daxildir:

**36.1.1.** mediatora və ya mediasiya təşkilatına ödənilən haqq, o cümlədən mübahisə mediasiya vasitəsilə müsbət həll olunduqda mediatora və ya mediasiya təşkilatına ödənilən mükafat;

**36.1.2.** mediasiyanın keçirilməsi ilə əlaqədar mediatorun və ya mediasiya təşkilatının çəkdiyi xərclər, o cümlədən mübahisənin baxıldığı yerə getmək üçün yol, yaşayış və yemək xərcləri.

**36.2.** Bu Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş ilkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**36.3.** Mediator və ya mediasiya təşkilatı mediasiyanı ödənişli əsaslarla həyata keçirir. Mediator və ya mediasiya təşkilatı öz razılığı ilə mediasiyanı ödənişsiz əsaslarla da həyata keçirə bilər.

**36.4.** Mediatora və ya mediasiya təşkilatına ödənilən haqqın məbləği mediasiya sessiyası başlanana qədər (bu Qanunun 28-ci və 29-cu maddələrində nəzərdə tutulan hallarda isə bu Qanunun 29.5-ci maddəsi nəzərə alınmaqla sonrakı mediasiya sessiyası başlanana qədər) tərəflərlə mediator və ya mediasiya təşkilatı arasında bu Qanunun 23.4-cü maddəsinə uyğun olaraq bağlanan müqavilədə müəyyən olunur.

**36.5.** "Mediasiya prosesinin tətbiqi barədə müqavilə"də və mediasiyaya dair qeyd-şərtdə başqa şərt nəzərdə tutulmayıbsa, həmçinin ilkin mediasiya sessiyasında tərəfin üzrsüz səbəbdən iştirak etməməsi halında digər tərəfin bütün mediasiya xərclərini ödədiyi hallar istisna olmaqla, mediasiyaya çəkilən xərclər tərəflər arasında bərabər şəkildə bölüşdürülür. Mediasiyaya dair qeyd-şərtə və ya "mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin şərtlərinə zidd olaraq mediasiyada, həmçinin ilkin mediasiya sessiyasında üzrsüz səbəbdən iştirak etməyən tərəf mediasiya ilə bağlı digər tərəfin çəkdiyi bütün mediasiya xərclərini ona ödəməlidir.

**36.6.** Mediator onun qərəzsizliyinə mane olan şərtlər səbəbindən mediasiyanın keçirilməsindən imtina edərsə, tərəflərin ödədiyi məbləği (faktiki çəkilmiş xərclər çıxılmaqla) geri qaytarmalıdır.

**36.7.** Mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan hər hansı tərəfin mediasiya xərclərinin ödənilməsi dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir. Mediasiya xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**36.8.** Barışıq sazişi imzalandıqdan sonra mediator tərəflərə çəkilmiş xərclər barədə hesabat verir və xərclənməmiş qalıq məbləği onlara qaytarır.

***5-ci fəsil. Yekun müddəalar***

**Maddə 37. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasına görə mediator, mediasiya təşkilatı, tərəflər və mediasiyada iştirak edən digər şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 38. Keçid müddəa**

İlk mediasiya təlimi qurumu Mediasiya Şurasının üzvlüyünə qəbul edilənədək bu Qanunun 10.1.1–10.1.3-cü və 10.2-ci maddələrinin tələblərinə cavab verən mediator, həmçinin bu Qanunun 11.2-ci və 11.3.1–11.3.3-cü maddələrinin tələblərinə cavab verən mediasiya təşkilatı bu Qanuna uyğun olaraq mediasiya xidmətlərini göstərə bilər.

**Maddə 39. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanunun 3.2-ci, 28-ci və 29-cu maddələri və həmin maddələrlə bağlı olan müddəalar 2020-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 mart 2019-cu il
№ 1555-VQ

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

## "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 69; 2016, № 10, maddə 1600; 2018, № 7 (I kitab), maddə 1396, № 12, (I kitab), maddə 2513) 29.2-ci maddəsində "Bir" sözü "Ad və ya rəqəm dəyişiklikləri ilə əlaqədar bir neçə normativ hüquqi aktlara dəyişikliklərin edilməsi və ya bir neçə normativ hüquqi aktın ləğv edilməsi zərurətinin yarandığı hallar istisna olmaqla, bir" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 3 may 2019-cu il
№ 1570-VKQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında

Ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir.

Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir.

Eyni zamanda, ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi üçün hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsi daha da yaxşılaşdırılmalı, müvafiq infrastrukturun yenilənməsi işləri davam etdirilməli, məhkəmə icraatında müasir informasiya texnologiyalarının tətbiqinin üstünlüklərindən hərtərəfli istifadə edilməli, digər mühüm məsələlər həll olunmalıdır.

Ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının bütün məhkəmələrinin sədrlərinə və hakimlərinə tövsiyə edilsin ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər.

**2.** Cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, müvafiq qanun layihələrini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

**3.** Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, aşağıdakı məsələlərə dair normativ hüquqi aktların layihələrini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər:

**3.1.** sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması;

**3.2.** məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin vahid məhkəmə təcrübəsi formalaşdırmaq vəzifəsinin və həmin vəzifənin icra olunması mexanizminin təsbit edilməsi;

**3.3.** hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması;

**3.4.** hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılması;

**3.5.** məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun dərəcələrinin verilən iddiaların qiymətinə müvafiq olaraq diferensiasiya edilməsi;

**3.6.** məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun müəyyən hissəsinin məhkəmə aparatları işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilməsi;

**3.7.** məhkəmə icraatının obyektivliyini daha dolğun şəkildə təmin etmək üçün bütün məhkəmə iclaslarının fasiləsiz audioyazısının aparılması və protokolun məhkəmə iclasının audioyazısına uyğun tərtibi tələbinin müəyyən edilməsi;

**3.8.** mülki işlər, habelə inzibati xətalara, iqtisadi və inzibati mübahisələrə dair işlər üzrə məhkəmə ekspertizasının keçirilməsi və ekspert rəyinin verilməsi müddətlərinin dəqiqləşdirilməsi, məhkəmə prosesi tərəflərinin ekspertiza təyin edilməsi ilə bağlı hüquqlarının genişləndirilməsi.

**4.** Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılması, xüsusən sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə, apellyasiya instansiyası məhkəmələrinə, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına və Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına tövsiyə edilsin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə tapşırılsın ki, mülki prosessual qanunvericiliyi kompleks şəkildə birgə təhlil edib, bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsi barədə təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

**5.** Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin ki:

**5.1.** hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə müvafiq məlumatların qəbulu üçün qaynar xətt yaratsın;

**5.2.** hakimlərin və məhkəmə sədrlərinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi prosedurlarında şəffaflığı daha da artırsın, bu sahədə tətbiq edilən meyarları təkmilləşdirsin;

**5.3.** hüquq pozuntularına və Hakimlərin Etik Davranış Kodeksinin pozulması hallarına yol verən hakimlərin intizam məsuliyyətinin labüdlüyünü təmin etsin;

**5.4.** ədalət mühakiməsinin həyata keçirilməsində aşkarlığın və qərəzsizliyin daha dolğun şəkildə təmin edilməsi məqsədilə aşağıdakı sahələrdə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə məhkəmələrin riayət etməsinin mütəmadi monitorinqini aparsın:

**5.4.1.** məhkəmə qərarlarının elektron qaydada dərc edilməsi;

**5.4.2.** məhkəmələrdə işlərin təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi;

**5.4.3.** qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin edilməsi.

**6.** Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki:

**6.1.** məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün ciddi tədbirlər görsün;

**6.2.** ədalət mühakiməsinin keyfiyyətinin artırılması məqsədilə məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi sahəsində fəaliyyətini gücləndirsin;

**6.3.** məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində müəyyən edilmiş, sistemli xarakter daşıyan nöqsanların aradan qaldırılması üçün müvafiq mexanizm yaradılması barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**7.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

**7.1.** məhkəmələrin və digər orqanların qərarlarının qanunla müəyyən edilmiş müddətdə icrasının təmin edilməsi, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, icra məmurlarının süründürməçilik və sui-istifadə hallarına yol verməl追rinin qarşısının alınması məqsədilə ciddi tədbirlər görsün;

**7.2.** məhkəmələrin və digər orqanların qərarlarının icrasının sürətləndirilməsi və effektivliyinin artırılması məqsədilə bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**7.3.** məhkəmələrin və digər orqanların qərarlarının icrasının alternativ mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı qabaqcıl beynəlxalq təcrübəni öyrənsin və həmin təcrübənin Azərbaycan Respublikasında tətbiqinin mümkünlüyü barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**7.4.** məhkəmə ekspertizası fəaliyyətinin alternativ mexanizmləri, o cümlədən ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsi ilə bağlı beynəlxalq təcrübəni təhlil etsin və müvafiq təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**7.5.** ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə:

**7.5.1.** "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılmasını təmin etsin;

**7.5.2.** "Elektron məhkəmə" informasiya sistemində dərc edilən məhkəmə qərarları üzrə müxtəlif meyarlar əsasında effektiv axtarış aparmaq üçün müvafiq funksional imkan yaradılması məqsədilə tədbirlər görsün;

**7.5.3.** fiziki və hüquqi şəxslərin "Elektron məhkəmə" informasiya sistemindən istifadəsinin təşviqi üçün tədbirlər görsün;

**7.6.** mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərini həyata keçirsin.

**7.7.** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin və Ədliyyə Akademiyasının fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturunun və maddi-texniki təchizatının yaxşılaşdırılması üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**7.8.** birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**8.** Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsini mütəmadi təhlil etsin və bu fəaliyyətin keyfiyyətinin artırılması üçün tədbirlər görsün.

**9.** Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilsin ki, vəkillərin hakimlərlə və cinayət təqibini həyata keçirən orqanların əməkdaşları ilə qeyri-prosessual münasibətlərə yol verməsinin qarşısının alınması üçün tədbirləri gücləndirsin.

**10.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

**10.1.** bu Fərmanın 3.1-ci və 3.4–3.6-cı bəndlərində nəzərdə tutulmuş layihələrin hazırlanmasında iştirak etsin;

**10.2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə aşağıdakı məsələlər barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

**10.2.1.** məhkəmələrdə mövcud olan iş yükünü nəzərə alaraq, onlara məhkəmə icraatının təmin edilməsi, o cümlədən kargüzarlığın aparılması üçün ayrılan vəsaitin ehtiyaclara uyğun artırılması;

**10.2.2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə məhkəmə infrastrukturunun təkmilləşdirilməsi və məhkəmələrdə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılması məqsədilə əlavə maliyyə vəsaitinin ayrılması.

**11.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın və Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına tövsiyə edilsin ki, sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrin məhkəmədənkənar həlli vasitələrinin genişləndirilməsi məqsədilə, xarici dövlətlərin qabaqcıl təcrübəsi nəzərə alınmaqla ölkəmizdə səmərəli beynəlxalq arbitraj prosedurlarının təşviqinə dair birgə təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

**12.** Məhkəmələrin fəaliyyətinin daha optimal şəkildə qurulması, ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi və məhkəmələrdə işlərə baxılma müddətlərinin qısaldılması məqsədilə Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayı 200 nəfər artırılsın.

**13.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**13.1.** dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin dəqiq proqnozlaşdırılmasını və mərkəzləşdirilmiş uçotunu təmin etmək məqsədilə cari ilin və növbəti illərin dövlət büdcəsində dövlət hesabına göstərilən hüquqi yardıma görə vəsaitin birbaşa Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına ayrılması barədə müvafiq normativ hüquqi aktların layihələrini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**13.2.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 3 aprel 2019-cu il.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri"nin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur).*

**2.** "Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri" təsdiq edilsin *(əlavə olunur).*

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**3.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**3.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**3.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**3.4.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 aprel 2019-cu il.

## Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı haqqında ƏSASNAMƏ

*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

**1.** Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı Azərbaycan Respublikası Prezidentinin rəsmi hərbi simvoludur.

**2.** Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı 3 növdə hazırlanır:

**2.1.** etalon (bayrağın orijinalı) – Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Prezident Sarayında yerləşən xidməti otağında saxlanılır;

**2.2.** dublikat (bayrağın surəti) – Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi iştirak etdiyi rəsmi tədbirlərin və digər mərasimlərin keçirilməsi zamanı və o, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin struktur qurumlarına gəldikdə həmin tədbirin keçirildiyi binanın üzərində, olduğu gəmidə və ya həmin tədbir üçün nəzərdə tutulan salonda (otaqda) qaldırılır (asılır) və ya yerləşdirilir;

**2.3.** kiçildilmiş ölçülü dublikat (nəqliyyat üçün) – Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi səfərləri zamanı nəqliyyat vasitəsində quraşdırıla bilər.

**3.** Ölçülərindən asılı olmayaraq, bayrağın bütün dublikatları onun etalonunun (orijinalının) təsviri, rəng çalarları və ölçüləri nisbəti ilə eyni olmalıdır.

**4.** Azərbaycan Respublikasının Dövlət Bayrağı ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, qarşıdan baxıldıqda Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı Dövlət Bayrağından sağda yerləşdirilir.

## Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının TƏSVİRİ

*Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

**1.** Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq, Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinə tam uyğun şəkildə, ikiüzlü qumaşdan hazırlanır və eninin uzunluğuna nisbəti 1:2-dir.

**2.** Bayrağın hər iki üzünün ortasında Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının emblemi təsvir edilmişdir. Qumaşın üst kənarı boyu mavi zolaqda qızılı rəngli həriflərlə "AZƏRBAYCAN RESPUBLİKASI", aşağı kənarı boyu yaşıl zolaqda isə "SİLAHLI QÜVVƏLƏRİNİN ALİ BAŞ KOMANDANI" sözləri yazılmışdır.

«Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının təsviri»nə əlavə




«Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağı

**3.** Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının emblemi tiyələri yuxarı yönəlmiş çarpazlaşdırılmış qılıncların iti ucları arasında yerləşən Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirindən ibarətdir. Qılıncların tiyələrinin aşağı əsaslarından uclarına doğru hər iki tərəfə dəfnə budaqları yönəlmişdir. Dəfnə budaqları və qılıncların dəstəkləri qızılı, tiyələri isə gümüşü rəngdədir.

**4.** Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının bayrağının dirəyi girdə taxtadandır. Dirək tünd qəhvəyi boya ilə rənglənir, laklanır və yuxarı ucu aypara ilə səkkizguşəli ulduz formalı nikellənmiş metal başlıqla örtülür.

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**S Ə R Ə N C A M**

**№ 10/44**

Bakı şəhəri 07 iyun 2019-cu il

Baş Prokurorluq üzrə «Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrası sahəsində prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin daha səmərəli yerinə yetirilməsinin təmin edilməsi tədbirləri haqqında» 12 noyabr 2010-cu il tarixli 10/102 nömrəli əmrin icrasının təmin edilməsi üçün 4 noyabr 2016-cı il tarixli 10/65 nömrəli Sərəncamla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn və prokurorluğun fəaliyyətinə aid olan öhdəliklərin icrası ilə əlaqədar yaradılan ixtisaslaşdırılmış ekspert qruplarının tərkibi müəyyənləşdirilmişdir.

Həmin Sərəncamın qəbul edilməsindən ötən müddət ərzində prokurorluq orqanlarında aparılan kadr dəyişikliyi ilə bağlı yaradılan ixtisaslaşdırılmış ekspert qruplarının rəhbər və üzvlərinin bir hissəsinin yeni vəzifələrə təyinat almalarını, qrup üzvlərindən birinin intizam məsuliyyətinə cəlb edilərək tutduğu vəzifədən azad edilməsini və bir nəfər qrup üzvünün iş yerini dəyişməsini nəzərə alaraq, ixtisaslaşdırılmış ekspert qruplarının tərkiblərinin komplektləşdirilməsi məqsədilə «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən,

**Q Ə R A R A   A L I R A M:**

**1.** Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn və prokurorluğun fəaliyyətinə aid olan öhdəliklərin icrası ilə əlaqədar yaradılan ixtisaslaşdırılmış ekspert qruplarının tərkibi aşağıdakı qaydada müəyyənləşdirilsin:

**1.1.** İnsan hüquqları və azadlıqlarının müdafiəsi sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:

**Rəhbər:**

| | |
|---|---|
| Nazir Bayramov | Elm-Tədris Mərkəzinin rəisi; |

**Üzvlər:**

| | |
|---|---|
| Günay Əyyubova | Baş prokurorun köməkçisi; |
| Talıb Cəfərov | Elm-Tədris Mərkəzinin İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi; |
| Vüqar Quliyev | Elm-Tədris Mərkəzinin prokurorluq orqanlarının fəaliyyətinin təşkili kafedrasının müəllim-prokuroru; |
| Əminə Ağazadə | Beynəlxalq əlaqələr idarəsinin böyük prokuror-metodisti. |

**1.2.** Hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlərlə mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:

**Rəhbər:**

| | |
|---|---|
| Emil Tağıyev | Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin rəisi; |

**Üzvlər:**

| | |
|---|---|
| Araz Hidayətov | Respublika Hərbi Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin böyük prokuror-metodisti; |
| Mehman Poladov | Respublika Hərbi Prokurorluğunun Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin böyük prokuror-metodisti; |
| Ağayar Məmmədov | Respublika Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin böyük prokuroru; |
| Emin Musayev | Respublika Hərbi Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuroru. |

**1.3.** Korrupsiya cinayətlərinə, habelə cinayət yolu ilə əldə edilmiş pulların və digər əmlakın leqallaşdırılmasına qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:

**Rəhbər:**

| | |
|---|---|
| Heydər Məmmədov | Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi; |

**Üzvlər:**

| | |
|---|---|
| Aynur Osmanova | Hüquqi təminat idarəsinin rəis müavini; |

| | |
|---|---|
| Günay İsmayılova | Elm-Tədris Mərkəzinin rəis müavini; |
| Elnur Musayev | Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru; |
| Əmir Ocaqverdiyev | Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru; |
| Pirayə Əliyeva-Səmədzadə | Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru; |
| Natiq Eyvazov | Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru. |

**1.4.** İşgəncələrə, habelə digər qəddar və qeyri-insani rəftara qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:

**Rəhbər:**

| | |
|---|---|
| Adil Vəliyev | Prokurorluqda istintaqa nəzarət idarəsinin rəis müavini; |

**Üzvlər:**

| | |
|---|---|
| Qəhrəman Əsgərov | Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru; |
| Rafael Həsənov | Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru; |
| Namiq Əliyev | Hüquqi təminat idarəsinin prokuroru; |
| Mahir Abbasov | Dövlət ittihamının müdafiəsi üzrə idarənin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuroru. |

**1.5.** Ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:

**Rəhbər:**

| | |
|---|---|
| Rauf Zeynalov | Təşkilat-analitik idarəsinin rəis müavini; |

**Üzvlər:**

| | |
|---|---|
| Əyyub Bəşirov | Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru; |
| Elvin Bəşirli | Təşkilat-analitik idarəsinin Hüquqi statistika şöbəsinin prokuroru vəzifəsini icra edən; |
| İlahə Hüseynəliyeva | Hüquqi təminat idarəsinin prokuroru; |
| Ceyhun Budaqov | Dövlət ittihamının müdafiəsi üzrə idarənin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru. |

**1.6.** Terrorçuluğa qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:

**Rəhbər:**

| | |
|---|---|
| Rauf Məmmədov | Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini; |

**Üzvlər:**

| | |
|---|---|
| Alim Cəbrayılov | Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru; |
| Elşad Əzimov | Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru; |
| Ayaz Qayıbov | Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin kriminalistika şöbəsinin prokuroru vəzifəsini icra edən; |
| Arzu Zeynalabdiyeva | Beynəlxalq əlaqələr idarəsinin prokuroru. |

**1.7.** İnsan alverinə və insanın istismarına qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:

**Rəhbər:**

| | |
|---|---|
| Mehman Xankişiyev | DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini; |

**Üzvlər:**

| | |
|---|---|
| Hüseyn Hüseynov | DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru; |
| Cəfər Həsənov | DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru; |
| Kamran Həsənov | Beynəlaq əlaqələr idarəsinin Beynəlxalq-hüquqi əməkdaşlıq və protokol xidmətinin prokuroru; |

Ergin Qafarov — Dövlət ittihamının müdafiəsi üzrə idarənin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru.

**1.8.** Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:

**Rəhbər:**

Nurəli Məmmədov — DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini;

**Üzvlər:**

Samir Abbasov — DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru;

İlkin Qulubəyli — DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru;

Cabbar Cabbarov — Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru;

Seyhun Azadəliyev — Dövlət ittihamının müdafiəsi üzrə idarənin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru;

Vüsal Mehrəliyev — Hüquqi təminat idarəsinin prokuroru.

**1.9.** Ekstradisiya və hüquqi yardım məsələlərini tənzimləyən beynəlxalq müqavilələr üzrə ekspert qrupu:

**Rəhbər:**

Anar Məmmədov — Beynəlxalq əlaqələr idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin rəisi - idarə rəisinin müavini;

**Üzvlər:**

Orxan Yusubov — DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru;

Fərizə Mirzəyeva — Beynəlxalq əlaqələr idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru;

Samirə Nəcəfzadə — Beynəlxalq əlaqələr idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru;

Cövdət Mehrəliyev — Dövlət ittihamının müdafiəsi üzrə idarənin Apellyasiya və Kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru.

**2.** İxtisaslaşdırılmış ekspert qruplarının fəaliyyətinin əlaqələndirilməsi və səmərəliliyinin təmin edilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Sədr:**

Rüstəm Usubov — Baş prokurorun birinci müavini;

**Müavin:**

Erkin Əlixanov — Beynəlxalq əlaqələr idarəsinin rəisi;

**Üzvlər:**

Müqəddəs Sultanov — Təşkilat-analitik idarəsinin rəisi;

İlqar Cəfərov — Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi;

Nazim Abbasov — Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi;

Kamal Qılıcov — DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi;

Elşən Abbasov — Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi;

Nazir Bayramov — Elm-Tədris Mərkəzinin rəisi;

Natiq Hüseynov — Hüquqi təminat idarəsinin rəisi;

Şəfahət İmranov — Respublika Hərbi prokurorunun müavini;

Orxan İsayev — Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini.

**Məsul katib:**

İsmayıl Qayıbov — Beynəlxalq əlaqələr idarəsinin Beynəlxalq-hüquqi əməkdaşlıq və protokol xidmətinin rəhbəri.

**3.** Baş Prokurorluq üzrə 4.11.2016-cı il tarixli 10/65 nömrəli Sərəncam ləğv edilsin.

**4.** Sərəncam elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və tabe prokurorluqlara göndərilsin, «Azərbaycan Prokurorluğu» jurnalında dərc edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Zakir Qaralov**